Azadlıq Çırağı

azadliqciragi.org

# Adam Smit - iqtisadiyyatın əlifbası

*Eamon Butler*

“Azad Düşüncələr” Assosiasiyası

Bakı - 2008

İngiliscədən Azərbaycan dilinə
çevirənlər:

Tural  K.Vəliyev
Səadət Cahangirli

Redaktor:

Tural K.Vəliyev

ISBN  5–8066–1711–4

0605010407
655(07) – 2008

“Elm” nəşriyyatı – 2008

# Mündəricat

REDAKTORDAN ....5
ADAM SMİTİN BU GÜN ÜÇÜN ÖNƏMİ ....6
XÜLASƏ....8
ADAM SMİT NƏ ÜÇÜN ÖNƏMLİDİR? ....9
İqtisadiyyata dair keçmiş bir baxış ....9
Azad mübadilənin məhsuldarlığı ....9
Azadlığa əsaslanan ictimai quruluş....10
Əxlaq psixologiyası ....10
Şəxsi maraq və ləyaqət....10
İnsan təbiəti və insan cəmiyyəti....11
SMİTİN HƏYATI VƏ KARYERASI ....12
Kirkaldi və Qlazqou ....12
Oksford və stimullar ....12
İlkin mühazirəçilik karyerası ....13
Səyahətlər ....13
"Xalqların sərvəti" ....13
Xüsusi səlahiyyətli gömrük müfəttişi ....14
"XALQLARIN SƏRVƏTİ"....15
Geniş əhatəli kitab ....15
İstehsal və mübadilə....16
İxtisaslaşmanın üstünlükləri ....16
Mübadilədən gələn ümumi gəlirlər....17
Daha geniş bazar daha böyük qazanc gətirir ....17
Dəyər indeksi....18
Torpaq, kapital və əmək ....18
Bazarlar istehsalı necə idarə edir ....19
Əmək haqqı iqtisadi artımdan asılıdır....19
Bazar əmək haqqı normaları....20
Əmək haqqı və siyasət ....20
Kapital və mənfəət ....20
Torpaq və rentalar....21
Mexaniki sistem....21
Kapital yığımı ....21
Pul ....22
İstehlak və sərmayə....22
Kapital üzərində əlavə düşüncələr ....23
İqtisadi institutların tarixi ....23
İqtisadi nəzəriyyə və siyasət....24
Merkantilistlər və pul ....24
Mütləq mənfəət....24
Tariflər və subsidiyalar ....25
Müstəmləkə ticarətinin məhdudiyyətləri....25
Liberal alternativ....26
Dövlətin rolu....26
Müdafiə ....27
Ədalət ....27
İctimai işlər və institutlar....27
İctimai işlər....28
Gənclərin təhsili....28
Bütün yaşlarda olanlar üçün təhsil....29
Soveren....29

Verginin tətbiq olunma prinsipləri....................29
Dövlət borcları....................30
“Xalqların sərvəti” bu gün....................31
“ƏXLAQİ DUYĞULAR NƏZƏRİYYƏSİ”....................32
Kitabın əsas ideyaları....................32
Şəxsi maraq və rəğbət....................32
Ədalət, xeyriyyəçilik və ləyaqət....................32
Ləyaqət....................32
Təbii şəfqət hissi ləyaqətin əsası kimi....................32
Fikir ayrılığı və təmkinlilik....................33
Mükafat, cəza və cəmiyyət....................33
Ədalət təməl kimi....................34
Özünütənqid və vicdan....................35
Əxlaq qaydaları....................35
Sərvətə münasibət....................35
Özünü təkmilləşdirmə....................36
Ləyaqət....................36
Mükəmməl cəmiyyətin quruluşu....................37
SMİTİN MÜHAZİRƏLƏRİ VƏ BAŞQA YAZILARI....................38
Birləşmiş mövzular....................38
Smit elmin fəlsəfəsi haqqında....................38
Naməlum şəxsin dərdi....................39
Fərziyyələr və təkziblər....................39
Elm və insan qavrayışı....................39
Ünsiyyət psixologiyası....................40
Ünsiyyət və insan təbiəti....................40
Ünsiyyət elmi....................40
Smit hökumət və dövlət siyasəti haqqında....................41
Ədalət, dövlət və hüquq....................41
Əmək və mübadilə....................41
Bacarıqsız hökumət....................42
Azadlıq və inkişaf....................42
Nəticə....................43
“GÖRÜNMƏZ ƏL” RİCƏTİ....................44
Zəngin yoxsul üçün iş yaradır....................44
Yerli və xarici sənaye....................44
İnsan fəaliyyətinin düşünülməmiş nəticələri....................44
Davamlı sistem....................45
Fərdi fəaliyyət və ictimai nəticələr....................46
ADAM SMİTİN BƏZİ DEYİMLƏRİ....................47

# REDAKTORDAN

Adam Smit klassik siyasi iqtisadın banisidir. Böyük Britaniyada fəaliyyət göstərən Adam Smit İnstitutunun direktoru Eamon Butlerin müəllifliyi ilə nəşr olunan bu kitab siyasi iqtisadın atası A.Smit haqqında geniş bilgi verir. "Adam Smit – iqtisadiyyatın əlifbası"* kitabı həm görkəmli şəxsiyyətin həyatı, həm də yaradıcılığı ilə bağlı gərgin araşdırmaların məhsuludur.

Müəllif kitabda A.Smitin yaradıcılığında başlıca yer tutan "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında traktat" tədqiqat əsərinin əhatəli təhlilini təqdim edir.

Məlum olduğu kimi, bu möhtəşəm əsər dünyanın əksər dillərinə çevrilmiş və müxtəlif mənbələrdə əsərin adı da ayrı-ayrı formalarda verilmişdir.

Marks və təbii ki, bütün marksistlər marksizmin "üç tərkibi və üç mənbəyini" araşdırarkən A.Smit və D.Rikardonun simasında ingilis siyasi iqtisadiyyatını marksizmin mühüm mənbələrindən biri kimi şərh və təhlil etmişdir.

Heç təsadüfi deyil ki, marksizmin banisi K.Marks özünün şah əsəri "Kapital"da A.Smitə 130 dəfədən artıq istinad etmişdir. Eyni mənzərəyə bu və ya digər şəkildə liberal iqtisadiyyat əsərlərində də rast gəlirik.

Marksizmi qəbul etməyən liberal, mühafizəkar, milliyyətçi ideoloqlar da Adam Smitin simasında siyasi iqtisad sistemini yüksək qiymətləndirmişlər. Heç təsadüfi deyil ki, Sovetlər Birliyi dağıldıqdan, dünya sosialist sistemi çökəndən sonra yeni müstəqil dövlətlər üçün Adam Smitin iqtisadi baxışlar sistemi yeni önəm kəsb etmişdir. Bazar iqtisadiyyatının, liberal siyasi iqtisadın yenidən doğulması diqqət mərkəzindədir.

Yeni ideologiyanın formalaşması, Adam Smit irsinə böyük maraq və ehtiyac Azərbaycanda da açıq-aydın duyulmaqdadır.

Adam Smitin Türkiyə türkcəsinə tərcüməsini gerçəkləşdirən böyük türkçü alim, mütəfəkkir Azərbaycan türkü Əli bəy Hüseynzadə olmuşdur.

1928-ci il tarixli, çap olunmamış bu əsərin XI fəslini araşdırıcı Əliheydər Bayat "Hüseynzadə Əli bəy" (Ankara, 1998, s.205-216) kitabında nəşr etmişdir.

Əli bəy Hüseynzadənin Adam Smitə marağı və fikir həyatında ona xüsusi diqqət yetirməsi bizim ictimai fikir tariximiz üçün də çox əhəmiyyətlidir. Yeri gəlmişkən, qeyd edək ki, Ə.B.Hüseynzadənin 1928-ci ildəki tərcümə dili çağdaş Azərbaycan türkcəsinə çox yaxındır.

Orijinaldan – ingiliscədən tərcümə olunan bu kitab Adam Smit irsini tamamilə əhatə etməsə də, onun önəmli hissəsini təqdim edir.

Tərcüməçi S.Cahangir Azərbaycan dilinin siyasi-iqtisad üslubuna, terminlər sisteminə söykənərək ədəbi dilimiz üçün yeni olan dil-üslub özəlliklərinə üstünlük vermiş, orijinala sadiq qalaraq sadəliyə, aydınlığa, yığcamlığa, yeri gələndə obrazlılığa üstünlük vermişdir. Təbii ki, biz bu tərcümənin tamamilə qüsursuz olduğu iddiasında da deyilik. Yeni olan hər şey özü ilə bərabər müəyyən xətalar da gətirməmiş deyildir.

Biz inanırıq ki, oxucularımızdan gələn təklif, tənqid və rəylərlə gələcək nəşrlərimiz daha uğurlu olacaqdır.

Bu baxımdan zəhmət çəkib fikir, qeyd və rəylərini göndərən oxucularımıza bəri başdan öz təşəkkürlərimizi bildiririk.

Kitabın çapa hazırlanmasında öz dəyərli məsləhətlərini vermiş professor Kamil Vəli Nərimanoğluna, iqtisadçı alim Nemət Əliyevə, Ceyhun Hüseynova dərin minnətdarlığımızı bildiririk.

İnanırıq ki, Adam Smit haqqında Dr.Eamon Butlerin təqdim olunan bu kitabı siyasi iqtisadçılar, araşdırmaçılar, tələbələr və geniş oxucu kütləsi üçün də maraqlı olacaqdır.

**Tural K.VƏLİYEV**

---

* Biz kitabı Azərbaycan dilinə çevirərkən "Adam Smit – Əlifba" adını tam aydınlıq üçün "Adam Smit – iqtisadiyyatın əlifbası" kimi çevirdik. Hər iki ad eyni məzmunu ifadə edir (red.).

# ADAM SMİTİN BU GÜN ÜÇÜN ÖNƏMİ

Bir çoxlarına görə, xüsusilə onun ana vətəni Şotlandiyada, Adam Smit önəmli şəxsiyyətdir. Edinburqda onun şərəfinə abidə ucaldılıb, banknotlara əksi həkk olunub və kollec və teatrlara adı verilib. Hətta mən bunu da Qlazqou Universitetində Adam Smitin adını daşıyan binadakı ofisimdən (Q.Smit bu universitetin professorudur – Tərc.) yazıram. Amma kədərlidir ki, Smit onun düşündüyündən çox çox az tanınmış və tədqiq olunmuşdur. Smit Şotlandiyada, Britaniyada və həqiqətən, Avropada da tanınan hərtərəfli biliyə malik mütəfəkkirlərdən biridir. Ümid bunadır ki, Adam Smit "iqtisadiyyatın əlifbası" – dərsliyi bu geniş ictimai məlumatsızlığı düzəltməyə müəyyən dərəcədə yol açacaq.

Mənim Adam Smitlə ilk tanışlığım məlumatlı yuxarı sinif iqtisadiyyat müəllimim vasitəsilə yaranıb. O, dərsləri canlandırmaq üçün "Xalqların sərvəti"ndən misallar gətirirdi. Çərşənbə axşamı dördüncü dərs intellektual zövqlü söhbətlərlə qaynayırdı, sancaq düzəldənlər, yun palto hazırlayan işçilər və qəssablar, pivəçilər və çörəkçilər... Mənim bəxtim gətirdi ki, bu böyük şəxsin fəaliyyəti haqqında erkən təcrübə qazandım və hətta bəxtim daha artıq onda gətirdi ki, şotland maarifçiliyi əsasında keçdiyim o dərsi sonrakı yüksək təhsilimin bir hissəsi kimi götürmək imkanım yarandı.

Təəssüf ki, Smitin düşüncələri haqqında mənim faydalandığım ilkin təcrübə bütünlükdə çox azdır. Bu gün Smitin yaradıcılığı tələbə və qeyri-peşəkarlar tərəfindən kifayət dərəcədə oxunmur. Smit bizim məktəb və universitetlərdə yetərincə öyrənilməyib. Bu, böyük bir nöqsandır. Xüsusi olaraq təəssüfləndiricidir ki, bir çox yüksək dərəcəsi olmayan iqtisadçı tələbələr öz sahələrinin əsasını qoyan "ataları" haqqında yalnız səthi müqəddimələr verməklə kifayətlənmişlər. Bir çox iqtisadiyyat kursları mühazirələrində Smiti yalnız qısa təqdimatla, bir qayda olaraq sancaq düzəldənlər misalı ilə, əmək bölgüsü məsələsində onun müəyyən etdiyi qısa mücərrəd terminlərlə, yüksək prinsiplərin müzakirəsinə keçmədən xatırlayır.

Smit aydın tərzdə yazdığına görə, onun yaradıcılığı 250 il əvvəl olduğu kimi oxunaqlıdır. Onun yazıları ruhlandırıcı və maarifləndirici müşahidələrin zəngin və mürəkkəb sistemindən ibarətdir. Smitin yaradıcılığı mürəkkəb cəmiyyətlərin həqiqətən necə fəaliyyət göstərdiyini anlamağa yönəlib. Bu ictimai elm xüsusi qarşılıqlı münasibət və asılılığın önəmli reallığı haqda məlumatlılığın mərkəzində dayanır. Bunların hər ikisi bizim bu gün yaşadığımız dünyanın reallıqlarıdır.

Qloballaşan dünyada Smitin beynəlxalq və yerli ticarət elmi bizim bütün yaşamımıza yön verən qüvvələrin düz mərkəzindən keçir. O müxtəlif dövrlərdə yazmış ola bilər, amma onun merkantilizmin səhvləri haqqında diaqnozu və ixtiyari siyasi müdaxiləyə ümumi inamsızlığı, xüsusilə bu gün, ticarətin güman edilən nəticələrinə müqavimət göstərənlər tərəfindən, onun asanlıqla ələ keçirildiyi dünyada daha yerinə düşür.

Smitin intellektual elm adamları arasında da yetərli rəqibləri vardır. Amma onların "eqoizm peyğəmbəri" kimi qəbul etmədikləri Smit, onun yaradıcılığını oxuyan və anlayan hər hansı şəxsin tanıdığı Smit deyil. "Əxlaqi duyğular nəzəriyyəsi" kitabı hissiyyatı insan fəaliyyətinin düz mərkəzində yerləşdirən əxlaq fəlsəfəsi haqqında dərin insan yaradıcılığıdır. Smit öz yetkinlik yaşının hər gününü insan fəaliyyətini öyrənməyə və aydınlaşdırmağa sərf etmişdir. O, mükəmməl əxlaq haqqında əlçatmaz ideyalar axtarmır. Əksinə, o öz vaxtını normal insanların ictimai qarşılıqlı münasibəti gerçəkdən necə həyata keçirdiyini və onların əxlaqi qərarları necə qəbul etdiyini sınaqdan keçirməyə sərf edir.

Və ya bəzi dayaz tənqidçilər "Xalqların sərvəti"ndə ticarətin öyrənilməsi və "Əxlaqi duyğular nəzəriyyəsi"ndə rəğbətin analiz olunması arasında ziddiyyət olduğunu irəli sürür. Hər ikisi insan fəaliyyətinin qollarıdır və Smit eyni konseptual vəziyyəti hər ikisinin insan ictimai həyatı ilə əlaqələrinin sınaqdan keçirilməsinə tətbiq edir.

Smitin yaradıcılığı insan ictimai həyatının empirik reallığını öyrənmək istəyinə əsaslanır. Məsələn, artıq onun siyasi müdaxiləyə qarşı arqumentləri ticari mübadilənin reallığının düzgün analizlərinə əsaslanır. Bu da tez-tez nəzərdən qaçır ki, onun fərdlər arasında mübadilənin səmərəli faydaları haqqında misalları çox zəngin deyil (o, buna çox da məhəl qoymur), əksinə,

çox zəifdir. Smit inanırdı ki, ticarət hər kəsə xeyir verir və xüsusilə də, cəmiyyətin lap aşağı təbəqəsində olanlara.

Adam Smitin yaradıcılığı azad cəmiyyətə dəstək vermək üçün fundamental prinsiplərin və gərəkli institutların aydın analizlərini təqdim edir. Qanun norması və ədalət bütün bəşəriyyətə xeyir verən təbii azadlığın "sadə və açıq" sistemi üzrə çərçivə təmin edir. Ona baxmayaraq, şərik əxlaqi təcrübələrin təkamülü insan cəmiyyətinin yaşamına və onun davamlılığına yardım edir.

Bu, "görünməz əl" və ya daha ümumi düşünülməmiş nəticələr vasitəsilə ictimai təkamül ideyasıdır ki, müasir dünya üçün Smitin əsas irsini təşkil edir.

Bir şəxsin təqdir olunması, çoxlu sayda mühüm insan nailiyyətlərinin olması deməkdir, Smitin dostu Adam Ferqüsonun düşündüyü kimi, insan fəaliyyətinin nəticələri insan planının məhsulu deyil, bizim hamımız üçün hərtərəfli dərsdir. Bu o fikirdir ki, Smiti öz dərin skeptisizmini "insanlar sistemi" istiqamətinə aparır ki, insanlığı alicənab sonluqlara nail olmaq üçün təşkil etsin.

Smit işgüzar, ehtiyatlı şəxsdir və onun düşüncəsi asanlıqla siyasi ideologiyanın iddiasına təslim olmur. Bu o demək deyil ki, Smitin radikal düşüncə sahibi olduğunu düşünməməliyik. Öz zamanı üçün onun ideyaları inqilabi ideyalar idi. Bizim zamanımızda onun ideyaları gələcəyin siyasi mənzərəsini göstərir ki, bu insanpərvər və liberal şəkildə ən yaxşı formada xarakterizə olunur. Onlar radikal olaraq qalır, çünki onlar bizim siyasi dərslər üçün həlledici fərziyyələr təqdim edir.

Bəlkə də, bizim siyasətçilər Smitin yaradıcılığını oxumuş və anlamış olsaydı, onun radikal görünən dünyası sağlam düşüncə, həqiqi faktlara əsaslanan təklif kimi qəbul olunardı.

Şübhə az ola bilər ki, elmi cəmiyyətdə Adam Smit adına təqaüd sağlam vəziyyətdədir. 2000-2004-cü illər arasında dünyanın müxtəlif yerlərindən olan 14-dən artıq məzun tələbə Adam Smit "PhD" (elmlər doktoru) elmi dərəcəsini bitirdi. Bu alimlər elm sahələrində fəaliyyət göstərən Adam Smit təqaüdçülərini bir beynəlxalq cəmiyyətdə birləşdirirlər. Beynəlxalq Adam Smit Cəmiyyəti tərəfindən illik "Adam Smit icmalı"nın nəşri Smitin yaradıcılığında elmi marağın gücünə əlavə vəsiyyətnamədir.

Adam Smit təqaüdçülərindən başqa, Smitdən ilhamlanan sağlam cəmiyyət məktəbləri də var. Onun fikirlərindən ruhlananların, o ideyaları öz yaradıcılıqları vasitəsilə genişləndirmək üçün böyük imkanları vardır. Smitin "məşhur müasir" elmi nəzəriyyəsinə maraq artır və onun əxlaqi-sosial psixologiyası təkamül psixologiyası üzrə yeni yarımbölmələrdə tədqiqata yardım edir. Onun dil və estetika nəzəriyyələri tədqiq ounmaqdadır və alimlər üçün səmərəli bilgilər verir. Dr. Butlerin dərsliyi ustalıqla göstərir ki, Smit böyük elmi irs qoyub gedib. Amma həm də yarımçıq irs qoyub gedib. Smitin fikirlərindəki fərziyyələrin tədqiqi bir ömür boyunca davam edə bilən zəngin və həyəcanverici araşdırma layihəsidir.

Adam Smit bizə misilsiz yazılı zəngin irs buraxıb. O, bu gün bizim yaşadığımız dünyanın formalaşmasına kömək etmiş bir şəxsiyyətdir. O, həm də bizə həmin dünyanı anlamağa intellektual vasitələr dəsti təqdim etmiş bir şəxsdir. Onun yaradıcılığı geniş surətdə oxunmalı və düzgün anlaşılmalıdır. Əgər bu baş versə, onun ideyalarının ilhamverici qüvvəsi öz dövrünün maariflənməsinə yardım etdiyi kimi, bizim dünyamızın işıqlanmasına da kömək edər.

**Qreq Smit**

# XÜLASƏ

- Millətin sərvəti onun xəzinəsindəki qızıl və gümüşün miqdarı ilə deyil, onun ümumi istehsal və ticarəti ilə ölçülür ki, bu gün biz onu ümumi daxili məhsul adlandırırıq.
- Azad mübadilədə hər iki tərəf varlanır. Kimsə mübadilədən itirəcəyini gözləsəydi, ona qoşulmazdı. Bizim ixrac etdiklərimiz başqaları üçün dəyərli olduğu kimi, idxal da bizim üçün qiymətlidir. Biz özümüzü zənginləşdirmək üçün başqalarını yoxsullaşdırmağa ehtiyac duymuruq. Bundan başqa, əgər bizim müştərilərimiz zəngin olarsa, biz daha çox qazanarıq.
- Ticarətin tənzimlənməsi qaydaları nöqsanlı qoyulub və təsirsizdir. Yerli sənaye sahələrinin inkişafı vergilər, ixrac tarifləri, ixrac subsidiyaları və imtiyazlarla təhlükə altına alınıb.
- Millətin istehsal qabiliyyəti onu mümkün edən əmək bölgüsündə və kapital yığımındadır. İstehsal prosesini mütəxəssis əlləri ilə icra olunan çoxlu kiçik vəzifələrə bölməklə, yüksək səmərəlilik əldə oluna bilər. Bu istehsalçılara sərmayə qoymaq üçün izafi məhsul yaradır.
- Ölkənin gələcək gəliri kapital yığımının həcmindən asılıdır. Daha yaxşı istehsal proseslərinə yatırılan daha çox investisiya, gələcəkdə daha çox sərvət yaradacaq.
- Azad ticarət və rəqabət olduğu zaman, bazar sistemi avtomatik şəkildə ən çox ehtiyac duyulan tələbatların üzərinə yönəlmiş olur. Harada ki, məhsul məhdud miqdardadır, insanlar onlara daha çox ödəməyə hazırdırlar. Onların təchiz olunmasında daha çox qazanc var, beləliklə, istehsalçılar da daha çox istehsal etmək üçün daha çox kapital yatırırlar.
- Məcburiyyətsiz və azad mübadiləyə əsaslanan açıq, rəqabətli bazar şəraitində inkişaf daha sürətli gedir. Bu açıqlığı saxlamaq üçün müdafiə, ədalət və qanun normaları tələb olunur. Azadlıq və şəxsi maraq xaosa aparmağa ehtiyac duymur, amma, əgər o, “görünməz əl” tərəfindən idarə olunursa, qayda və uzlaşma yaradacaq.
- Qanuni baxımdan əsaslandırılmış hüquqlar (monopoliyalar) hakimiyyətin gücünü öz mənafeləri naminə azad bazar sistemini dağıtmaq üçün istifadə edir. İş adamları və sənətkarlar rəqabəti boğmaq üçün qaydaları dəstəkləyə bilər ki, insanların xüsusi ticarət sahələri ilə məşğul olmasının qarşısında əngəl yaratsınlar.
- Vergilər qazanca uyğun müəyyənləşdirilməli, dəqiq və ödəniş üçün uyğun olmalıdır. Onlar toplanmaq üçün ucuz olmalı, biznesə mane olmamalı, elə ağır olmamalıdır ki, hiyləgərliyə imkan yaratsın və vergi toplayanların vaxtaşırı səfərlərini tələb etsin.
- İnsanların başqalarına təbii “rəğbət” hissi (bu gün biz ona “şəfqət” deyirik) var. Bu, onlara öz davranışlarını tənzimləmək və uyğunluğu saxlamaq imkanı verir. Bu, davranış və insan ləyaqətinin mənbəyi haqqında əxlaqi hökmlərin əsasıdır. İnsan təbiəti fəaliyyətdə olan cəmiyyətin həmahəngliyinin yaradılmasına etibarlı bələdçidir, nəinki fanatikin və ya xəyalpərəstin təkəbbürlü ağlı.

# ADAM SMİT NƏ ÜÇÜN ÖNƏMLİDİR?

Şotland filosofu və iqtisadçısı Adam Smit indiyədək yazılmış ən təsirli nəşrlərdən biri olan "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında traktat" ("Xalqların sərvəti") (1776) kitabının müəllifi kimi məhşurdur. Smit insan cəmiyyətinin fəaliyyətinə dair tamamilə yeni düşüncəyə əsaslanaraq, bizim iqtisadi həyat prinsipləri haqqında fikirlərimizi qədim formadan müasir aydın formaya salmışdır.

### İqtisadiyyata dair keçmiş bir baxış

Smit bizim fikirlərimizdə o qədər dəyişiklik etmişdir ki, həqiqətən, onun zamanında hakim olan iqtisadi sistemi təsvir etmək belə çətindir. "Merkantilizm" adlanan bu sistemə görə milli sərvət ölkənin sahib olduğu qızıl və gümüş ehtiyatları ilə ölçülürdü. Malların xaricdən idxal olunması zərərli sayılırdı, elə düşünülürdü ki, sərvətlər o mallara ödənilib tükədilir; malların ixracı isə xeyirli hesab olunurdu, çünki bu qiymətli metallar geri qayıdırdı. Ticarət alıcıdan deyil, yalnız satıcıdan mənfəət götürürdü və əgər başqaları getdikcə yoxsullaşırdısa, bir xalq zənginləşirdi.

Bu baxış əsasında, xalqın sərvətinin kənara - idxal olunan mallara vergilər, idxal edənlərə subsidiyalar və yerli istehsal sahələrinin qorunması formasında axıb getməsinin qarşısını almaq üçün böyük bir ciddi nəzarət sistemi qurulurdu. Hətta Britaniyanın öz amerikan koloniyaları da bu sistem əsasında fəlakətli hesablarla cərimələnirdi. Əslində, bütün kommersiya sahələrinə şübhə ilə yanaşılırdı və proteksionizm mədəniyyəti yerli iqtisadiyyata da nüfuz etmişdi. Şəhərlilər başqa şəhərlərdən gələn sənətkarların ticarətlə məşğul olmasının qarşısını alırdı; istehsalçılar və tacirlər kraldan monopoliyaların qorunub saxlanmasını xahiş edirdilər; ağır əməyi yüngülləşdirən vasitələr, yeni corabtoxuyan maşın kimi, mövcud istehsalçılara təhlükə kimi qadağan olunmuşdu.

### Azad mübadilənin məhsuldarlığı

Smit göstərdi ki, bu böyük merkantilist nəzəriyyəsi yanlışlığa əsaslanır və səmərəsizdir. O, sübut etdi ki, azad mübadilədə hər iki tərəf varlanır. Tam gerçək olaraq, kimsə mübadilədən itirəcəyini gözləsəydi, ona qoşulmazdı. Satıcı kimi, alıcı da mənfəət götürür. Bizim ixrac etdiklərimiz başqaları üçün dəyərli olduğu kimi, idxal da bizim üçün qiymətlidir. Biz özümüzü zənginləşdirmək üçün başqalarını yoxsullaşdırmağa ehtiyac duymuruq: bundan başqa, əgər bizim müştərilərimiz zəngin olarsa, biz daha çox qazanarıq.

Əsas həqiqət odur ki, ticarətdə azad mübadilə hər iki tərəfə xeyir gətirir. Smit təsdiq edir ki, ticarət və mübadilə kənd təsərrüfatı və istehsalda olduğu kimi bizim mülkiyyətimizi artırır.

Millətin sərvəti onun xəzinəsindəki qızıl və gümüşün miqdarı ilə ölçülmür, onun ümumi istehsal və ticarəti ilə ölçülür ki, bu gün biz onu ümumi daxili məhsul adlandırırıq.

Bu, yeni, amma çox güclü ideya idi. Həmin ideya 16-cı əsrdən bəri Avropa ölkələri ətrafında qurulmuş ticarət divarlarından böyük bir intellektual oyuq açdı. Və onun təcrübi nəticələri də oldu. "Xalqların sərvəti" öz sərrast, kəskin, mübariz xarakterli üslubu, iti hazırcavablığı və saysız-hesabsız misalları ilə, öz ideyalarını fəaliyyətə çevirmək istəyən təcrübi insanlar tərəfindən asanlıqla istifadə olunur.

Kitab Amerika müstəmləkələri ilə müharibənin qarşısını almaq üçün çox gecikdi. Amma Baş nazir Uilyam Pittin azad ticarət və verginin sadələşdirilməsini müdafiə etməsi və cənab Robert Pilin kənd təsərrüfatı bazarlarının liberallaşdırılması istiqamətində daha sonrakı tədbirləri üçün əsas oldu. Ola bilsin ki, sonralar bu addım azad ticarət və iqtisadi inkişaf erası olan möhtəşəm XIX əsr üçün baza rolunu oynadı. Hətta bu gün sağlam azad ticarət düşüncəsi bütün dünyada qəbul olunur, baxmayaraq ki, ona nail olunmasında müəyyən təcrübi çətinliklər var.

## Azadlığa əsaslanan ictimai quruluş

Smit belə təsiri gözləmirdi. Amma fərdi azadlığa və ticarət azadlığına artan bu inam insan cəmiyyətlərinin həqiqətən necə fəaliyyət göstərdiyi haqda onun birbaşa özünün radikal, yeni düşüncəsinə əsaslanır. O anlayırdı ki, insanlar birlikdə yaşamaq və işləmək üçün yollar tapmaq istiqamətində mübarizə apardıqca, sosial harmoniya təbii olaraq meydana çıxacaq. Azadlıq və şəxsi maraq xaosa aparmağa ehtiyac duymur, amma əgər o, "görünməz əl" tərəfindən idarə olunursa, qayda və uzlaşma yaradacaq.

Bu hal həmçinin resursların mümkün qədər daha səmərəli şəkildə istifadəsinə səbəb olacaq. Azad insanlar yalnız öz vəziyyətlərinin daha yaxşı olması naminə başqaları ilə sövdələşmələri pozmaqla, xalqa məxsus torpağı, kapitalı, bilik və bacarıqları, vaxt və biznesi, ixtiraçılığı avtomatik və labüd şəkildə sərf edərək o məqsədə xidmət göstərir ki, insanlar daha artıq qazanc götürsünlər.

Beləliklə, inkişaf edən ictimai quruluşun qorunub saxlanması kral və nazirlərin davamlı idarəçiliyini tələb etmir. O, insan təbiətinin məhsulu kimi sistemli şəkildə böyüyür. Lakin, ən yaxşı şəkildə böyümə və daha səmərəli fəaliyyət üçün o, məcburiyyətsiz və azad mübadiləyə əsaslanan açıq, rəqabətli bazar tələb edir. Onun bu açıqlığı saxlamaq üçün qaydalara ehtiyacı var – manqalın odun saxlanmasına ehtiyacı olduğu kimi. Amma o qaydalar – ədalət və əxlaq qaydaları ümumidir və merkantilist nümayəndələrinin xüsusi və şəxsi müdaxilələrindən tamamilə fərqli olaraq, konkret şəxsi nəzərdə tutmur.

Buna baxmayaraq, "Xalqların sərvəti" ancaq bizim bu gün başa düşdüyümüz "iqtisadiyyat" elmi deyil, insan sosial psixologiyası haqqında – həyat, maddi rifah, siyasi institutlar, qanun və əxlaq haqqında əhəmiyyətli traktatdır.

## Əxlaq psixologiyası

Smit elə bir zamandan gəlmişdir ki, orada təhsil almış bir ziyalı üçün elm, sənət, ədəbiyyat, fəlsəfə, klassiklər və əxlaq kimi sahələri öyrənmək mümkün idi və o, buna nail oldu. O, nəhəng bir kitabxana topladı, liberal sənətlərin tarixini, həmçinin qanun və dövlət haqqında kitab tərtib etdi. Və bu, ona ilk nüfuz gətirən "Xalqların sərvəti" deyil, əxlaq haqqında "Əxlaqi duyğular nəzəriyyəsi" kitabı idi. Bu kitab günümüzdə çox yaxşı tanınmayıb, lakin zamanında "Xalqların sərvəti" qədər təsirli, öz müəllifi üçün də o dərəcədə önəmli idi.

"Əxlaqi duyğular nəzəriyyəsi" bizim formalaşdırdığımız əxlaqi hökmlərin əsasını müəyyənləşdirməyə cəhd göstərir. Bir daha, Smit onu dərin insan psixologiyasının mahiyyəti kimi görür. İnsanların başqalarına təbii "rəğbət" hissi (bu gün biz ona "şəfqət" deyirik) var ki, onlara öz davranışlarını necə tənzimləmək və uyğunluğu saxlamağı anlamaq imkanı verir. Bu, davranış və insan ləyaqətinin mənbəyi haqqında əxlaqi hökmlərin əsasıdır.

## Şəxsi maraq və ləyaqət

Bəzi adamlar bu gün heyrətlənir ki, Smitin iqtisadi sistemini hərəkətə gətirən şəxsi maraq onun "əxlaqı"nı fəaliyyətə gətirən "rəğbət"lə necə uyğunlaşa bilər. Onun cavabı budur: "İstənilən halda, bir şəxsin nə dərəcədə xudbin olduğu düşünülsə belə, təbiətində, şübhəsiz bəzi prinsiplər var ki, onu başqalarının taleyi ilə maraqlandırır və onların xoşbəxtliyini onun üçün önəmli edir, baxmayaraq ki, o, özünə məmnunluq verən şeydən başqa heç nə düşünmür."

Başqa sözlə, insan təbiəti mürəkkəbdir. Çörəkçi bizi xeyirxahlıqdan çörəklə təmin etmir, amma nə də şəxsi maraq kimisə təhrik etmir ki, çaya baş vurub tanımadığı batan adamı xilas etsin. Smitin kitabları şəxsi maraqları olan insanların bir yerdə necə dinc (mənəvi sahədə) və səmərəli şəkildə (iqtisadi sahədə) yaşamağı bacarması və yaşamasını müəyyənləşdirmək üçün əlavə cəhddir.

Ancaq, "Xalqların sərvəti" əlbəttə, bəzən karikatura edildiyi kimi, canavar kapitalizmin vəkalət qeydi deyildir. Şəxsi maraq iqtisadiyyatı hərəkətə gətirə bilər, amma əgər həqiqətən orada və məcburiyyətin olmadığı açıq rəqabət varsa, bu, yaxşılığa aparan qüvvədir. Və istənilən halda, Smitin öz insanlığı və xeyirxahlığı hər səhifəyə rəng verir. O, xalqın və xüsusi olaraq yoxsulların maddi rifahını tacirlərin və güclülərin xüsusi maraqlarından yüksək tutur, azad rəqabətə mane olmağa çalışan və onlara kömək edən hökumətləri ittiham edən istehsalçıları tənqid atəşinə tutur.

**İnsan təbiəti və insan cəmiyyəti**

XVIII əsr düşüncə sahibləri inanmağa başladılar ki, cəmiyyət üçün sağlam əsas olmalıdır, nəinki, bir ehkam ruhanilər tərəfindən nəsillərə ötürülür və ya siyasi səlahiyyətlilər tərəfindən amiranə olaraq tətbiq edilir. Bəziləri qanun və əxlaqın "rasional" sistemlərini tapmaq üçün mübarizə aparırdılar. Ancaq Smit sübut etdi ki, insan cəmiyyəti-elm, dil, sənət və kommersiya daxil olmaqla insan təbiətinin dərinliyindən kök atmışdır. O göstərdi ki, bizim təbii instinktlərimiz, hər hansı məhdud təfəkkürdən necə daha yaxşı bələdçidir. Əgər biz həqiqətən "üstün tutulan və ya məcburi bütün sistemləri" ləğv etsək və "həqiqi azadlığa" arxalansaq, özümüzü durulaşmış, düşünülməmiş, amma şübhəsiz həmahənglik, dinclik və təsirli ictimai quruluş içində görəcəyik.

Bu liberal ictimai quruluş onu saxlamaq üçün kral və nazirlərin daimi qayğısını tələb etmir. Amma bu, başqa insanların yaşayış və mülkiyyətinə ədalət və hörmət göstərildiyi kimi, şəxslərarası davranışa dair qəti qaydalara riayət edən insanlara arxalanır. Səmərəli ümumi ictimai quruluş sonra tam təbii olaraq meydana çıxır. Smitin axtarışı da insan davranışının qanunauyğun prinsiplərini müəyyənləşdirmək idi ki, həqiqətən bu uğurlu nəticəyə gətirir.

# SMİTİN HƏYATI VƏ KARYERASI

Marqaret Duqlasın yüksək cəmiyyətdə yaxşı əlaqələrə malik vəkil və keçmiş gömrük məmuru olan əri 1723-cü ilin yanvarında vəfat edən zaman o, hamilə idi. İyunun 5-də o, uşağın doğumunu rəsmən qeydiyyatdan keçirdi, ona mərhum ərinin adını verdi-Adam Smit. Bu oğlan gələcəkdə öz dövrünün aparıcı düşüncə sahiblərindən biri və tarixən yazılmış ən təsirli kitablardan birinin müəllifi olaraq yetişəcəkdi.

**Kirkaldi və Qlazqou**

Biz onun uşaqlığı haqqında az şey bilirik. Bildiyimiz bircə budur ki, o, üç yaşında qısa müddətə qaraçılar tərəfindən qaçırılmış, sonra əmisi tərəfindən tapılıb geri qaytarılmışdı. Amma doğulduğu yerdə həyatının hər günü bizi onun sonrakı karyerası barədə zəngin materialla təmin edə bilərdi. Edinburqdan Fert - Fort körfəzi boyunca yerləşən şotland limanı Kirkaldi balıqçı gəmilərinin yan aldığı, yerli mədənlərdən daş kömür ixrac edən və əvəzində dəmirlə işləyən sənaye sahələri üçün dəmir qırıntıları idxal edən ticarət mərkəzi idi. Smit dənizçilərin, balıq tacirlərinin, mismar ustalarının, gömrük xidmətçilərinin və qaçaq yolla ticarət edənlərin əhatəsində böyümüşdü ki, onlar haqqında "Xalqların sərvəti"ndə bəhs edir.

Hələ dəyişikliklər gedirdi; Amerika ölkələri ilə tütün və pambıq kimi mallar sahəsində ticarət genişlənməkdə idi – Qlazqou kimi müasir qərb limanları Kirkaldi kimi köhnəlmiş şərq limanları üzərində hökmranlıq edirdi. Smitin önəmli kitabı həm də ticarətin belə növbələşən nümunələrinin və yaşamları ondan asılı olan cəmiyyətlərin "protokolu" oldu.

Məktəbdə onun kitablara olan sonsuz həvəsi və qeyri-adi hafizəsi üzə çıxdı. O, 14 yaşında (zamanında tam normal yaşda) Qlazqou Universitetinə daxil oldu. O, universitetdə böyük mənəviyyat filosofu Frankis Hyutçesonun rəhbərliyi altında təhsil aldı. Azad düşüncə tərəfdarı, rasionalist, praktik, parlaq natiq və səlahiyyət sahibi kimi tikanlı şəxs olan Hyutçeson, görünür, Smiti də bəzi oxşar xarakterik cəhətləri ilə "yoluxdurmuşdu".

**Oksford və stimullar**

Smit fərqlənərək irəli getdi və Oksford Universitetinin Balliol Kollecinin təqaüdünü qazandı. 1740-cı ildə 17 yaşında o, yəhərli at belində bir aylıq səyahətə çıxdı. Əgər inkişaf yolunda, ticari Qlazqou geridə qalmış Kirkaldidən olan bu oğlanın gözünü açmışdısa, İngiltərə ona fərqli bir dünya kimi görünmüşdü. O, İngiltərənin öz doğma Şotlandiyasının kasıb nümunələri ilə tamamilə fərqli olan arxitekturasının əzəmətliliyi və maldarlığının məhsuldarlığı haqqında yazdı.

Amma ingilis təhsil sistemi ona yüksək təsir bağışlamadı. Əslində, bu sistem ona saxta motivlərə əsaslanan gücü ilə mühüm dərs verdi ki, o bunu "Xalqların sərvəti"ndə kəskinliklə sistemləşdirdi. Oksford müəllimləri tələbələrin təhsil haqqından deyil, geniş kollec ianə fondundan maliyyələşirdi. Nəticədə, Oksfordda olan professor ictimaiyyətinin böyük bir hissəsi, bu uzun illərdə dərs demək vərdişlərini belə tamamilə tərgitdi və kollec həyatı " maraq və ya daha düzgün danışmaq, sənətkarların sərbəstliyi" üçün kəşf edildi. Smitin iqtisadi təhsili sürətlə irəliləyirdi.

Balliol kollecinin dünya səviyyəli kitabxanası sayəsində, Smit klassiklər, ədəbiyyat və başqa fənlər sahəsində təhsil qazanmaq imkanı əldə etdi. 1746-cı ildə o, təqaüd proqramının müddəti başa çatmamışdan əvvəl Oksfordu tərk etdi və Kirkaldiyə qayıtdı. Smit orada iki il vaxtını ədəbiyyat, fizika, məntiq və elmi metodlar haqqında yazmağa sərf etdi.

## İlkin mühazirəçilik karyerası

Ailə əlaqələri vasitəsilə, aparıcı hüquqşünas və alim Lord Keyms onu Edinburqda ingilis ədəbiyyatı və hüquq fəlsəfəsi mövzularında silsilə ictimai mühazirələr oxumağa dəvət etdi. Bu mühazirələrdən biz görə bilərik ki, Smit 20 yaşlarında artıq çoxlu aparıcı ideyaları təfərrüatı ilə işləyib hazırlamışdı (əmək bölgüsü kimi) ki, bu lap sonralar "Xalqların sərvəti" əsərinin mühüm əsaslarını formalaşdıracaqdı.

Bu mühazirələr onun sonrakı karyerasının inkişafında böyük uğur və tramplin oldu. 1751-ci ildə – 27 yaşında o, məntiq, əxlaq fəlsəfəsi, ədəbiyyat və ritorikadan dərs demək üçün Qlazqou Universitetinə qayıtdı. (Zamanında "ritorika"nın bugünkü gizli mənaları yox idi və yalnız üslub və ünsiyyət haqqında elm kimi başa düşülürdü ).

Onun fəlsəfə kursu teologiya, etika, hüquqşünaslıq və dövlət siyasətini əhatə edirdi. Bir çox ideyaların əhatə olunduğu (qiymət sisteminin fəaliyyəti, protektionizmin qüsurları və dövlət və iqtisadi institutların inkişafı kimi) hüquqşünaslıq və siyasət mövzularındakı mühazirələr (yalnız tələbə qeydlərində qalan) illər sonra, az qala nöqtəbənöqtə "Xalqların sərvəti" kitabında əksini tapacaqdı.

Lakin bu, Smitin etika mövzusunda düşüncələri idi ki, onun taleyini müəyyənləşdirəcəkdi. 1759-cu ildə o, bunları "Əxlaqi duyğular nəzəriyyəsi" kimi nəşr etdirdi. Kitab müasir və orjinal tərzdə, insan sosial psixologiyasına münasibətdə bizim əxlaqi ölçülərimizi izah edirdi. Smitin dostu filosof və tarixçi Deyvid Hyum bunun nüsxələrini bir neçə dostuna göndərdi. Onlardan biri, bundan çox təsirlənən siyasi xadim Çarlz Taunzend dərhal Smiti, həyat ehtiyaclarını qarşılaya biləcək 300 paundluq yüksək maaş müqabilində, ögey oğlu, gənc Dyuk Buçleuç üçün repetitor olaraq götürdü.

## Səyahətlər

Brilyant intellektinə baxmayaraq, Smit şəxsi müəllim kimi təsadüfi seçim idi. Yazıçı Ceyms Bosvel deyirdi ki, onun beyni hər cür mövzularla dolu idi ki, bu, onun geniş dairədə məlum olan huşsuzluğuna gətirib çıxarmışdı. Bir dəfə fikrə dalmış halda o, çay əvəzinə yağla çörək bişirmişdi. Bir dəfə də, müəyyən problemləri götür-qoy edə-edə, harada olduğunu hiss etmədən Dunfermlinə qədər 8 mil piyada getmiş, qarşıdakı yolun fərqinə varmadan bir xəndəyə düşmüşdü.

Çox uzun çəkmədən, Smit və şagirdi Fransaya yola düşdülər. Səyahət o zaman hər bir gənc aristokratın təhsilinin bir hissəsi idi. Parisdə səfirin şəxsi katibi olan Deyvid Hyumun parlaq əhatəsi onların xoşuna gəldi. Amma Smitin fransızca danışığı çox zəif idi və bu, ona başqa əlaqələr qurmaqda çətinlik törədirdi.

Sıxıntı başladı və o, Hyuma dedi: "Mən vaxt keçirmək üçün bir kitab yazmağa başlamışam." Bu kitab "Xalqların sərvəti" idi.

Cənubi Fransaya, Cenevrəyə və geriyə Parisə sonrakı səyahətlərində Smit Avropanın iqtisadi, mədəniyyət, dövlət, ticarət, idarəçilik həyatı haqqında fakt üstünə fakt topladı və evdə onları qruplaşdırmaq üçün düşünməyə başladı. Avropanın bəzi müdrik simaları ilə müzakirələr onun öz möhtəşəm kitabını yazmaq fikrini daha da itiləşdirdi.

## "Xalqların sərvəti"

1766-cı ildə onlar Londona qayıtdılar. Smit Kirkaldiyə dönüb orada yerləşdi. Burada o, "High Street" dəki böyük evə sahib oldu və bu evi anası və xalası qızı Janetlə bölüşdü.

(Smit 1784-cü ildə anasının ölümünə qədər ona sadiq qaldı, ondan ayrılmadı. Əvvəllər "çox gözəl və heyranedici gənc bir xanımla" bağlılığı olmasına baxmayaraq, o heç zaman evlənmədi).

O, Krikaldidə, bəzən onun sağlamlığı bahasına başa gələn əlyazmasının yazılması, düzəlişləri və cilalanması üçün uzun illər keçirdi. O ancaq 1773-cü ildən 1776-cı ilədək Londonda yaşadığı

uzun müddətdə yenidən canlandı. O müddət ərzində Smit qədim tarixçi Edvard Qibbon, radikal siyasətçi Edmund Burke, Bosvell və hətta (aralarındakı toqquşan baxışlara baxmayaraq) leksikoqraf doktor Samuel Conson kimi başqa düşüncə adamlarının təmsil olunduğu bir cəmiyyətdən zövq alırdı.

Nəhayət, 1776-cı ilin mart ayında "Xalqların sərvəti" nəşr olundu. Cəmi bir neçə il ərzində çoxlu nəşr və dillərdə işıq üzü görən bu kitab, böyük bir kommersiya uğuru idi. Bu həm də təcrübi bir uğur idi: onun ticarətin liberallaşdırılması kimi "reseptləri" dövlət siyasətinə yol açmağa başladı.

## Xüsusi səlahiyyətli gömrük müfəttişi

Smit Edinburqda, 600 pound məbləğində yüksək maaşla xüsusi səlahiyyətli gömrük müfəttişi vəzifəsinə gətirildi. Britaniyanın özbaşına və səmərəsiz vergi sisteminin qatı tənqidçisi, indi o sistem üçün nəsə edə biləcəyi bir vəzifədə idi və o, bunu etməkdə əzmli idi. O, həmçinin İrlandiyada ticarət məhdudiyyətləri və amerikan müstəmləkə "iğtişaşları" haqqında da məsləhətlər verirdi. Sonra Baş nazir Uilyam Pitt Smitin prinsiplərini Fransanın ticarət paktının işlənməsi və milli vergi sistemində geniş islahatların həyata keçirilməsinə tətbiq etdi.

Smit dostları ilə müzakirə və debatları sevirdi. 1790-ci ilin iyulunda Edinburqun belə axşamlarının birində o, yorğunluq hiss etdi və diskussiyanı hansısa başqa yerdə aparmağa ehtiyac olduğunu deyərək yatmağa getdi. Bir neçə gün sonra o vəfat etdi və layiqli, amma məhdud qəbirüstü abidə ilə Kanonqeytdəki evinin yaxınlığındakı kilsə həyətində dəfn olundu.

# “XALQLARIN SƏRVƏTİ”

**Geniş əhatəli kitab**

Adam Smit “Xalqların sərvəti” kitabını siyasətçilərin ticarətin çiçəklənməsindənsə, onu məhdudlaşdıran və pisləşdirən siyasətinin əksinə, müəyyən mənada onları qıcıqlandırmaq üçün yazdı. Bunun üçün o elə səlis dildən istifadə edir ki, hələ bu gün də asanlıqla başa düşülür.

Amma Smit həmçinin yeni iqtisad elmi yaratmağa çalışırdı. Bu, ilk başlanğıc işi idi və onun termin və konsepsiyalarını bugünkülər ilə uzlaşdırmaq çətin olardı. Onun mətni qarışıq, uzun ricətlərlə və meşəsalma haqqında, həmçinin Çində gümüşün qiymətindən tutmuş Londonda irland fahişələrinin pəhrizinə qədər müxtəlif faktlarla doludur. Bütün bunlar onun kitabını istifadə etmək üçün çətinlik yaradır. Gəlin, ikin olaraq diqqətimizi onun əsas tezislərindən bəzilərinin üzərinə yönəldək.

Ən aydın tezis odur ki, “ticarətin tənzimlənməsi qaydaları nöqsanlı qoyulub və təsirsizdir”. O vaxt üstün olan baxış “merkantilist” ideyası idi ki, ona görə bir xalqın zənginliyi onun malik olduğu pulun məbləğində idi. Nəzərdə tutulan zəngin olmaq üçün bir xalqın başqalarına daha artıq mal satmasına ehtiyac duyulurdu. Məqsəd daha çox pulu geri qaytarmaq idi, həmçinin, nağd pul ehtiyatlarının xaricə axmasının qarşısını almaq üçün başqalarından mümkün qədər daha az mal almaq tələb olunurdu. Ticarətə bu baxış idxal tariflərinin, ixrac subsidiyalarının, vergi və yerli sənaye üzrə imtiyazlı gömrük rüsumlarının geniş şəbəkəsinin yaranmasına apardı ki, bunlar hamısı idxalı məhdudlaşdırmaq və ixracı təşviq etmək üçün nəzərdə tutulmuşdu.

Smitin inqilabi baxışı o idi ki, sərvət bir millətin xəzinəsindəki qızıl və gümüşün miqdarı ilə ölçülmür. “Bir millətin zənginliyi real olaraq onun yaratdığı malların və xidmətlərin axını ilə ölçülür.” O, iqtisadiyyatda bu gün üçün xarakterik və əsaslı olan ümumi daxili məhsul haqqında ideya kəşf etmişdi. O iddia edirdi ki, bu məhsulu maksimum dərəcədə artırmaq yolu bir xalqın istehsal qabiliyyətini məhdudlaşdırmaqda deyil, onu sərbəst buraxmaqdadır.

Başqa əsas tezisi odur ki, “istehsal qabiliyyəti onu mümkün edən əmək bölgüsündə və kapital yığımındadır.” İstehsal prosesini mütəxəssis əlləri ilə icra olunan çoxlu kiçik vəzifələrə bölməklə, yüksək səmərəlilik əldə oluna bilər. Bu istehsalçılara izafi məhsul yaradır ki, onlar bu məhsulu başqaları ilə bölüşə və ya yeni və hətta daha səmərəli, iş sərfinin qarşısını alan avadanlıqlara xərcləyə bilərlər.

Smitin üçüncü tezisi odur ki, ölkənin “gələcək gəliri bu kapital yığımından asılıdır”. Daha yaxşı istehsal proseslərinə yatırılan daha çox investisiya, gələcəkdə daha çox sərvət yaradacaq. Amma insanlar öz kapitallarını yaratmaq istəyirlərsə, onlar oğurluqdan mühafizə olunacaqlarına əmin olmalıdırlar. Çiçəklənən ölkələr öz ümumi kapitalını artıran, onu uğurla idarə edən və qoruyan ölkələrdir.

Dördüncü tezis odur ki, *bu sistem avtomatik, qeyri-ixtiyaridir*. Hansı məhsul ki, azdır, insanlar onlara daha çox ödəməyə hazırdırlar: onların təchiz olunmasında daha çox qazanc var, beləliklə, istehsalçılar da daha çox istehsal etmək üçün daha çox kapital yatırırlar. Harada ki, bolluqdur, qiymətlər və qazanc da aşağıdır və istehsalçılar da kapital və biznesini başqa sahəyə yönəldirlər. Beləliklə, sənaye mərkəzi idarəetməyə ehtiyac duymadan xalqın daha mühüm ehtiyaclarına yönəlmiş olur.

Amma *bu sistem o zaman avtomatik olur ki, orada azad ticarət və rəqabət var*. Nə zaman ki, hökumət himayə etdiyi istehsalçılara dotasiya (maliyyə yardımı) verir və inhisar yaradır, yaxud da onları tarif divarları arasında gizlədir, onlar yüksək qiymət təyin etmək imkanı qazanırlar. Bundan daha çox əziyyət çəkən yoxsullar isə ehtiyacları üçün onların qoyduqları yüksək qiymətlərlə üz-üzə qalırlar.

“Xalqların sərvəti” əsərinin *tezislərindən biri də odur ki, iqtisadi inkişafın müxtəlif mərhələləri dövlət institutlarını necə yaradır.* Qədim ovçuların müəyyən dəyərə malik azacıq sərvəti vardı. Amma nə zaman ki, insanlar fermer oldular, onların mühüm mülkiyyət torpaqları, məhsulları və mal-qarası oldu, onlar bunu qorumaq üçün dövlət və məhkəmə sistemini inkişaf etdirdilər.

Ticarət dövrünə gələndə, adamlar kapital topladıqca, mülkiyyət daha önəmli olur. Amma bu dövr əsasən dalğalanan bazarlardan öz xeyrinə daha çox qazanc götürən və siyasi proseslərdən öz mənafelərinə istifadə edən hiyləgər tacirlər tərəfindən ələ keçirilir. *Rəqabət və azad mübadilə monopoliyalar, vergi güzəştləri, yoxlamalar və başqa imtiyazların təhlükəsi altındadır ki, istehsalçılar hökumət səlahiyyətliləri adından sitat gətirmək imkanına malik olsunlar*.

Bütün bu səbəblərə görə, Smit düşünür ki, hakimiyyət məhdudlaşdırılmalıdır. Onun müdafiə, qayda-qanunu qorumaq, infrastruktur yaratmaq və təhsili inkişaf etdirmək kimi vacib funksiyaları var. O, bazar iqtisadiyyatını azad və açıq saxlamalı, onu dağıtmaq yolu ilə hərəkət etməməlidir.

## İstehsal və mübadilə

"Xalqların sərvəti" əsərinin 5 "Kitab"ından birincisi istehsal və mübadilə, onların milli gəlirə xidmət mexanizmlərini aydınlaşdırır.

## İxtisaslaşmanın üstünlükləri

Sancaq fabrikinin timsalında Smit göstərir ki, *əmək bölgüsü* – əməyin ixtisaslaşması – məhsuldarlığın xeyli dərəcədə yüksəlməsinə imkan yaradır. Sancaqdüzəltmə "əhəmiyyətsiz bir istehsal sahəsi" sayıla bilər, amma əslində bu, yetərincə qəliz işdir. Məftil dartılmalı, düzəlməli, kəsilməli və ucu itiləşdirilməlidir. Yuxarı hissəsi baş ucun içinə uyğun yonulmalıdır ki, düzəlsin və bərkisin. Sancaq ağardılmalı və bundan sonra kağıza taxılmalıdır. Həqiqətən, prosesdə təxminən 18 müxtəlif əməliyyat icra olunur.

Smit göstərir ki, bütün bu müxtəlif əməliyyatları icra edən tək adam bəlkə də gündə heç 20 sancaq (və əgər onlar həmçinin, tələb olunan metalı hasil edir və əridirlərsə, bəlkə heç ildə birini də) düzəldə bilməzdi. Amma fabrikdə iş müxtəlif adamlar arasında bölüşdürülərsə, onlardan hər biri bir və ya iki ayrı əməliyyat yerinə yetirəcək. Onların arasında, sancaqdüzəldən on güclü qrup əsasən gündə 48000 sancaq hazırlaya biləcək ki, bu da gündəlik hər tək adamdan əldə olunan məhsulun 4800 ekvivalenti və ya 240 mislidir.

Bu ixtisaslaşma elə səmərəlidir ki, yalnız şirkətlərin daxilində deyil, sənaye sahələri və hətta ölkələr arasında da meydana çıxır. Fermerlər məhsul və ya mal-qara yetişdirilməsi sahəsində ixtisaslaşır: onların təsərrüfat mallarını hazırlamağa vaxt sərf etməsindənsə, nəticə olaraq torpaqları çox yaxşı qorunur və çox məhsuldardır. Amma istehsalçılar təsərrüfat mallarını təchiz etməkdən çox məmnundurlar və onlar da öz ərzaq məhsullarının istehsalını fermerlərin ixtiyarına buraxırlar. Bənzər olaraq, ölkələr daha yaxşı istehsal etdikləri malların ixracı üzrə ixtisaslaşırlar və başqalarının daha yaxşı istehsal etdikləri malları idxal edirlər.

"Səmərəliliyin artması yalnız insanın eyni işi dəfələrlə yerinə yetirməsindən əldə olunan bacarıqdan gəlmir" – Smit deyir. Bir əməliyyatdan başqasına keçməyə az vaxt sərf olunur və ixtisaslaşma insanlara istehsalı dəfələrlə artırmaq üçün xüsusi, vaxt sərfinin qarşısını alan maşınlardan istifadə etməyə imkan verir. Nəticə etibarı ilə: "İşçilərin məhsuldarlıq qabiliyyətində böyük irəliləyiş, hardasa istiqamətləndirdiyi və ya tətbiq etdiyi böyük qisim bacarıq, çeviklik, mühakimə görünür ki, əmək bölgüsünün nəticələri olmuşdur".

Əmək bölgüsü çoxminlik insanı əməkdaşlıqda, hətta ən əsas gündəlik məişət mallarının istehsalında bir araya gətirir.

"Məsələn, günəmuzd işçilərin fəaliyyəti ilə istehsal olunan, kobud və qaba görünə bilən yun palto böyük sayda işçi qüvvəsinin birgə işinin məhsuludur. Çoban, yunu növlərə ayıran, darayan və ya çeşidləyən, boyayan, təmizləyən, əyirən, toxuyan, ştamp vuran və vitrin tərtibatçısı bir çox başqaları ilə öz müxtəlif sənətlərini hətta bu sadə məhsulu tamamlamaq üçün birləşdirməlidirlər."

Bundan başqa, yunun daşınması dənizçi, gəmi, gəmi düzəldən usta işi tələb edəcək; hətta yunu qırxmaq üçün qayçılar belə mədənçilərin və dəmirlə işləyən fəhlələrin əməyini tələb edəcəkdi. Bu

siyahı sonsuzdur. Amma yüzlərlə yüksək ixtisaslı mütəxəssisin əməkdaşlığı inkişaf etmiş ölkələrin böyük sərvət mənbəyidir və hətta ən kasıb əhali üçün də yun palto kimi malları almağa imkan yaradır-Smitin dediyi kimi "ümumi sərvət öz-özünə əhalinin ən aşağı təbəqələrinə çatır".

## Mübadilədən gələn ümumi gəlirlər

Smit 2-ci fəsildə *maddi mübadilə ilə* istehsal səmərəliliyinin gətirdiyi faydanın cəmiyyətə necə yayılması haqda danişır. Bəzi xüsusi əqli və ya fiziki istedadları götürərək, o güman edir ki, bir insan "ibtidai bir ölkədə" ox düzəltmək işində başqalarından daha yaxşı olduğu halda, bir başqası da metal işində daha yaxşı ola bilər. İxtisaslaşmaqla, oxçu daha çox ox və dəmirçi daha çox ülgüc istehsal edir ki, onları hər ikisi istifadə edə bilər. Beləliklə, onlar oxlarla ülgücləri mübadilə edirlər. İndi hər ikisinin sərfəli mübadilə vasitələri var və hər biri digərinin bacarığından, ixtisaslaşmış məhsulundan faydalanır.

Smit iddia edir ki, "mal mübadiləsinə, barter və mübadilə ilə ticarətə" həvəs insan təbiətinin təbii və xarakterik cəhətidir, əlbəttə, ona görə ki, bundan hər iki tərəf faydalanır. Həqiqətən də, əgər tərəflərdən hər hansı biri özünü bu prosesdə itirən hesab etsəydi, mübadilə baş verməzdi. Və bu, həlledici məsələdir. Smitin zamanında, bizim zamanımızda olduğu kimi daha çox, mal pula mübadilə olunurdu, nəinki başqa mala dəyişdirilirdi. Pul sərvət kimi qiymətləndirildiyi vaxtdan, elə göründü ki, prosesdən yalnız satıcı fayda götürür. Amma Smit qeyd edir ki, fayda qarşılıqlıdır. Mübadilə ilə hər iki tərəf özü üçün məhsul hazırlamağa cəhd göstərməkdənsə, istədiyi məhsulu daha az səylə əldə edir. Hər biri mübadilə sayəsində zənginlik, sərvət yaradır. Sərvət, sözün başqa anlamında, dəyişməz deyil, amma insanların apardığı ticarət sayəsində *yaranır*. Bu, önəmli ideyadır.

Başqa həlledici məsələ odur ki, mübadilə hələ hər iki tərəfə fayda gətirir, hətta baxmayaraq ki, hər bir tərəf digər tərəfin mənafeyini deyil, tamamilə öz maraqlarını düşünərək sövdələşmə təklif edir və öhdəlik götürür. Bu, uğurludur, çünki bizə yol verir ki, istədiyimiz şeylərdə başqa adamların rol oynamasına maraq oyadaq. Smitin məşhur sözlərinə görə:

"Bu bizim nahar gözlədiyimiz qəssabın, şərabçının və ya çörəkçinin iltifatından deyil, onların öz maraqlarına qayğısı ilə bağlıdır. Biz özümüzü onların humanistliyinə deyil, özünəvurğunluğuna yönəldirik və heç zaman onlara öz ehtiyaclarımız barədə deyil, onların qazancları haqda danışırıq."

"Özünəvurğunluq" və ya "şəxsi maraq" dedikdə Smit "acgözlük" və "xudpəsəndliyi" nəzərdə tutmur. Onun mənası 18-ci əsrdəki kimi səslənir: müəyyən dərəcədə çirkin həvəsli olub başqalarına pislik etməklə qazanmaq deyil, öz mənafeyinin tamamilə zəruri və uyğun şəkildə qayğısına qalmaq. Bu insanlar üçün çox xarakterik və mühümdür ki, "Əxlaqi duyğular nəzəriyyəsi"ndə "sayıqlıq" adlandırılır. Eyni kitabda, o, vurğulayır ki, "rəğbət" (sympathy) (və ya o dediyi kimi, "şəfqət" "empathy") insanın başqalarına münasibətinin səciyyəvi xarakteristikasıdır və ədalət (başqalarına zərər vurmayan) onun fundamental qaydalarından biridir.

## Daha geniş bazar daha böyük qazanc gətirir

Mübadilədən əldə etdiyimiz qazanc odur ki, bizi ixtisaslaşmaya təhrik edir və beləliklə, əlavə məhsulu artırır ki, onu başqaları ilə mübadilə edə bilək. Ancaq ixtisaslaşma mübadilənin mümkün olduğu həcmdən asılı olaraq irəli gedə bilər ki, Smit də bu halda bazarın genişliyini nəzərdə tutur. Yalnız "böyük bir şəhər" hamballar üçün yetərli müştəri təmin edə bilər, məsələn, o zaman ki, dağılmış cəmiyyətlər hətta peşəkar dülgərlərə və ya bənnalara yardım etmək imkanında olmur, adamları məcbur edir ki, bu işlərin çoxunu özləri görsünlər.

Bazarı şübhəsiz olaraq genişləndirən bir şey var ki, o da puldur.

Əgər ac şərabçı həmişə susuz çörəkçi axtarsaydı, həyat cansıxıcı olardı. Buna görə də biz ümumi olaraq vasitə kimi pul işlədirik – bizim izafi məhsulumuzu pula mübadilə edirik, sonra pulu təzədən istədiyimiz başqa məhsullara dəyişirik.

## Dəyər indeksi

Pul vasitəsilə mübadilə edilib-edilməməsinə baxmayaraq, mübadilə olunan müxtəlif məhsullarda qiymət normasını nə təyin edir?

Smit üçün tapmaca idi ki, mahiyyətcə faydasız (almaz kimi) olan bir şeyin yüksək "mübadilə dəyəri" var, həyati (su kimi) önəmi olan şeyin isə demək olar ki, heç bir dəyəri yoxdur. Bu gün biz bunu "ən son fayda nəzəriyyəsi" ilə həll edə bilərik: almaz nadir tapılan olduğuna görə, ondan əlavə biri böyük hədiyyədir; amma su çox olduğuna görə, bir dolu fincan belə həqiqətən ehtiyacımız üçün çox azdır. Və yaxud da biz tələb və təklif analizlərinə əsaslana bilərik.

Təəssüf ki, ilk vasitə hələ mövcud deyildi, "Xalqların sərvəti"ndə bu məqamda Smit hələ ikincini də təkmilləşdirməmişdi. Beləliklə, o hələ məhsula xüsusi dəyər verən şeyin nə olduğunu müəyyən etmək üçün mübarizə aparır.

Bu, ibtidai cəmiyyətlərdə ona təbii görünürdü ki, dəyər ilkin olaraq məmulatların hasilatına sərf olunan *əməyi* əks etdirməlidir. İstənilən halda, biz satacağımız məhsulun yaranmasına "zəhmət və əziyyət"i məhz ona görə sərf edirik ki, öz aldığımız məhsulların yaranmasına sərf olunan səyimizə qənaət edək. Hər hansı bir şey alan tərəflərdən hansı birindəsə belə məsələ yoxdur ki, onlar özləri o məhsulu az səy sərf etməklə yarada bilərlər, mübadilənin ideal norması bərabər zəhməti əks etdirməlidir.

Buna görə də, ovçular arasında "əgər qunduzun ovlanmasına sərf olunan zəhmət maralın ovlanmasına nisbətən ikiqat zəhmət bahasına başa gəlirsə, bir qunduz təbii olaraq iki marala və ya onun dəyərinə mübadilə olunmalıdır". Əlbəttə, Smit fərqindədir ki, bütün işlər bərabər zəhmət bahasına başa gəlmir. Bir istehsal prosesi ağır əmək, daha çox bacarıq və ya uzunmüddətli təlim və təcrübə tələb edirsə, digəri fərqli ola bilər. Amma bu amillər "bazarda qiymətləşmə və sövdələşmə" zamanı nəzərə alınacaq.

"Xalqların sərvəti"nin bu hissəsi dəyərin "əmək nəzəriyyəsi" kimi çox tənqid olunmuşdur. Amma bu nəzəriyyə də, öz növbəsində Karl Marksa imkan verdi iddia etsin ki, işçilərin əməyi müntəzəm olaraq kapitalist sahibkarlar tərəfindən oğurlanır. Beləliklə, o, şübhəsiz dünya üçün yaxşı heç nə vermədi.

Amma hələ Smit bizi real olaraq dəyərin "əmək nəzəriyyəsi"nə aparmır. O gerçəkdən başa düşməyə çalışır ki, məhsulun ümumi dəyəri üçün bu gün əsas iqtisadi ölçü kimi nəyi başa düşmək lazımdır.

Ovçuluq cəmiyyətində, bu dəyərlər, demək olar ki, bütünlükdə əməkdir. Amma biz inkişaf baxımından bundan irəli getmişik; və Smit *istehsalın* daha müasir iqtisadi sistemdə işləyən torpaq və kapital kimi digər *faktorlarını* müəyyən etməyə çalışır. Həmin ideya bu gün iqtisadiyyatda yenidən əsaslı konsepsiyaya çevrilib. Və sonra Smit tələb və təklif anlayışlarını irəli sürür – həm də onların yalnız qiymətə təsirlərini nəzərdən keçirməklə deyil, bütünlükdə istehsal və paylanma sistemini necə hərəkətə gətirdiyini aydınlaşdırmaqla. Bu, başlanğıc məsələdir və onu o müxtəlif fəsillərə götürür ki, onlara birlikdə baxmağa ehtiyac var və göstərir ki, dəyərin yeganə mənbəyi olan əməkdən kənarda cəmiyyət necə təkamül edərdi.

## Torpaq, kapital və əmək

Hər hansı növ müasir istehsal prosesində sizə işi görmək üçün insanlar, o işi icra etmək üçün avadanlıqlar, alət və maşınlar və torpaq lazımdır. Beləliklə, ümumi qiymətlər *istehsalın üç başlıca amili* arasında bölünə bilər – Smit bəyan edir. Ovçuluq iqtisadiyyatından fərqli olaraq, bu amillər istehsal olunan məhsuldan gələn qazancda öz paylarını əldə etmək ixtiyarına sahib olan müxtəlif qrup insanlar

tərəfindən mənimsənilir. Burada, işçilərin *əməyi,* əlbəttə ki, *əmək haqqında* ifadə olunur. Kapital da (Smit buna *səhm* deyir) iş sahibləri tərəfindən qoyulur ki, bu da *mənfəətdə* əksini tapır.

Nəhayət, burada *torpağın* istifadəsi yer sahibinə ödənilən *icarə haqqında* əks olunur.

Beləliklə, *torpaq*, kapital və əmək birlikdə – işçiləri, iş sahiblərini və *torpaq* sahiblərini qarşılıqlı asılı edərək – istehsala şərait yaradır. Amma onların qarşılıqlı asılılığı istehsaldan da o yana gedir, əlavə istehsal mübadilə üçün nəzərdə tutulduğuna görə, onlar həlledici olaraq həmin məhsulların qiymətləndirilməsinə və yayılmasına da cəlb olunurlar. Smit tədricən bizə onu anlatmağa çalışır ki, bir millətin məhsulunun istehsalı, qiymətləndirilməsi və yayılması qətiyyən təcrid olunmuş vəziyyətdə deyil, hər biri ayrı olan hissələr hamısı birlikdə, fəaliyyətdə olan iqtisadi *sistemin* qarşılıqlı əlaqəsi olan hissələri kimi eyni vaxtda həyata keçirilir. Bu da böyük nəzəri kəşf idi.

## Bazarlar istehsalı necə idarə edir

Smit daha sonra izah edir ki, bu sistem istehsalı necə *hərəkətə gətirir və istiqamətləndirir*. Məhsulların mübadilə olunduğu "bazar qiyməti", onların ümumi istehsal qiymətindən (bunu o, "təbii qiymət" adlandırır) yüksək və ya aşağı ola bilər. Bu, məhsula olan tələbdən (və ya ən azı, almaq üçün pulu olan müştərilərin "real" tələbindən) və onun bazara hansı miqdarda çıxarılmasından asılıdır. Əgər bazar qiyməti satıcıların istehsal qiymətlərindən yüksəkdirsə, qazanc gətirir, yox əgər aşağıdırsa, itki yaradır.

Bazar qiyməti heç vaxt uzun müddətə istehsal qiymətlərindən aşağı qala bilməz: yoxsa satıcılar davamlı olaraq itirməkdənsə, bazardan uzaqlaşardılar. Amma nə bazar, nə də istehsal qiyməti uzun müddətə çox yüksək səviyyədə qala da bilməz. O, rəqibləri xəbərdar edir ki, qazanc yaranmalıdır, təchizat artmalı və bazar qiyməti yenidən aşağı qiymətə təklif olunmalıdır. Beləliklə, sənayenin məqsədi bazara həqiqi tarazlıq gətirməkdir.

Əlbəttə, rəqabətdə nöqsanlar ola bilər. Qaydalar bazara girişi məhdudlaşdıra bilər. Monopolist bazarı bağlı saxlamaqla, qiymətləri qalxmağa məcbur edə bilər. Və ya informasiya çatışmazlığı ola bilər: məsələn, rəqiblər ondan xəbər tutana qədər ucuz hasilat prosesinin "ixtiraçısı" illərlə böyük qazanc götürə bilər. Beləliklə, təbii qiymətlə bazar qiyməti fərqlənə bilər.

## Əmək haqqı iqtisadi artımdan asılıdır

Bu nöqsanlar *əmək bazarında* da mövcuddur. *Torpaq*, kapital və əmək qarşılıqlı şəkildə asılı ola bilər, amma işçilər, iş sahibləri və yer sahibləri arasında mübarizə qeyri-bərabərdir. İş sahibləri işçilər arasında sövdələşmələri qadağan edən qanunları təşviq edir, baxmayaraq ki, iş sahibləri arasında sövdələşmə "daimi və dəyişməzdir"-Smit deyir. Amma iş sahibləri yadda saxlamalıdırlar ki, əmək haqlarını aşağı səviyyədə saxlamaq yanlış iqtisadiyyatdır: daha yaxşı ödənişlər və şərtlər məhsuldarlığı artıra  və beləliklə, yüksək qazanc gətirə bilər.

O düşünür ki, işçilərin ən yaxşı dostları milli gəliri və kapital artımını yüksəldir, çünki onlar əməkçilərin əmək haqlarını artırır. Torpaq sahibi daha çox qazancla işə daha çox xidmətçi götürəcək. Toxucu və yaxud çəkməçi əlavə kapital ilə işə köməkçilər cəlb edəcək. Başqa sözlə, nə zaman ki, işə tələbat artır və yalnız onda milli sərvət çoxalır. "Əməyin liberal dəyəri" bütünlükdə iqtisadi artımdan asılıdır.

Amma əmək haqlarının real ölçüsü onların alıcılıq qabiliyyətindədir: və Smit qeyd edir ki, vergilər şamların, dərinin, spirtli içkilərin və onun zamanındakı başqa zinət mallarının qiymətini qaldırdığı halda, ərzaq və digər mühüm mallar ucuzlaşırdı. Buna görə bazar sisteminə minnətdar olmaq gərəkdir.

Bu, xüsusi olaraq yoxsula kömək edirdi və heç də pis şey deyildi, ona görə ki: "Çox böyük bir hissəsi yoxsul və zavallı olan hər hansı bir cəmiyyət mütləq mənada sağlam və xoşbəxt ola bilməz".

## Bazar əmək haqqı normaları

Nəzəriyyədə, Smitin müəssisələrində işdən gələn gəlirlər bərabərləşməyə xidmət etməlidir. Əgər bir ticarət daha yaxşı qiymətləndirsəydi, adamlar başqa sahədən dəstə ilə ora axışar və bazar tezliklə tarazlığı düzəldərdi. Və həqiqətən nəyə görə əmək haqqı normaları fərqlidir?

Onun cavabı budur ki, biz ancaq əməyin maddi gəlirlərini deyil, valyuta formasında olmayan qazancını da nəzərdə tutmalıyıq. Bəzi ixtisas sahələri çətin və ya xoşagəlməzdir (hansı ki, buna görə qəssablara və cəlladlara toxuculardan daha yaxşı pul ödənilir). Bəzi ticarət sahələri (bənna kimi) mövsümidir. Başqası (tibb kimi) böyük ictimai etimad tələb etdiyinə görə böyük məvacib istəyir. Bəzi ixtisaslar öyrənməyə çox xərc aparır (məsələn, hüquq); və hətta belə sərmayədən sonra real uğur şansı da zəif ola bilər (opera müğənniləri). Bütün bu amillər xüsusi ticarət sahələrində əməyin bazar qiymətinə təsir göstərəcək.

## Əmək haqqı və siyasət

Amma *siyasi* faktorlar da gəlir və mənfəətə təsir göstərir. Qaydalar insanların xüsusi sənətlərdə çalışmasının qarşısını alır. Smit Şeffeld bıçaqçılarının bir nəfərdən artıq şagird götürməsinə və ya Norfolk toxucularının və ingilis papaqçılarının iki nəfərdən artıq şagird götürməsinə qanunla qadağa qoyulduğunu sitat gətirir. Bu maneələr bıçaqçı, toxucu və papaqçı kimi sahələrdə ixtisaslaşanların gəlirlərini yüksək saxlayır – başqa adamların "toxunulmaz əmlakını" onların öz əməyi ilə oğurlayaraq. Və onlar tənəzzülə uğrayan ticarət sahələrindən işçilərin daha çox ehtiyac duyulan sahələrə axıb getməsinin qarşısını alır.

Smit bunu çox yaxşı əsaslandırır: "Eyni ticarət sahəsində çalışan adamlar, hətta əyləncə və şənliklərdə belə, nadir hallarda bir araya gəlirlər, ancaq bu görüşlərdə də danışıqlar əhalinin əleyhinə olan və ya bəzi nəticələrə görə qiymətlərin qaldırılması haqda sövdələşmə ilə başa çatır."

Ancaq (o fikrinə davam edir) siyasətçilər və qanun belə sövdələşmələri daha uyğun və daha səmərəli edən qaydaları qəbul və tətbiq etməkdə əlbirdirlər. Onun fikrində peşə təşkilatlarından (və ya "korporasiyalar") gələn müxtəlif imtiyazlar var: orta əsrlərdən qısqanclıqla öz monopoliyalarını mühafizə edərək, bir sənət sahəsinə qoşulmaq istəyənə, hansı şərtlərlə olur-olsun, məhdudiyyət qoyur və üzvlərindən öz yoxsullarının mənafeyinə fondu artırmaq və təcrübə keçməkdə lisenziyası olanların qeydiyyatını saxlayır.

Ancaq qanun peşə sahiblərinin ictimai qeydiyyatını həyata keçirir, Smit deyir, onlar bir-biri ilə asan əlaqə yaradır və beləliklə, bu sövdələşmə görüşlərin baş verməsini daha müvafiq edir. Peşə sahibləri gəlib öz hissələrini ödədikləri halda, məcburi ticarət xeyriyyə fondları bu görüşləri labüd edir.Və harda ki, qanun uzağa gedir, peşə sahələrinə imkan yaradır ki, səsvermə çoxluğu ilə siyasi qərar versinlər. Bu "rəqabəti daha təsirli və etibarlı şəkildə məhdudlaşdıracaq, nəinki hər hansı könüllü birləşmə."

Smitə görə, yalnız bizneslər üzərində "real və təsirli" intizam müştəriləri itirmək qorxusu yaradır. Müştərilərin sərbəst olduğu azad bazar biznes davranışını nizamlamaq üçün hər hansı rəsmi qaydalardan daha etibarlı yoldur, hansı ki, bu qaydalar tez-tez hamıya məlum olan məqsədinin əksinə işləyir.

## Kapital və mənfəət

Eyni dərəcədə nöqsanlı qaydalar istehsalın sonrakı faktoruna da təsir göstərir ki, Smit bu faktoru *səhm* adlandırır. Bu, sonra izah edildiyi kimi, geyim və ərzaq ehtiyatı kimi gündəlik istifadə olunan məmulatlar ehtiyatını; maşınlar kimi dəyişməz kapitalı; və dövriyyədə olan kapitalı, davam edən iş proseslərini və hazırlanmış, amma hələ rəflərdə olan malları əhatə edir.

Smit göstərir ki, səhm mənfəəti məhsuldar müəssisələrə kapital qoyanlara gələn qazanc olmaqla çox dəyişkəndir. O, əmtəə qiymətlərindən, rəqiblərin necə uzaqlaşdırılmasından və malların daşınması və yığılması zamanı baş verə biləcək "minlərlə başqa qəzalar"dan asılıdır. Lakin mənfəət normaları mənfəətliliyin sərt ölçüsünü verir: əgər adamlar pul götürmək üçün daha çox ödəməyə həvəslidirlərsə, bu o deməkdir ki, o borc götürülən pullar istehsala qoyularsa, onlar böyük məbləğdə qazanc əldə edə bilərlər..

O, bunu təsvir etməklə, Amerika koloniyalarında mövcud olan çox yüksək mənfəət normalarına işarə edir – harada ki, bol torpaq var, amma onu şumlamaq üçün kapital və ya əmək nisbətən azdır. Buna görə də torpaq ucuz, kapital və əmək bahadırsa, yüksək mənfəət normasında və yüksək əmək haqqında ifadə olunduğu kimi mənfəət də yüksəkdir.

## Torpaq və rentalar

Smitin torpaq və rentalar (icarə haqları) haqqında fikirləri göstərir ki, o iş verənləri torpaq sahiblərindən çox sevir: onlar "monopoliya qiymətlərinə" zəhmət sərf etməklə deyil, torpağa, onun yerinə və münbitliyinə sadəcə sahiblik sayəsində nail olurlar. Buna baxmayaraq, zəngin tacirlərin önəmli ölkə sərvətlərinə malik olmaq arzusu torpağa və beləliklə, torpaq qiymətlərinə və rentalara, hətta daha artığına tələbatı artırır.

Torpaq ərzaq və sahə kimi, minerallar təchiz edir, əlbəttə, Smitin uzun "Gümüşün tükənməsi" fikirləri "milli gəlirin artımı istehsalçıları ucuzlaşdırır, amma torpaq daha da bahalaşır" kimi tezislərinə dəstək verən dəlil toplusu yaradır.

## Mexaniki sistem

Qısaca olaraq: ölkənin "illik istehsalı" qarşısıalınmaz surətdə bir-birindən asılı olan rentaya, əmək haqları və mənfəətlərə, torpaq sahibləri hesab olunan şəxslərə, işçilər və iş sahiblərinə ayrılır. Onlar hərəkətdə olan bütöv bir sistemin hissələridir ki, orada məhsullar yaranır, mübadilə edilir, işlənir və əvəz olunur və onların ən yaxşı şəkildə işlənməsi üçün resurslar qoyulur – bunlar hamısı avtomatikdir, mexanikidir.

Ancaq bu proses hakimiyyət gücünü öz mənafeləri naminə azad bazar sistemini dağıtmaq üçün istifadə edən şəxslər tərəfindən əsaslandırılmış hüquqlarla (monopoliyalar) eybəcərləşdirilmişdir. Torpaq sahibləri çox tənbəl və işçilər çox gücsüz ola bilər; ancaq iş sahiblərinin də həm marağı, həm də sərt xüsusiyyətləri vardır ki, rəqabəti boğmaq üçün qaydaları dəstəkləsin.

Beləliklə: "Bu qaydadan irəli gələn hər hansı yeni qanun və ya kommersiya qanun layihəsi, gərək hər zaman yüksək prinsipiallıq, hətta şübhəli yanaşma yolu ilə böyük ehtiyatla dinlənilə, uzun sürən və diqqətli yoxlamadan keçmədən qətiyyən qəbul olunmaya. Bu insanların qoyduğu qaydalardan irəli gəlir. O insanların ki, onların maraqları ictimaiyyətlə üst-üstə düşmür, onların ictimaiyyəti aldatmaq və hətta əzmək üçün ümumi maraqları və çoxlu imkanları var."

## Kapital yığımı

"Xalqların sərvəti" əsərinin 2-ci Kitabı *kapitalın* yaranması haqqındadır ki, Smit onu iqtisadi inkişafın əsas şərti adlandırır. İzafi məhsulların yaranması mübadiləni və ixtisaslaşmanı mümkün edir. Bu ixtisaslaşma daha böyük artıq məhsulun yaranmasına kömək edir, hansı ki, öz növbəsində təzədən yeni, xüsusi, iş sərfinin qarşısını alan avadanlığa yatırıla bilər. Bu, əla dövriyyədir. Bu kapital artımı sayəsində rifah böyüyən piroqa çevrilir: bir adam (və ya bir xalq) bir başqasının daha zəngin olması yolu ilə kasıblaşmağa doğru getməməlidir.

Əksinə, sərvət artdıqca, bütün xalq zənginləşir.

## Pul

Pul, Smitə görə vacib dəyər deyil. Bu yalnız mübadilə vasitəsidir. Real sərvət pulda deyil, pulla alınan məhsuldadır. Buna görə, qızıl və gümüşün alıcılıq qabiliyyəti qeyri-sabit olur. Və bu gün bir qeneya (21 şillinqə bərabər pul vahidi) alan adam, həmin pulu sabah xərcləyə bilər, beləliklə, ikinci üçün də gəlir təmin etmiş olar. Və həmin şəxs də növbəti gün o qeneyanı xərcləyərək, üçüncüyə gəlir verə bilər. Beləliklə, dövriyyədə olan pul məbləği xalqların ümumi gəliri kimi eyni dərəcədə şəffaf deyil. Merkantilistlər ikisini qarışdırmaqla yanlışlığa yol verirlər.

Amma pulun öz təsirləri var. Necə ki, o yerindədir, faydasız bir vasitədir – "ölü vəsait"dir – amma səmərəli bank əməliyyatları onu daha güclü işlədə bilər. Bugünkü qanuni pullar (harda ki, hökumətlər sadəcə bildiriş verir ki, veksellərini qanuni tender əsasında çap edəcəklər) Smitin vaxtında mövcud deyildi, amma banklar öz qızıl ehtiyatlarına arxalanaraq veksellərini buraxırdılar. O düşünürdü, nağd pulun hərəkətini saxlamağı asanlaşdırırdı, baxmayaraq, o, bankların öz veksellərini artıq buraxmasında riski də görürdü və bununla bağlı bir çox şotland bankının dağıldığı 1772-ci ildən sonrakı bank əməliyyatları böhranlarından yazırdı.

O düşünürdü ki, rəqabət təhlükəsi bankları qənaətcil saxlamalıdır, amma hələ onu bank əməliyyatlarının tənzimlənməsi üçün bir vasitə kimi görürdü (Smit bütün iqtisadi tənzimləmələrin əleyhinə deyildi: yalnız onların əleyhinə idi ki, o, xüsusi maraqları ümumi rifahdan yüksək tutmaqla hazırlanırdı).

## İstehlak və sərmayə

Smit ümumi və xalis gəlir arasında – ümumi gəlirdən onun əldə edilməsi xərcini çıxmaqla, başqa bir yenilik fərqi edir. "Xalqların sərvəti" əsərinin əmək və əmanətlərlə bağlı əsas hissəsi olan 3-cü fəsildə analizlər davam edir, baxmayaraq ki, onun terminologiyası müasir oxuculara çətinlik yarada bilər. Smit əməyi *məhsuldar və qeyri-məhsuldar* olmaqla fərqləndirir. *Məhsuldar əmək* dedikdə, o düşünür ki, iş öz xərclərinin hüdudunu ötüb keçir və yenidən sərmayə qoymaq üçün əlavə məhsul istehsal edir – istehsalla məşğul olan heyətin əməyi kimi. *Qeyri-məhsuldar əmək* isə, o düşünür ki, dərhal bitən işdir-həkimlərin və ya musiqiçilərin, hüquqşünasların və ya kukla oyunçularının, dövlət rəsmiləri və ya təlxəklərin işi kimi – hansı ki, yenidən yatırıla bilən gəlir yaratmırlar. O, beləliklə bugünkü iqtisadiyyatın əsası olan istehsal və xidmət sektorları arasında fərqliliyi göstərir.

Bu birbaşa xidmətləri istifadə etməklə, hər halda, biz özümüzü kapitalın qorunması və saxlanması üçün izafi məhsuldan məhrum edirik, hansı ki, gələcək gəlirimiz ondan asılıdır. İndi biz daha çox istehlak ediriksə, daha çox gələcək artım və gəlirin ziddinə gedirik.

Həqiqətən, biz o qədər istehlak edə bilərik ki, istehsal qabiliyyətimizi genişləndirmək üçün heç nə qalmaz; bir az da artıq olsa, heç onu *saxlaya* da bilmərik. Smit deyir ki, bu məbləğlər "öz gəlirləri daxilində xərclərini məhdudlaşdırmaqla" deyil, "bekarların əmək haqlarını onların vəsaitləri ilə" ödəyərək" kapitalı "israfçı" kimi *tükədir*, hansı ki, onun əcdadı sənayenin qorunub saxlanması üçün nə qədər qənaətcillik göstərib."

Kapital həm də düzgün sərmayə qərarlarının olmaması səbəbindən dağıla bilər (Smit bunu "bacarıqsız idarəçilik" adlandırır). Smitə görə, bu merkantilistləri xatırladır, bir xalqın qızıl və gümüş əmanətlərini azaltmır, amma şübhəsiz onun istehsal qabiliyyətini azaldır. Və əgər orada qanun norması yoxdursa, kapital oğurlana bilər ki, bu da insanların kapital toplamaq istəyini azaldır.

Amma "ağıllı millətlər heç zaman şəxslərin timsalında yoxsullaşmır, baxmayaraq ki, bəzən onlar israfçı və bacarıqsızdırlar." Sadə adamlar bilirlər ki, onlar özlərinin yaxşılığı üçün qənaət etməli və sərmayə yatırmalıdırlar. Lakin hökumətlər kapitalın qorunub saxlanmasının mühümlüyünə az diqqət verirlər: onların rolu istehsala sərmayə yatırmaq yox, cari xidmətlərə pul xərcləməkdir. Smitin müşahidələrinə görə, hökumətlərin az qala bütün gəlirləri, qeyri-məhsuldar işçi qüvvəsinin saxlanmasında bu yolla istifadə olunmuşdur. Beləliklə:

“...Kralların və nazirlərin şəxsi adamlarının iqtisadiyyatın keşikçiləri olmasını iddia etməsi, işə heç bir dəxli olmayan məsələ və fərziyyədir. Onlar özləri cəmiyyətdə hər zaman və hər hansı istisnasız ən böyük israfçılardır. Əgər onların öz ağılsız israfçılığı dövləti dağıtmırsa, onlar heç zaman məqsədlərinə yetməyəcəklər.”

“Hökumət israfçılığı” vergi ödəyicilərini məcbur edə bilər ki, “öz kapitallarını qoruyub saxlasınlar”, o vaxta qədər ki, nəticədə “fərdlərin bütün qənaətcilliyi və yaxşı idarəçiliyi istehsal itkisini və tənəzzülünü kompensasiya etmək imkanında olmur”. Amma bazar iqtisadiyyatı güclü möhkəm sistem kimi qalır. Böyük dövlət xalqları geri istiqamətləndirə bilər, amma bu, nadir hallarda onları dayandıra bilər:

“Hər kəsin daha yaxşı şəraiti üçün göstərdiyi düz, daimi və fasiləsiz səy dövlətin həm israf-çılığının, həm də hökumətin böyük səhvlərinin əksinə, çox vaxt təkmilləşməyə doğru təbii inkişafı qoruyub saxlamaq üçün kifayət qədər güclüdür.”

## Kapital üzərində əlavə düşüncələr

Smit müşahidə edir ki, kapital müxtəlif yollarla sərf oluna bilər. Bəzi aktivlər (balıqçılıq sənayesi kimi) dərhal istehlak üçün tədarük edilir; başqaları (maşın avadanlığı kimi) xammal və ya hazır malların istehsal və ya daşınmasına sərf olunur. Və adətən əhəmiyyət verilməyən, amma eyni səviyyədə mühüm və səmərəli olan kiçik hissələrə ayrılmış mallar, istehlak məqsədilə nəzərdə tutulmuş vahidlər üçün pərakəndə satış yolu ilə istifadə olunur – beləliklə, biz ət istəyən zaman bütünlükdə öküzü almağa ehtiyac duymuruq. (Bu, Smiti hər hansı bir yerdə pərakəndə satış ticarətçilərinin sayını məhdudlaşdıran rəsmi tədbirlərin gülünc tərəfinə yönəldir – məsələn, pivəxanaların lisenziyalaşdırılması kimi. “Bu, pivəxanaların çoxluğuna görə deyil, – o deyir, – ümumi sərxoşluğa meyllilik səbəbləri ilə bağlıdır. Ancaq bu meyl çoxsaylı pivəxanalar üçün lazımi qədər işçi qüvvəsi verir.” Pərakəndə satış ticarətçiləri, başqaları kimi, tələbə uyğun hərəkət edirlər).

Lakin, 2-ci Kitabın əsas mesajı odur ki, bizim məhsulun qənaət olunmuş hissəsi məhsulun hamısını istehlak etməkdənsə, bizə öz məhsuldar kapitalımızı artırmaq imkanı verir; hansı ki, öz növbəsində, gələcəkdə öz məhsulumuzu artırmaq imkanı qazandırır. Bu sərvətin – bizim bank xəzinələrindəki metalların miqdarı ilə əlaqəsiz (merkantilistləri nəzərdə tutur)- genişlənən dairəsidir.

Kapital yığımı vasitəsilə, daha çox mütəxəssisə və əməyə qənaət edən proseslər inkişaf etdirilə bilər. Nəticədə, əmək bölgüsü dərinləşəcək ki, bu da öz növbəsində daha çox iş tələb edəcək. Kapital genişləndikcə, əmək haqları da artacaq. (Smit, təbii ki, Sənaye İnqilabının özünü tam gücü ilə göstərməsindən əvvəl yazırdı və o vaxt iqtisadiyyatın əsasını əl əməyi təşkil edirdi. Onun gerçəkdən əməyi əvəz edən maşınlar təsəvvür etdiyi hiss olunmur).

Başqa sözlə, bazar iqtisadiyyatı milli sərvətin inkişaf etdirilməsində misilsizdir və bu sərvət lap aşağılardakı ən yoxsul işçilərə qədər yayılır. Həqiqətən də, bu sistemi qəbul edən zəngin ölkələrdəki yoxsul, onu qəbul etməyən kasıb ölkənin zənginindən daha yaxşı yaşayır. Bu, qloballaşan bir mesajdır: hansı ölkələr ki, öz müstəqilliyini saxlamağa və ya başqalarına münasibətdə ticarət sədlərini qaldırmağa çalışmırsa, öz yaxşılığından qaçmış olur.

## İqtisadi institutların tarixi

3-cü Kitab bəzən tarixi fərziyyələr, bəzən də zəngin tarixi faktlar vasitəsilə iqtisadi münasibətlərin inkişafına nəzər salır. Smit kənd təsərrüfatından sənayeyədək olan inkişafı izləməkdən başlayır. O təsdiq edir ki, şəhərlərin artması, şəhər və kəndlərin qarşılıqlı asılılığı bütünlüklə təbiidir. Sənətkarların onlar üçün ərzaq istehsal edən fermerlərə ehtiyacı var, fermerlərə də onlar üçün avadanlıq hazırlayan sənətkarlar və bazarları onların malları ilə təmin edən şəhərlər lazımdır: həqiqətən də, şəhər nə qədər genişlənərsə, bazar da o qədər böyüyər. Bu o

demək deyil ki, (dövrün fransız "fiziokrat*" iqtisadçılarının iddia etdiyi kimi) kənddən kənarda sadəcə şəhərlər mövcuddur: hər iki tərəf öz müxtəlif töhfələrini mübadilə etməklə dəyər qazanırlar.

Smit Avropada feodal qaydalarının dağılması sxemini cızır və Roma imperiyasının süqutundan sonra feodal qanunlarının mənşəyini, o cümlədən biznesin onu necə sıxışdırıb aradan çıxarmağa apardığını araşdırır. Biznes və ticarət dövründən əvvəl, sərvət böyük torpaq sahiblərində idi və bu baronlar labüd şəkildə həm də yerli səlahiyyət sahibləri olurdular. Lakin bu ixtiyari güc idi və feodal qanunu cüzi bir uğur olsa da, onu azaltmaq cəhdi kimi işlənmişdi. Amma ticarətin və biznesin yüksəlişi göstərdi ki, torpaq sahiblərinin sərvəti (və beləliklə gücü) pas tutmaqdadır və onu saxlayanlar müstəqil icarədarlara çevrilirlər. O icarədarlar, indi öz səyləri ilə daha çox təhlükəsizlik tələb edirlər və feodal sistemi çox və az bənzərliklə tətbiq olunmuş qanun normasına yol açır. Biznesin yüksəlişi iqtisadiyyatı siyasi hakimiyyətdən ayırdı və iqtisadi hakimiyyət həqiqi gücdür.

Smitin fikrincə, bu uğurlu nəticə idi. Çünki adamların kapitalını qoruyur və ticarətə, mülki ədalətə arxalanaraq, biznesə və istehsala artmaq imkanı yaradırdı. Bir daha o, insan qruplarından, geniş ictimaiyyətə ən az xidmət etmək niyyətində olan, ancaq öz əmlak və təhlükəsizliyinin qayğısına qalanlar üçün faydalı nəticəyə səbəb oldu.

## İqtisadi nəzəriyyə və siyasət

IV Kitabda Smit iqtisadi intervensionizm (siyasətin iqtisadi fəaliyyətə mane olması) haqqında fikirlərini toplayır. O, merkantilizm və onun "pul və sərvət eyni şeydir və siyasət idxalı məhdudlaşdırır və ixracı genişləndirir ki, beləliklə, daha çox qızıl və gümüş yığılıb saxlanır" kimi yanlış baxışından başlayır.

## Merkantilistlər və pul

Smit bizə xatırladır ki, pul yalnız mübadiləni yüngülləşdirmək üçün vasitədir. Xarici ticarət ümumi biznesin kiçik bir hissəsi olduğuna görə, qızılın sərhədləri aşan hərəkəti çətin ki, böyük xalqların məhvinə imkan versin.

Əlbəttə, merkantilistlər deyirlər ki, qızıl davamlı sərvətdir və biz belə davamlı bir sərvəti səfehcəsinə etibarsız mallara mübadilə etdiyimiz halda, o malları bizə ixrac edən ölkələr əksinə, onu onillərlə yığıb toplaya bilərlər. Smit, "biz Fransadan şərabları idxal (etibarsız) etmək və əvəzində dəmir məmulatları ixrac (davamlı) etməkdən çox xoşbəxtik" fikrinə etiraz edir. Amma fransız o qədər səfeh deyil ki, ehtiyac duyduğundan artıq qazan və tava toplasın. Və ya biz o qədər səfeh deyilik ki, qızıl və gümüşü onun gərək olduğundan artıq kənara yığaq. Artıq ölü metal "ölü kapital"dır və "ölü kapital" bizi zənginləşdirə bilməz.

## Mütləq mənfəət

Nə zaman ki, biz öz qızıl və gümüş yataqlarımızı qorumaq ümidi ilə idxalı məhdudlaşdırırıq, Smit fikrinə davam edir, bu o deməkdir ki, yerli istehlakçıların seçimi azdır: onlar müxtəlif xarici istehsalçılardansa, yerli istehsalçılardan almalıdırlar, hansı ki, xarici istehsalçıların məhsulları daha yaxşı və daha ucuz ola bilər. Bu siyasət baha və qeyri-məhsuldardır. Ticarət sahələri arasında əmək bölgüsü olduğuna görə, ölkələr də yaxşı bacardıqları işlə məşğul olmalı və öz

* 18-ci əsrdə Avropada ortaya çıxan Fizyokratizm cərəyanı Yunanca "Physis" (təbiət) və "Kratos" (Güc) kəlimələrinin birləşməsindən əmələ gəlmiş və mənası "təbiətin gücü" deməkdir. Fizyokratizm iqtisadi fəaliyyətin insanların qoyduğu qanunlarla deyil, təbii qanunlarla işlədiyini düşüncəsini müdafiə edir.

artıq məhsullarını mübadilə etməlidirlər. Bu arqument o prinsipin ilk əlamətidir ki, bu gün onu *"mütləq mənfəət"* adlandırırıq, Smit isə bunu aydın nümunə ilə təsdiqləyir:

"Şüşələrin, istixanaların və istilik sisteminin köməyi ilə Şotlandiyada çox yaxşı üzüm yetişdirilə və onlardan çox yaxşı şərab hazırlana bilər. Bu ən azı xarici ölkələrdən gətirilənlər qədər yaxşı ola bilər, amma 30 dəfə baha qiymətə. Bütün xarici şərabların idxalına qadağan qoymaqla, yalnız Şotlandiyada "Claret" və "Burqundu"nun hazırlanmasını müdafiə etmək ağıllı qərar olardımı?"

Belə interventionizm təkcə səmərəsiz və baha deyil. Bu həm də korrupsiyalaşmaqdır:

"Bir müstəqil şəxsi öz kapitalını hansı yolla istifadə etməyə istiqamətləndirməyə cəhd göstərən dövlət adamı, özünü daha çox lazımsız məsələlərlə yükləməməlidir. Yalnız ayrıca bir şəxslə bağlı deyil, hər hansı şura və ya senatla bağlı da üzərinə əminliklə etibar olunan bir səlahiyyət götürməlidir. Hansı ki, o səlahiyyət heç yerdə özünü onu yerinə yetirməyə qadir hesab edən lovğa və səfeh adamın əlində olduğu qədər təhlükəli olmazdı."

## Tariflər və subsidiyalar

Smit qəbul edir ki, onlar başqa ölkələri öz tariflərini aşağı salmağa vadar etsəydilər, *müvəqqəti tariflər* üçün şərait yaranardı. Amma ümumilikdə, belə strategiyalar məqsədsiz və ya zərərlidir ki, biz onlara vəkillik edən adamlara şübhəylə yanaşmalıyıq. Xarici şərab və pivə üzrə Britaniya tarifləri, məsələn, sərxoşluğa qarşı mübarizə aparan yerlərdə müdafiə olunur. Amma, Smit etiraz edir, baxmayaraq, alkoqol bəzən sui-istifadə olunur, hələ bu daha yaxşıdır ki, biz onu hazırlamaqdansa daha ucuz qiymətə ala bilirik. O həmçinin, Fransa üzərində Portuqaliyanın xeyrinə olan tarifləri qeyd edir və o arqumentə əsaslanır ki, Portuqaliya Britaniya istehsalçıları üçün daha yaxşı müştəridir. "Asılı ticarətçilərin oğurlanan malları" o şikayətlənir, "bu yolla böyük imperiyanı idarə etmək üçün siyasi prinsiplərə əsasən hazırlanıb".

Biz ticarətin mənfi balansı barədə çox da narahat olmamalıyıq, Smit merkantilistlərə işarə edir. Nə qədər ki, ölkə istehlak etdiyindən artıq istehsal edir, bu, onların kapitalına qənaət edir və onu artırır. Belə bir ölkə hələ ixrac etdiyindən daha çox idxal edə və bununla belə, artıq məhsulunun istehsalını davam etdirə və sərvətini artıra bilər.

Başqa ticari müdaxilələr barədə Smitin rəyi, "qüsurlar" (ixrac edənlər üçün vergi güzəştləri) və "həvəsləndirici yardım" (subsidiyalar) daxil olmaqla, onun öz dövrünə maraqlı mənzərə açır və arada əlvan incilər parlayır. Məsələn:

"Ağ siyənək balıqçılarına həvəsləndirici yardım tonnaj ilə bağlıdır və o, balıqçının zəhmətinə və ya uğuruna görə deyil, gəminin yükünə uyğunlaşdırılıb; və mən qorxuram ki, bu, yalnız balıq ovu üçün təchiz olunmuş gəmilərin, balıq üçün deyil, həvəsləndirici yardım üçün istifadə olunmasını adi hala çevirsin."

## Müstəmləkə ticarətinin məhdudiyyətləri

"Xalqların sərvəti" Amerikada qaynayan narazılıqların açıq üsyana çevrilməsindən aylarla sonra çap olunmuşdu. Smitin müstəmləkələr haqqında fəsli amerikanlara rəğbətini üzə çıxarır, əsasən o məsələdə ki, merkantilist məhdudiyyətləri onların ticarətinə zərər vurmuşdu (və Britaniyanı prosesdə pis vəziyyətdə qoymuşdu). O, ayrıca olaraq, Amerikanın vergi gəlirlərinə yardımı olduğunu düşündüyü üçün, ədalət məsələsi kimi, o mövzuya Parlamentdə böyük təqdimat hüququ verir.

Müstəmləkələrin mənşəyini izləyərək, Smit işarə edir ki, onlar adətən qızıl və gümüş tapmaq ümidi ilə yaradılmışdı, hansı ki, merkantilistlər bunu aydın olaraq sərvət mənbəyi sayırdılar. Amma Amerikanın ən böyük sərvəti torpaqdır. Bu kifayət qədərdir və ucuzdur ki, onun potensial məhsulunu üzə çıxarmaq üçün çox əmək tələb olunurdu. Bu, əməyi bahalaşdırır, ancaq amerikan kənd təsərrüfatı gerçəkdən çox məhsuldardır ki, əmək heç nəyə baxmayaraq sərfəli olaraq qalır.

Həqiqətən, Amerika elə məhsuldar və zəngindir ki, hətta Britaniyanın vergiləri və ticarət məhdudiyyətləri (hələ) onu dağıda bilməyib.

Təəssüf ki, Amerikanı yalnız ölkə daxilində ticarət aparmağa vadar edən siyasət, Britaniya kapitalını və biznesini daha məhsuldar istifadə olunmaqdan yayındırır – öz inkişafını Amerika ilə birlikdə sıxıb saxlayır və kapital yığımını ləngidir və beləliklə, hər iki halda, gələcək gəlirlərin daha aşağı olmasına gətirib çıxarır. Britaniya – o deyir, Amerikanı "müştərilərin xalqı" etməyə çalışırdı, amma əvəzində siyasət onları fermerlərdən siyasətçilərə çevirdi və o zamandan ki, belə çox Britaniya sənayesi Atlantik ticarəti üzərində mərkəzləşib, siyasi risk böyükdür. Yalnız ticarət və siyasi liberallaşma təhlükəni azalda bilər, lakin Britaniyanın sərmayəsi elə deformasiyaya uğrayıb ki, lazımi islahatlar aparmaq itkili olardı.

İstehsalçının üstün olmaq istədiyi yerdə, merkantilistlərin düşüncəsinə görə, Britaniyanın Amerika üzərində ticarət məhdudiyyətləri artıq başqa bir misaldır. Ancaq: "İstehlak bütün istehsal prosesinin yeganə nəticəsi və məqsədidir; və istehsalçının marağı ona yönəlməlidir ki, istehlakçının ona zəruri ehtiyacı nə dərəcədədir."

## Liberal alternativ

Smit fransız fiziokratlarını bu baxışlarına görə tənqid edir: bütün dəyər kənd təsərrüfatı və torpaqdan alınır - şəhər tacirləri və "sənətkarları" yalnız bu sərvəti yenidən qruplaşdırırlar, ancaq özləri heç nə istehsal etmirlər. O hesab edir ki, şəhər adamları həqiqətən məhsuldardırlar. Onlar sadəcə kapitalı istehlak etmirlər: həm də, onu dəyişirlər. Onlar *məhsuldardırlar, qeyri-məhsuldar* işçi deyillər.

Bununla belə, o düşünür ki, fiziokratların iqtisadi fəlsəfəsi ən yaxşılardan biridir. Onlar pul müqabilində yanlış məhsul yaratmırlar və gözəl görürlər ki, ticarət azadlığı o məhsulu maksimuma çatdırmağın ən yaxşı yoludur.

Smit qərar verir ki, bazar iqtisadiyyatı yaşamaq üçün kifayət qədər güclüdür, hətta bu azadlıq əla səviyyədən aşağı olsa belə. Ancaq azad iqtisadi sistemin ləzzəti odur ki, o, avtomatik olaraq işləyir. Smitin sözlərinə görə, "əsl azadlığın açıq və sadə sistemi özü öz ahəngini yaradır". Adamlar öz maraqlarının arxasınca getmək üçün sərbəst buraxılırlar və bunun vasitəsilə, biz gördüyümüz kimi, onlar bilməyərəkdən hər kəsin marağına yardım edirlər. Heç bir mərkəzi göstəriş tələb olunmur:

"Soveren (İngiltərədə monarxiya və cinayət hüququnun xərcləri (qızıl pul)) tamamilə rüsumdan azad olunub; amma bu hansısa dəyərli insan zəkası və ya bilgisi hesabına deyil, şəxsi adamlara məxsus sənaye sahəsinin idarə olunmasından gələn rüsum və onu cəmiyyətin maraqlarına uyğun ən sərfəli işlər istiqamətinə yönəltməklə baş verib."

Smitin fikrincə, uğurlu hesab olunur ki, hər bir sistem öz resurslarını xüsusi istiqamətə aparmağa çalışdığı vaxtdan "əslində, böyük məqsədin dağıdıcısıdır, hansı ki, bu, "yardım göstərmək" anlamında başa düşülür."

## Dövlətin rolu

Smit V Kitabda dövlətin xüsusi rolunu araşdırır. O, hökumət və bürokratik aparatın tənqidçisidir və azad ticarətə siyasi müdaxilənin tərəfdarı deyil. O inanır ki, onun təsvir etdiyi bazar iqtisadiyyatı yalnız onun qaydaları müşahidə olunduğu – mülkiyyətin təhlükəsiz olduğu və müqavilələrə əməl olunduğu zaman işləyə və öz faydalarını verə bilər. *Ədalətin və qanun normasının* qorunub saxlanması buna görə də vacibdir.

Bu, müdafiədir. Əgər bizim mülkiyyətimiz xarici hökumət tərəfindən oğurlana bilirsə, biz ondan çox da yaxşı deyilik ki, öz qonşularımız əmlakımızı oğurlayır.

Amma Smit bundan da uzağa gedir və iddia edir ki, *ictimai işlərin təmin olunmasında və təhsilin inkişaf etdirilməsində* də hökumətin rolu var.

## Müdafiə

Smit güman edir ki, ovçuluq zamanında, hər kəs özünü müdafiə etməliydi. Ancaq ovçuların o zamanda yaşadıqlarına, kiçik əmlak sahibi olmasına və ya olmamasına baxmayaraq, hər hansı mərkəzi hakimiyyətə tələbatı vardı. Bununla belə, kənd təsərrüfatı dövründə, adamlar dəyərli mülkiyyət toplamağa başlayır (məsələn, məhsul və mal-qara) və onun qorunması əsas məsələyə çevrilir. Əmək bölgüsü prinsipinə əsasən, ixtisaslı ordu yaradıldı. Onlar çox mülkiyyətlə çox qazanırlar, amma "biletsiz sərnişinlər"in qalmasındansa, hər kəsi ianə verməyə vadar edirlər. Beləliklə, müdafiə hökumətin funksiyasına çevrilir.

## Ədalət

Eyni tarixi arqument ədalət prinsipinə də tətbiq olunur. Adamlar mübadilə, ticarət cəmiyyətinə keçdikcə, onların mülkiyyəti ilə heç nəyi olmayan qonşularından müdafiə olunması üçün mülki dövlət yaranır:

"Zənginlərin varlanması dəfələrlə ehtiyacdan və ya həsəddən hərəkətə gəlmiş yoxsulun qəzəbini oyadır ki, zənginin əmlakını ələ keçirsin. O mülkiyyəti uzun illər çalışdıqları işdən və ya bəlkə neçə davamlı nəsillərdən əldə etmiş həmin qiymətli əmlak sahibləri, yalnız mülki şəhər idarəsinin himayəsi altında bütün gecəni təhlükəsiz yata bilər."

Əgər hər kəs azad hakimin hökmünü qəbul edirsə, bu şübhəsiz olaraq faydalıdır. Ancaq zəngin və güclünün özlərinə qanuni sığınacaq yaratmaq səyləri güc, zəka, ehtiyatlılıq, kamillik, sərvət və status kimi şəxsi keyfiyyətlərin mövcudluğuna hörmət etmək kimi təbii insan meylindən irəli gəlir.

Mülki dövlət, başqa sözlə, kommersiya cəmiyyətində meydana çıxan münaqişə və bərabərsizliyin nəticəsidir. Bu, təbii qanunauyğun bir nəticədir, ümumilikdə sərfəlidir, amma o demək deyil ki, əladır.

Mülki dövlət, mülkiyyətin qorunması üçün yaranandan bəri, gerçəkdən kasıblara qarşı zənginlərin və ya heç nəyi olmayanlara qarşı müəyyən qədər əmlakı olanların müdafiə olunması məqsədilə təsis olunub.

Bu gözlənilməz deyil ki, qeyri-təkmil əsaslarla yaradılmış hökumətin strukturu da təkmil deyil. Hakimiyyət vergiyə böyük resurslar yaratmağa imkan açır. Amma onun öz mülkiyyətini səmərəli idarə etmək meyli ayrı-ayrı fərdlərdən daha azdır. Beləliklə:

"Nə zaman ki, dövlət torpaqları özəl mülkiyyətə çevrildi, onlar bir neçə ildə yaxşılaşmış və becərilmiş torpaqlara çevrildilər. Bu torpağa görə gömrük rüsumu və aksizlərdən götürülən qazanc da labüd olaraq adamların gəlir və istehlakını artırdı."

Bu istəksizlik belə düzəldilməlidir: "Kommunal xidmətlər, onun icra olunmasına görə haqq ödənilməyincə və bu, onların icra olunmasına göstərilən zəhmətə uyğunlaşdırılmayınca, heç zaman yüksək səviyyədə yerinə yetirilmir."

## İctimai işlər və institutlar

Smitə görə hökumətin üçüncü vəzifəsi "müəyyən ictimai işlərin yaradılması və qorunub saxlanmasıdır ki, bu məsələ heç bir zaman hər hansı fərdin və ya kiçik fərdi qrupların marağında ola bilməz."

Bunlar təhsil və biznesə yardım edən *infrastruktur layihələridir* ki, insanlara ictimai və iqtisadi qayda-qanunun yaradıcı bir hissəsi olmağa kömək edir.

## İctimai işlər

Firavanlıq biznesin və biznes də yollar, körpülər və limanlar kimi infrastrukturun olmasını tələb edir. Bunlardan bəziləri, Smit düşünür, öz xərcini ödəyə bilməz və vergi fondu hesabına tikilməsi tələb olunur. Amma xərclərin ən azı bir hissəsi, bütünlükdə əhalidən gələn vergilərdənsə, o infrastrukturdan istifadə edənlərin rüsumlarından ödənə bilərdi. Eyni zamanda, əsas mənfəət yerli xarakter daşıyır və xərc rüsumlardan ödənə bilməz, ən yaxşısı *yerli vergidir*. Məsələn, London vergi ödəyiciləri asfalt döşəmənin salınmasını və küçə işıqlarının qoyulması xərcini ödəməlidirlər.

Smit həmçinin "barbar" ölkələrlə ticarət başlamaq üçün, adamları həvəsləndirmək məqsədilə ictimai güzəştlərə ehtiyac olduğunu görür. Amma bu kömək ümumi vergi ödəyicilərinin subsidiyalarındansa, müvəqqəti yerli monopoliyalar (patentlər və ya müəllif hüquqları kimi) formasında edilməlidir.

"Xalqların sərvəti" bu məqsədə yaxınlaşdığı vaxtdan, hökümət üçün əhalinin "kapitalının istiqamətləndirilməsi" üzrə uzadılmış məhkəmə hökmünə çevrilib, bu dövlət xərc təklifləri ən yaxşı imkan kimi görünür. Biznes əlbəttə ki, infrastruktur tələb edir, ancaq ona görə ki, onun ədalət normalarına ehtiyacı var. Aydın deyil, bununla belə, niyə yollar, körpülər və limanlar kommersiya əsasında inşa olunmamalı və bu xərc bütünlükdə onları istifadə edənlərin xərcləri hesabına ödənilməməlidir. Hətta asfalt döşəmə və küçə fənərləri də yerli bizneslər hesabına quraşdırıla və maliyyələşdirilə bilərdi ki, nəticədə ticarət qazanmış olardı. Və əgər yeni ticarət marşrutları açmağa dəyərsə, onda hökumətin cəlb olunmasına nə ehtiyac var?

Bəlkə də, biz ona əsaslanaraq ki, bu gün yeni ticarət müəssisələrini maliyyələşdirmək və mühüm infrastruktur yaratmaq üçün bahalı maliyyə vasitələrimiz var, Smitə bəraət qazandıra bilərik. Bizim yollar, körpülər və başqa vasitələrdən istifadə edənlərdən ödəniş toplamaq üçün də ən yaxşı texnologiyalarımız var. Amma 18-ci əsrdə dövlət maliyyələşməsi və təşəbbüsü hər kəsin mühüm olduğuna razılaşdığı müəyyən məsələləri həll etməyin yeganə yolu hesab olunurdu.

## Gənclərin təhsili

Smit ibtidai təhsilin inkişafını infrastruktura yaxın sayır – kommersiyanın çiçəklənməsinə imkan yaratmaq yolu ilə nəsə tələb olunur.

Amma yenə burada, onun analiz və "reseptləri" onun ümumi analizləri ilə ziddiyyətli görünür.

Onun başlanğıc nöqtəsi odur ki, təhsilin bütün faydaları üçün əmək bölgüsünün arzuolunmaz nəticələri ola bilər. Diqqətin gündəlik olaraq təkrar tapşırıqlar üzərinə yönəldilməsi, labüd olaraq insanların fikir və maraqlarını çərçivəyə salır:

"Bütün həyatı bir neçə sadə-bəlkə də, hər zaman eyni və ya çox bənzər əməliyyatı icra etməklə keçmiş insanın, öz düşüncəsini toplamağa və ya heç zaman çətinliklər baş vermədiyinə görə, onları aradan qaldırmaq üçün yollar axtarmasına və ya öz düşündüyünü-ixtirasını tətbiq etməsinə səbəb də yoxdur."

Marks sonra bunu "təcridetmə" adlandırır və Smit təkid edir ki, təhsil dəyişiklik tələb edir. Təhsil daha çox əziyyət çəkən yoxsul əməkçiyə (daha stimullaşdırıcı sahədə çalışan istehsalçılar və ticarətçilərə) yönəldilməlidir. Və Smit deyir ki, biznesi asanlaşdırmaq üçün insanların "oxumağa, yazmağa və hesablamağa" ehtiyacı var. Bununla yanaşı həndəsə və texniki elmlər də faydalıdır.

"Dövlət" məktəblər yaratmaqla bu təhsilə yardım edir. Yerli hökumət tərəfindən maliyyələşdirilən belə məktəblərin birinə də Smit Krikaldidə getmişdi. Ancaq dövlət məktəb binalarını maliyyələşdirməli olduğuna görə, bütün müəllimlərin maaşlarını ödəməməlidir. Əgər müəllimlər tələbələrin təhsil haqqına arxalanırlarsa, onların fəaliyyəti daha da yüksələcək. Smit Oksfordda oxuduğu dövrü əsəbiliklə xatırlayır: "Məktəblərin və kolleclərin yardım fondu müəllimlərin ehtiyaclarını az və ya çox səviyyədə ödəmək üçün əhəmiyyətli dərəcədə azalmışdı. Onların təminatı tamamilə müstəqil uğurlarında və onların xüsusi ixtisaslarının nüfuzundadır."

O, dövlətin bu ibtidai təhsilə dəqiq olaraq nə qədər vəsait ödəməsi məsələsində tərəddüd göstərir. Bütün təhsil xərcini tələbələrin özləri ödədikləri rəqs və qılıncoynatma bacarıqları üzrə ixtisaslaşmış özəl məktəblərə yüksək rəğbətini ifadə edir. Amma Smitin diqqətliliyi dövlət müəssisələri haqqında xəbərdarlıqdır, müasir oxucu soruşa bilər, yoxsul tələbələrin məktəblərindənsə, onların özlərinə yardım etmək daha yaxşı deyilmi?

## Bütün yaşlarda olanlar üçün təhsil

Smit yeniyetmələrə və dini təhsilə yardım göstərilməsində də dövlətin rolu olduğunu düşünür. Kilsə torpaqları kilsə xidmətçilərinə maaş ödəyəndə, onlar ləng inkişaf edir, ancaq şəhərlərin böyüməsinin cazibədarlığı o deməkdir ki, dini və əxlaqi təhsil heç zaman çox önəmli olmayıb.

Beləliklə, o yenə də spesifik olmayaraq, sənətlərin, fəlsəfənin, elmi biliklərin dəstəklənməsində dövlətin heç olmasa müəyyən rolunun olmasını müdafiə edir. Və o, mübahisə edir ki, hökumət cəsarətsizliyin “mənəvi şikəstliyi” ilə mübarizə aparmağa “ciddi diqqət” verməli, “cüzam və ya başqa bezdirici və mənfur xəstəliklərin” yayılmasının qarşısını almalıdır.

## Soveren

Sonuncu məsələ vergidən kənar ödənməli “soverenin şöhrətinin” qorunub saxlanmasıdır ki, o, monarxiya və cinayət hüququnun xərclərini əhatə edir. Amma əsasən *mülki* məhkəmələr, mübahisələrə cəlb olunan səbəbkarlar – prosesdən əsaslı qazanc götürən şəxslər tərəfindən maliyyələşdirilməlidir – deyə o fikrini davam etdirir.

## Verginin tətbiq olunma prinsipləri

Qəbul olunub ki, az da olsa, müəyyən vergi tətbiq olunması vacibdir. Smit onu ən yaxşı yolla necə toplamaq məsələsinə baxır. Burada onun daha məlumatlı və möhkəm əsasa malik olduğu görünür. O, tam əmindir: “Başqa belə bir sənət yoxdur ki, hökumət onu adamların ciblərinin pulunu boşaltmaq qədər tez öyrənsin.”

O zaman açıq-aydın, müəyyən məhdudiyyət tələb olunur və Smit vergiqoymanın dörd məhşur prinsipini irəli sürür. Birincisi, adamlar dövlətin müdafiə təhlükəsizliyi çərçivəsində faydalandıqları gəlirlərə müəyyən hissə yardım etməlidirlər. İkincisi, vergilərin miqdarı vergi məmurlarının sərbəst qərarlarından asılı olmaqdansa, dəqiq və dəyişməz olması məqsədəuyğundur. Üçüncüsü, vergi ödəniş üçün uyğun olmalıdır. Dördüncüsü, vergilərin təsirli tərəfləri az olmalıdır: onlar toplanmaq üçün az olmalıdır; müəssisə və sənayeyə mane olmamalıdır; elə ağır olmamalıdır ki, hiyləgərliyə (məsələn, qaçaqmalçılıq kimi), imkan yaratsın; və o, “vergi toplayanların vaxtaşırı səfərlərini və eybəcər yoxlamalarını” tələb etməməlidir.

“Vergi tətbiq olunması elə bir şeydir ki, hökumətlər onunla hüquq əldə edir” – Smit deyir. Şirkətlər üzərində vergi qoymaq ağılsızlıqdır, məsələn, onun böyük açıqgözlüklə müşahidə etdiyi kimi bizim gəlirin asılı olduğu kapital yüksək dərəcədə çevikdir:

“Kapital sahibi əslində dünyanın vətəndaşıdır və önəmli deyil ki, o, ayrıca bir ölkəyə bağlı olsun. Müəyyən olunmuş ağır vergi cərimələsinin məşəqqətli sıxıntısına məruz qaldığı halda, onun ölkəni tərk etməsi uyğun olardı. O, kapitalını hansısa başqa bir ölkəyə aparardı ki, orada ya öz biznesiylə məşğul olar, ya da öz azad həyatını yaşayardı.”

Amma Smitin buradakı planlarında da sistemsizliklər var. O, istehlak üzərində verginin əleyhinə çıxır, ancaq əyləncə sahələri üzrə vergiləri dəstəkləyir (bura elə şeylər daxildir ki, biz onu gündəlik tələbatımızdan artıq düşünürük, ev quşları kimi).

O deyir ki, adamlar öz gəlirlərinə uyğun nisbətdə vergi ödəməlidirlər, ancaq istəyir ki, zəngin “o nisbətdən nəsə artıq” ödəsin.

## Dövlət borcları

Smitin dövlətin rolu haqqında məyyən fikirləri onun ümumi prinsipləri ilə fərqli göründüyü halda, onun siyasi “reseptlər”i də həmişəki dəqiqliyi ilə düşünülmüş görünmür. O qeyd edir ki, hökumətlərin adamların cibindən boşalda biləcəklərindən də artıq xərcləməyə meyli var. Beləliklə, o, “Xalqların sərvəti”ni belə bir xəbərdarlıqla sona çatdırır ki, böyük dövlət borcu xüsusi olaraq zərərlidir.

Borc verməklə hökumətlər kapitalı sərmayə və artımdan yayındırır və onu hökumət fəaliyyətləri formasında hazır istehlak istiqamətinə aparır. Bu, o deməkdir ki, inkişaf büdrəyərək əsaslı şəkildə geri qalır. Bundan başqa, hökumətin borc verməsi xalqdan daha artıq vergi tələb etmədən, siyasətçilərə daha çox funksiyalar əldə etməyə imkan yaradır və onların şəxsi hakimiyyətini gücləndirir. Və onlar əsasən ödəmələrdən, necə olursa olsun, yayınmaq üçün yollar tapır. Bu səbəblərə görə, dövlət borcu ancaq bir qrupdan başqasına zərərsiz ötürmə deyil. Bu azadlığa real təhlükədir və demək ki, inkişafa, çiçəklənməyə də real təhlükədir.

## “Xalqların sərvəti” bu gün

Smitin dövrü bizim yaşadığımız dövrdən çox fərqlidir, şübhəsiz, Sənaye İnqilabından əvvəlki hər şey dəyişib. O, bu gün kapitalizmin əsasında dayanan şərik müəssisələrə şübhə edirdi, mübahisə edirdi ki, “böyük sayda sahibkar” onları heç zaman mərkəzləşdirilmiş halda saxlaya bilməz. Bəlkə də, o, haqlı idi. O, birləşmiş güclərin artmasını, sənaye tullantıları ilə bağlı problemləri, kağız pulların infliyasiyasını və bu gün iqtisadçıları narahat edən bir çox başqa məsələləri proqnozlaşdırmamışdı.

“Xalqların sərvəti” hələ də işləmək, ticarət aparmaq, qənaət etmək və sərmayə qoymaq üçün birbaşa hakimiyyətə ehtiyac duymadan azadlıq və təhlükəsizliyin bizi necə irəli apardığını göstərməklə, içinə düşdüyümüz ən ağır iqtisadi problemlərin güclü həll yollarını verir. Azad iqtisadiyyat çevik və adaptasiya olunan bir sistemdir ki, yeni gələn bir sistemin zərbəsinə dayana bilər və hər hansı gələcək sistemlərin də öhdəsindən gələr.

# “ƏXLAQİ DUYĞULAR NƏZƏRİYYƏSİ”

“Əxlaqi duyğular nəzəriyyəsi” 1759-cu ildə, Adam Smit 35 yaşında olan zaman nəşr olunub. Əsər onun Qlazqou Universitetində “Etika” haqqında mühazirə kursu əsasında yazılıb. Bu asan oxunan bir kitab deyil. Smit “Ədəbi və ritorik üslub” üzrə də mühazirə oxuyurdu və əsərin dili bu günün filosoflarının qısaldılmış elmi nəsrlərindən çox qəlizdir. Həqiqətən, Smitin dostu Edmund Burke bu əsəri “yazıdan çox rəssamlıq” kimi təsvir edirdi. O, aramla oxunmağı tələb edir.

**Kitabın əsas ideyaları**

Ancaq “Əxlaqi duyğular nəzəriyyəsi” real elmi nailiyyət idi. O göstərir ki, bizim əxlaqi fikirlərimiz və fəaliyyətlərimiz, sosial varlıq kimi gerçək təbiətimizin məhsuludur. Əsər iddia edir ki, bu sosial psixologiya əxlaqi fəaliyyət üçün ağıldan daha yaxşı göstəricidir. O, cəmiyyətin yaşaması üçün tələb olunan *sayıqlıq və ədalətin* təməl qaydalarını müəyyənləşdirir və onun inkişafını təmin edən əlavə, *faydalı* fəaliyyətləri aydınlaşdırır.

**Şəxsi maraq və rəğbət**

Fərd kimi bizim özümüzün öz qayğımıza qalmaq kimi təbii meylimiz var. Bu sadəcə tədbirlilikdir. Və ancaq sosial varlıqlar kimi – Smit izah edir – bizə başqalarına münasibətdə təbii *rəğbət* hissi də verilib. (Bu gün o söz başqa mənalarda qəbul olunub və *“şəfqət”* sözü bu anlayışı daha yaxşı izah edərdi). Biz başqalarını fəlakət içində və ya xoşbəxt görən zaman, onların hisslərinə az da olsa şərik çıxırıq. Bənzər olaraq, başqaları da bizə şəfqətlə yanaşır və bizim dərdimizə şərik çıxır. Amma onların hissləri xüsusilə güclü olan zaman, şəfqət hissi onları təhrik edir ki, bizim təsirsiz reaksiyalarımızla uyğunlaşmaq üçün hisslərini cilovlasınlar. Tədricən, biz uşaqlıqdan yeniyetməliyə doğru böyüdükcə, hər birimiz öyrənirik ki, başqa adamlar üçün nə qəbulolunandır, nə yox. Mənəviyyat bizim sosial təbiətimizdən gəlir.

**Ədalət, xeyriyyəçilik və ləyaqət**

Bu, ədalət yaradır. Biz mənfəətpərəst olsaq da, yenə başqaları arasında onlara zərər vurmadan yaşamaq məsələsini həll etməliyik. Bu, cəmiyyətin mövcudluğu üçün önəmli bir minimumdur. Əgər adamlar uzağa gedir və təqdir olunan yaxşı əməl – xeyriyyəçilik edirsə, biz onu alqışlayırıq, ancaq biz bu hərəkəti, ədalət tələb etdiyimiz kimi tələb edə bilmərik.

**Ləyaqət**

Sayıqlıq, ədalət və xeyirxahlıq önəmlidir. Lakin ideal odur ki, hər hansı bitərəf real və ya xəyali şəxs- Smit onu *“bitərəf seyrçi”* adlandırır – bizim hiss və əməllərimizə tam şərik olardı. Bu *özünüidarə* tələb edir ki, onda həqiqi ləyaqət var.

**Təbii şəfqət hissi ləyaqətin əsası kimi**

Smitin dövründəki filosoflar döğru və yanlış hərəkətlərin nədən yarandığının rasional izahlarını axtarırdı. Ancaq Smit düşünürdü ki, bizim mənəviyyatımız heç də hesablanan deyildir. Əksinə, bu, bizi sosial varlıqlar kimi formalaşdıran təbii bir şeydir. Bizim hər birimiz başqalarına

münasibətdə rəğbət (və ya şəfqət) hiss edirik ki, bu hiss açıq, səmimi, xeyirxah və təbiidir. Biz təxəyyülümüzdə özümüzü başqalarının yerində görürük. Biz kiminsə hücuma məruz qaldığını görürüksə, səksənirik; nə zaman gözümüzü kəndiri dartan icraçıya zilləyirik, onlarla əzab çəkirik. Amma biz adamları xöşbəxt və ya qəmli görəndə, biz də xoşbəxt və ya qəmli oluruq.

Eynilə, biz insanların təqdir etmədiyimiz yollarla hərəkət ediyini görən zaman da onların halına acıyırıq. Həqiqətən, biz başqalarınım fikir və hisslərini bölüşməkdən səmimi zövq duyuruq. Və nə zaman biz başqalarının hisslərini bölüşmürük və ya onların hərəkətlərini qiymətləndirmirik, bu qarşılıqlı olaraq bədbəxtlikdir.

Bununla belə, Smit deyir ki, bizim təsirləndiyimiz hisslər özü o qədər də çox deyil, amma şərait onun artmasına imkan yaradır. Biz acıqlı şəxs görən zaman, daha çox qəzəbin potensial qurbanları olmaq qorxusuna yaxınıq, nəinki onu bölüşməyə. Ən azı, o vaxta qədər ki, hadisənin səbəblərini öyrənək və öz mühakiməmizi verək ki, bu qəzəb nə dərəcədə əsaslıdır. Əgər biz hiss etsək ki, adamlar müəyyən hadisəyə həddindən artıq dərəcədə reaksiya verib, onlar bizim şəfqət hissimizdən məhrum olurlar.

## Fikir ayrılığı və təmkinlilik

Smit qeyd edir ki, biz adi seyrçilər kimi başqalarının hisslərinin sərtliyini tam bölüşə bilmərik. Məsələn, haqsız olan kiminsə sərt qəzəbini, ağır itki üz vermiş birinin dərin kədər hissini. Bizim şəfqət hissimiz, səmimi olmasına baxmayaraq, istər-istəməz zəifdir. Ancaq başqa insanlar da bizim hisslərin seyirçiləridir, necə ki, biz onların. Bu hallarda olduğu kimi, onlarla bizim hisslərimiz arasında ayrılıq olarsa, onlar kədərlənəcəklər. Bu öz növbəsində, onları öz çətin vəziyyətlərini bizim düşüncəmizlə uzlaşdırmaq üçün təbii hisslərindən yaranan hiddətə təmkinlə yanaşmağa vadar edəcək.

Biz yaşamımız boyunca öz yolumuzu müəyyənləşdirdiyimizə görə, bu təmkinliliyi öyrənirik. Təbiət etibarilə, biz hadisələri başqa adamların baxış nöqtəsindən görürük və öyrənirik ki, hədsiz qəzəb, kədər və ya başqa hisslər onları bədbəxt edir. Beləliklə, biz hisslərimizi başqalarının hissləri ilə uzlaşdırmaq üçün onları cilovlamağa çalışırıq. Həqiqətən, biz onları elə bir nöqtəyə qədər yüngülləşdirməyi nəzərdə tuturuq ki, orada hansısa səciyyəvi, qərəzsiz şəxs – Smitin dediyi *"bitərəf seyirçi"* – bizim hisslərimizə şərik çıxır.

Bənzər olaraq, biz başqa adamlara qayğı göstəririksə, bilirik ki, bitərəf seyirçi onu dəyərləndirəcək və ondan məmnun qalacaq. Bitərəf seyirçi real və ya xəyali ola bilər, ancaq hələ bizə təlimat verir və təcrübə vasitəsilə biz tədricən davranış normaları sistemini – mənəviyyatı qururuq. Bu, cəmiyyətin çiçəklənməsinə kömək edir ki, onun kökü şəfqətdədir:

"Və beləliklə, bu, o hissdir ki, bizim xudpəsəndliyimizi məhdudlaşdırmaq, başqaları haqqında çox, özümüz haqqında az düşünmək və bizim xeyirxahlıq meyllərimizə imkan vermək üçün insan təbiətinin mükəmməlliyini formalaşdırır və xüsusi olaraq, insanlığa bütünlükdə onların mərhəmət və düzgünlüyünü təşkil edən hiss və həyəcanlar harmoniyası təmin edə bilir."

## Mükafat, cəza və cəmiyyət

Smit aclıq, sevgi, mərhəmət və qəzəb kimi müxtəlif hisslərin uyğunluğunu nəzərdə tutur, sonra belə bir sual qoyur ki, hansı davranış mükafat və ya cəzaya layiqdir.

O bildirir ki, bu məsələdə mühakimə yürütmək üçün, bizə motivlərin ayrıca nəticələri lazımdır. Əgər bir şəxs başqasının faydalı hərəkətindən xeyir əldə edirsə, vasitəçi bizim qane olduğumuz məqsədlərdən çıxış etməyincə, biz benefisiarların tam minnətdarlığını hiss edə bilmərik. Nə də biz kiminsə ziyanlı hərəkətindən doğan qəzəbinə şəfqət hissi ilə yanaşa bilərik, əgər o hərəkət bizim bəyənmədiyimiz motivlərə əsaslanırsa.Yalnız faydalı hərəkət nə zaman müsbət məqsədə əsaslanırsa, biz inanmalıyıq ki, o, mükafata layiqdir; o zaman ki, zərərli hərəkət mənfi məqsəddən yaranır, biz inanırıq ki, o cəzaya layiqdir.

Cəza və mükafatların mühüm sosial funksiyası var. Biz cəmiyyətin mənafeyinə olan hərəkətləri təqdir edir və mükafatlandırır, ona zərər vuran hərəkətləri bəyənmir və cəzalandırırıq: ”Cəmiyyətin uzun yaşamı tələb edir ki, cəzaya bərabər olmayan və fitnəkarlıqla edilməmiş pis hərəkətə görə xüsusi cəzaların qarşısı alınsın və nəticə etibarilə, o cəzaları təyin etmək üçün tam uyğun və haqq edilmiş hərəkət olmalıdır.”

Bu proses qeyri-iradidir: biz dəqiq bilməyə bilərik ki, fərdi hərəkətlər cəmiyyətə necə xeyir və ya zərər gətirir, bizim ağlımız dəyişkən bələdçidir. Ancaq Allah və ya təbiət bizi iştaha və nifrətlə o məqsədlə təmin edib ki, həqiqətən bizim cəmiyyətin və cins müxtəlifliyimizin inkişafı davam etsin. Həqiqətən, başqa cür davransaydıq, cəmiyyət dağılardı və tezliklə sosial varlıqlar kimi mövcudluğumuzu dayandırardıq.

Nə zaman Smit “görünməz əl” və daha artığı haqqında danışır – nə zaman aydınlaşdırır ki, bizim hərəkətlərimiz yaxşı bir ictimai quruluşun fəaliyyətinin yaranmasına necə xidmət edir, bu, onun düşüncəsində bir neçə məsələ ilə bağlı olan bir nümunədir, hətta baxmayaraq, biz fəaliyyət göstərəndə belə, nəticə bizim məqsədimiz deyil. Məsələn, Smit göstərir ki, saat əqrəbləri vaxtı göstərmək üçün birlikdə işləyir. Ancaq onlar bunu bilmirlər: bu, saatsazın məqsədidir. Həmçinin, nə zaman bizim qeyri-iradi hərəkətlərimiz cəmiyyətə yardım etmək üçün işləyir, biz təkəbbürlə bunu öz ağlımıza aid edə bilərik, ancaq həqiqətdə bunu Allaha və ya təbiətə aid etməliyik. (Nə zaman o, bu fenomeni insan planından deyil, insan hərəkətindən yaranıb fəaliyyətdə olan ictimai quruluş kimi müzakirə edir, Smit *Allah*, *Təbiət* və ya *Təbiətin Yaradıcısı* terminlərini demək olar ki, eyni mənalı ifadələr kimi istifadə edir. Ancaq onun bizim öz hərəkətlərimiz vasitəsilə düşünmədən necə ictimai harmoniya yaratdığımız haqda şərhi sistemli yanaşmadır, teoloji yanaşma deyil. O nə Allahlığa cəsarət edir, nə də ona qarışmağa ehtiyac duyur. Təbiət və ya bu gün biz dediyimiz kimi, təkamül əla şəkildə eyni nəticəni verə bilər.)

Bu bizi geriyə, motivlər məsələsinə qaytarır. Zərər vurmağı nəzərdə tutan hərəkətlər əslində onu etməyə də bilər; başqa, heç bunu nəzərdə tutmayan hərəkətlər də real zərər vura bilər. Onda motivlər, yoxsa nəticələr cəzalandırılmalıdır? Smit cavab verir ki, biz insan qəlbini görə bilmərik: əgər yalnız pis *motivləri* cəzalandırsaq, heç kəs şübhədən qurtulmuş olmazdı. Amma yenə təbiət bizi daha qəti həll variantına aparır: biz yalnız o *hərəkətləri* cəzalandırırıq ki, çox zərərli və ya nəzərdə tutulmuş olur.

## Ədalət təməl kimi

Cəmiyyətin yaşaması üçün onun fərdi üzvlərinin bir-birinə zərər vurmasının qarşısını alan qaydalar olmalıdır. Smitin şərh etdiyi kimi, cəmiyyət üçün oğru və qatillərin də mövcud olması mümkündür, ancaq o həddə ki, onlar bir-birindən oğurlamaqdan və bir-birini öldürməkdən imtina edirlər. Bu o qaydalardır ki, biz ədalət adlandırırıq.

Əgər insanlar yaxşı rəftara nail olmaq və ya yanlış hərəkətdən geri qayıtmaq üçün başqalarına kömək etmirlərsə, biz onları mərhəmətsiz və ya nankor adlandıra bilərik. Amma biz adamları *yaxşılıq etməyə* məcbur etmək üçün cəzalandıra bilmərik. Yalnız o hərəkətlərə görə cəzalandıra bilərik ki, onlar *zərərə* real və ya düşünülmüş hərəkətlərdir. Biz yalnız onları məcbur edirik ki, ədalət qanunlarına tabe olsunlar, çünki əks halda cəmiyyət yaşaya bilməzdi.

Ədalət yaxşılığı artırmaq üçün deyil, zərərin qarşısını almaq üçündür. Məsələn, biz insanlara başqalarından nəsə oğurlamağa icazə vermirik, sadəcə ona görə ki, bu daha çox onların özünə xeyir ola bilər. Hər kəs öz maraqlarının başqalarından daha mühüm olduğunu düşünməyə üstünlük verdiyinə görə, əgər biz oğurluğa icazə versəydik, hamımız başqalarının sonsuz qarətlərinə məruz qalardıq. Ədalət odur ki, cəmiyyət özünü zərərdən müdafiə edir və əhəmiyyətlidir ki, təbiət bizə onun qorunub saxlanması üçün güclü instinktlər verib. Bizim ədalətsizliyi qəbul etməməyimiz elə güclüdür ki, bu, onun günahkarı olan adamlarda dərin utanc və peşmanlıq hissi doğurur.

## Özünütənqid və vicdan

Smit deyir ki, əslində, təbiət bizə cəzanın qarşısını almaq üçün üçün daha nəsə verib ki, bu da özünütənqiddir. Biz yalnız başqa adamların hərəkətlərinin deyil, özümüzü vəkil və məhkəmə arasında ayırmaqla, öz hərəkətlərimizin də bitərəf seyirciləriyik. Və bu daxili məhkəmə daha çox başqalarının açıq tərifindən asılıdır. Biz də tərifə *layiq olmaq* istəyirik və nə vaxt hiss edirik ki, başqa adamların bizim haqqımızda fikirləri səmimidir, yalnız o zaman məmnun qalırıq.

“Bu vicdan qığılcımının”, - o, fikrinə davam edir, “güclü sosial funksiyası var.” O, bizi öz taleyimizin əsiri olmaqdan və başqalarının taleyindən çox uzaq məsafədə dayanmaqdan qoruyur. Bir məşhur misalda o bildirir ki, böyük bir zəlzələ bütün Çini məhv etsəydi, Avropada yaşayan bir şəxs müəyyən qədər kədərlənərdi Ancaq bu bəzi şəxslərin uğursuzluğu ilə müqayisədə bir şey olmazdı:

“Əgər o, gündüz kiçik barmağını itirsəydi, gecəni yata bilməzdi. Amma bunlar baş vermədiyi halda, o, yüz milyonlarla insanın məhv olmasına baxmayaraq, daha dərin rahatlıq içində xoruldayacaq və o nəhəng çoxsaylı obyektlərin dağıdılması ona maraqsız görünəcək, nəinki onun əhəmiyyətsiz şəxsi uğursuzluğu.”

Buna baxmayaraq, əslində, bütün fərdlər eyni dərəcədə önəmlidir. Vicdan bunu bizə xatırladan təbiətin yoludur. Kiçik bir barmağımızı qorumaq üçün yüz milyonlarla insanın həyatını qurban etmək olardımı? Əlbəttə, yox! Bizim vicdanımız heç zaman buna yol verməzdi. Vicdan bizə perspektiv verir. O, bizim özümüzə qapılmamızı yoxlayır və bizi yalnız öz şəxsi mənafeyimiz naminə başqalarına ziyan vurmaqdan çəkindirir. Bu, bizə öz əsas nəfsimiz üzərində hakim olmaq iradəsi verir.

## Əxlaq qaydaları

Bizim təbii instinktdən qaynaqlanan bu proses, qaydaları yaradır və davam etdirir. Biz adamların pis davranışını görən zaman daxili mühakiməmiz qətiyyət verir ki, eyni şeyi etməyək: nə zaman ki, başqaları yaxşı davranış göstərir, biz onlardan nümunə götürməyə can atırıq. Bunu da Smit deyir. Sonsuz sayda fəaliyyətlərlə bağlı belə mühakimələrin yürüdülməsi prosesində biz tədricən davranış qaydalarını yaradırıq. Bu, o deməkdir ki, biz daha hər yeni şəraiti təzədən fikirləşməli deyilik: indi bizə bələdçilik edən əxlaqi standartlarımız var. Onlar “borc hissini” doğurur ki, o da bizə, həmin anda necə duyğulana biləcəyimizdən asılı olmayaraq, ədalət prinsiplərinə, vicdan və ədəb-ərkana sadiq qalmağımıza kömək edir.

Bu daimilik ictimai qayda-qanun üçün faydalıdır. Vicdanımızı izləməklə, biz ən sonda inamla, amma düşünməyərəkdən bəşəriyyətin xoşbəxtliyinə yardım edirik. İnsan qanunları cəza və mükafatları ilə birlikdə eyni nəticələrə hesablanır. Amma onlar heç zaman təbiətən yaradılan vicdan və əxlaq qaydaları kimi sistemli, birbaşa və ya effektiv ola bilməzlər.

Smit qəbul edir ki, əxlaq qaydaları zaman və məkana görə dəyişkən olmalıdır. Fərqli mədəniyyətlərin gözəlliyə dair fərqli ideyaları var, onların nəyi daha yaxşı bildiklərindən asılı olaraq, “gözəllik qaydaları” haqqında da fərqli ideyaları var. Məsələn, müxtəlif nikah ənənələrinə, seksual rəftar normaları və qonaqpərvərliyə və ya ədəb-ərkana dair fərqli standartlar mövcuddur. O vurğulayır ki, dəb və ənənənin belə müxtəliflikləri qaçılmaz sonluqdur. Təbiətin fundamental prinsipləri davamlı getməsə, cəmiyyət öz yaşamını davam etdirə bilməz.

## Sərvətə münasibət

Bizim əxlaqi mühakiməmizə təsir göstərə bilən və bunu heç də hər şeydə yaxşılığa doğru etməyən başqa amil sərvətdir. Smitin bu mövzu haqqındakı geniş düşüncələri onu maddi ehtiyacın tərəfdarı kimi təsəvvür edən sadədil tənqidçilərə (Karl Marksın davamçıları) şok kimi gəlməlidir.

O təkidlə bildirir ki, pul ilə ödənən maddi ehtiyaclar doğrudan da tamamilə əhəmiyyətsizdir. Qəşəng zərif bir palto havadan qorunmaq üçün kobud bir paltodan davamlı deyil. Və ya zəngin adam hər hansı başqa birindən artıq yeyə bilməz və kiçik bir daxmada əməkçi, bəlkə də, böyük bir yerdə padşahdan daha rahat yatır. Sərvət bizi qorxudan, kədər və ölümdən xilas edə bilməz.

Biz hələ də inanırıq ki, xoşbəxtliyi pulla almaq olar və zənginlər və məşhurlar hökmən xoşbəxtdirlər. Əslində, biz onların yaxşı taleyinin həyəcanını hiss etməklə məmnunluq duyuruq və onların yaşamları və məşğuliyyətləri bizim marağımızı özünə əsir edir. İctimaiyyətin diqqət mərkəzində olmaq, əlbəttə, çox məmnunedicidir. Belə ki, zəngin üçün sərvət mənbəyi onun əldə edə biləcəyi əhəmiyyətsiz rahatlıqlar deyil, onun yaratdığı yaltaqlıqdır.

Lakin bu, əbəsdir, ona görə ki, xalqın mənafeyi daha çox sərvətə sahiblikdən və ya statusdan asılıdır, nəinki, o sərvətə sahiblik edənlərin məziyyətindən. Hətta insanlar heç nə qazanmasa belə, varlının "nöqsan və səfehliyini" seyr etməyi üstün sayır və onlara layiq olduğundan da artıq yaltaqlanır. Nəticədə, onlar öz sərvət və statusları ilə o fikirə gəlirlər ki, həqiqətən bütün bu saxta tərifə layiqdirlər, hətta onlar əslində bunların heç birinə layiq olmayanda belə.

## Özünü təkmilləşdirmə

Hər halda, sərvətə canatma başqa mənfəətlər gətirir. Adamlar zənginlərin böyük malikanələrini və ya gözəl faytonlarını görən zaman, rahat və yüngül olduğunu düşündükləri bu həyata paxıllıq edirlər. Paradoksal olaraq, Smit deyir ki, onlar da eyni həyata nail olmaq üçün özlərini narahat və ağır işlərdə oda-közə vururlar. Beləliklə, sərvətin güman edilən ləzzətləri, əslində yanlış olmasına baxmayaraq, bizi fiziki cəhətdən böyük güc toplamağa təhrik edir və intellektual və bədii bacarıqlarımızda da nəhəng təkmilləşmələrə doğru aparır:

"Bu, bir səhradır ki, qızılgüllər açır və bəşər fəaliyyətini davamlı inkişafda saxlayır. Bu odur ki, insanlığı əvvəlcə torpağı becərməyə, evlər tikməyə, şəhərlər və dövlətlər qurmağa, bütün elmləri və sənətləri kəşf etməyə və təkmilləşdirməyə təhrik etdi. Hansı ki, bu sənətlər insan həyatını zərifləşdirir və bəzəyir; hansı ki, onlar bütövlükdə dünyanın tam simasını dəyişdi, təbiətin kələ-kötür meşələrini yararlı və məhsuldar tarlalara çevirdi, yolsuz-izsiz və faydasız okeanları yeni təminat mənbəyinə və yer üzünün müxtəlif millətləri üçün yüksək əlaqə yoluna çevirdi."

Bununla belə, zəngin yoxsuldan az istehlak edir. Onlar yalnız daha çox qiymətli, yararlı və ya nəfis olan şeyləri yığır. Və bütün bunlara tələbatı olanlara və ya onların bütün zərif bəzək-düzəklərini hazırlayan sənaye sahiblərinə iş verərək, sərvətin bütün cəmiyyətə yayılmasına nail olur. Həqiqətən də, onlar "görünməz əl tərəfindən həyati ehtiyacların paylanmasına yaxın olanı edirlər ki, onu etməklə, yer üzü öz sakinləri arasında bərabər hissələrə bölünmüş olardı".

## Ləyaqət

Əxlaqın təbiətini və mənşəyini tutuşdurmaqla, Smit "Əxlaqi duyğular nəzəriyyəsi"ni həqiqi mükəmməl insan xarakterini müəyyənləşdirərək, tamamlayır. Belə insan, o deyir, *sayıqlıq, ədalət* və *xeyirxahlıq* keyfiyyətlərinin təcəssümü olardı. Dördüncüsü, təmkin də əhəmiyyətlidir, o həmişə yaxşılığa aparan qüvvə olmasa belə.

*Sayıqlıq* fərdin diqqəti altında istiqamətləndirilir. O, fərdin ifratçılığını yüngülləşdirir ki, bu, cəmiyyət üçün də önəmlidir. Həmin özəllik xüsusi olaraq cəzbedici olmasa da, hörmətəlayiqdir. *Ədalət* bizim başqalarına vura biləcəyimiz zərəri məhdudlaşdırmağa yönəlib. Bu ictimai həyatın davamlı inkişafı üçün əhəmiyyətlidir. *Xeyirxahlıq* bizi başqalarının xoşbəxtliyinə yardım göstərməyə cəlb etməklə, ictimai həyatı inkişaf etdirir. Bu hər kəsdən tələb oluna bilməsə də, həmişə qiymətləndirilməlidir. Və *təmkin* bizim çılğınlığımızı yüngülləşdirir. (Qorxu bizim qəzəbimizin qarşısını ala bilər, amma biz təhlükəsiz olan kimi, eyni qəzəb yenidən peyda olur. Amma nə zaman biz başqalarına münasibətdə qəzəbimizi təmkin vasitəsilə yüngülləşdiririk, bu, gerçək bir azalmadır.)

Bizim daha çox özümüz, sonra ailəmiz, daha sonra dostlarımız və kənar adamlar haqqında maraqlanmağımız kimi təbii meylimiz var. Biz öz ölkəmizə başqalarından daha artıq qayğı ilə

yanaşmağı üstün tuturuq. Amma Smit iddia edir ki, gerçək xeyirxahlıq sərhəd tanımır. İnsanlıq hər hansı bir fərddən daha mühüm olduğuna görə, həqiqi mükəmməl insan “dünyanın böyük marağı” naminə şəxsi qurbanlar verməyə hazır olmalıdır.

## Mükəmməl cəmiyyətin quruluşu

Həqiqətən, təbiət fərdləri şəxsi qurbanlar verməyə təhrik edir və biz insanları belə hərəkətlər etməyə imkan yaradan təmkinə heyran qalırıq. Ancaq insanlar özlərini yaxşı səbəblərə görə qurban verdikləri kimi, pis səbəblərə görə də qurban verməyi bacarırlar. Bir qəhrəmanın təmkini bir fanatikin polad qətiyyətinə çevrilə bilər.

Bəşəriyyətə bağlılıq bizim dövlətimizə bağlılıqla  eyni deyil. O, ölkənin qurulması və təşkili üçün hörmət və ehtiram, o cümlədən, bizim vətəndaşlarımızın xöşbəxt olması üçün istək  tələb edir. Adətən, onlar ikisi də uyğun gəlir. Ancaq zamanla siyasi çaxnaşmalardan onlar toqquşa da bilər.

Belə şəraitlərdə siyasətçilər islahat üçün irəli sürülən əhatəli planlara müraciət edə bilərlər. Smit deyir ki, onlar mövcud institutların devrilməsini irəli sürürlər, hətta o köhnə institutların verdiyi faydalardan asılı olmayaraq. Onlar bunun əvəzinə “rasional” alternativ irəli sürürlər. Amma bu, insan təbiətindən fərqlənir:

“İnsan sistemi onun öz təkəbbürü ilə çox uyğundur; və insan çox zaman öz ideal hakimiyyət planının  fərz edilən mükəmməlliyinə  aşiqdir ki, özü bunun hər hansı hissəsinin kiçicik bir təzahüründən belə əziyyət çəkmir. O, elə görünməyə çalışır ki, böyük bir cəmiyyətin üzvlərini, elə asanlıqla  təşkil edə bilər ki, sanki bir əl müxtəlif fiqurların hissələrini şahmat taxtası üzərində yerləşdirir. O nəzərə almır ki, insan cəmiyyətinin nəhəng şahmat taxtasında, hər ayrı hissənin, bütünlüklə o müxtəlf hissələrin öz hərəkət prinsipi var ki, onun üzərində təsir vasitəsini yalnız qanunverici  seçə bilər.”

Təbiət və azadlıq fəaliyyətdə olan cəmiyyətin həmahəngliyinin yaradılmasına etibarlı bələdçidir, nəinki fanatikin və ya xəyalpərəstin təkəbbürlü ağlı.

# SMİTİN MÜHAZİRƏLƏRİ VƏ BAŞQA YAZILARI

Smit göstəriş vermişdi ki, onun çap olunmamış yazılarının çoxu ölümündən sonra yandırılsın (bu, zamanında tam normal xahiş idi. O zaman yazıçılar öz tamamlanmış işləri haqqında fikir söylənməsini istəyirdilər, nəinki əlyazma halındakı qaralamaları haqqında). Belə ki, "Xalqların sərvəti" və "Əxlaqi duyğular nəzəriyyəsi"ndən sonra onun yazılı işlərinin az hissəsi salamat qalıb. Lakin qalanlar Smitin bilik və maraqları ilə geniş əhatəli dünyagörüşündən xəbər verir: Samuel Consonun "Lüğət"inin rəyi, Avropada intellektual cərəyanlar haqqında və dillərin mənşəyi haqqında məqalələr; rəssamlıq, dram, musiqi və rəqs daxil olmaqla, sənətlər haqqında oçerklər; ingilis və italyan poeziyası haqqında qeydlər; qədim fəlsəfə və fizika tarixi haqqında yazılar və "Astronomiya tarixi" adlı 70 səhifəlik dissertasiya.

Xoşbəxtlikdən, bizdə də onun "Ritorika haqqında mühazirələr"indən, "Bellesin məktubları"ndan, "Hüquq sistemi haqqında mühazirələri"ndən tələbələrinin qeydləri var. Bunlar Smitin əlyazma variantı olmasa da, bizə onun Qlazqouda intellektual inkişaf yolu haqqında qiymətli fikirlər verir və bir çox bəndlər yenidən "Xalqların sərvəti"ndə əks olunur.

### Birləşmiş mövzular

Çox müxtəlif mövzuları əhatə edən bu müxtəlif mühazirə və yazılar Smitin yanaşması haqqında mühüm bir amili aşkara çıxarır.

Smit sosial psixoloq olduğu kimi, çox böyük iqtisadçı və ya moralist, tarixçi və ya qrammatist deyil. O anlamağa çalışır ki, insan ağlı dünya və başqa insanlarla necə keçinir və bu münasibətlərdən böyük şeyləri necə yaradır. Ona görə, elm gerçəklik haqqında insan ağlının onu özü üçün analiz və yerbəyer etdiyindən daha az məlumat verir. Dil, əxlaq və iqtisadiyyat hamısı gərəkli ictimai strukturlardır ki, hansı yollasa fikirlərin görüşündən meydana gəlir. Hüquq və ədalət insanlara dinc yanaşı yaşamağı təmin emək üçündür.

Onun şərhlərini biz bu gün "təkamül" adlandırırıq. Təbiət bizə təbii meyllər verib ki, necə olur-olsun gücləri birləşdirməklə, onları ümumi mənfəət üçün böyük sosial institutlara çevirsin. Biz başa düşməyə bilərik ki, bizim şəxsi cəhdlərimiz necə uzlaşır, əlaqələnir və ya başqaları ilə iqtisadiyyat, dil və ya ədalət prinsipinin ümumi və dəyərli sistemini yaratmaq üçün necə bir araya gəlir: ancaq onlar bunu edirlər.

Həqiqətən, əgər onlar bunu etməsəydilər və dağıdıcılıq olsaydı, cəmiyyət yaşaya bilməzdi. Beləliklə, Smitin göstərmək istədiyi odur ki, bu fərdlər bütövlüyə münasibətdə necə fəaliyyət göstərir.

### Smit elmin fəlsəfəsi haqqında

Buna görə də, "Astronomiya tarixi"nin ulduzlardan münəccimlik hekayəti danışmaqdan daha dərin məqsədi var. Bu fikirlər "Astronomiya tarixi"ndən "Fəlsəfi məsələləri irəli aparan və istiqamətləndirən prinsiplər" adlı tam başlıqla ifadə olunmuş hissədən götürülüb. Həqiqətən də, insan zəkası və bizim onu necə analiz etdiyimiz, kateqoriyalaşdırdığımız və dünyanı necə anladığımız haqqındadır. Belə bir sualla başlayır ki, bizi elmi nəzəriyyələrə nə aparır. Sonra göstərir ki, nəzəriyyələr necə irəli sürülür, sınaqdan keçirilir, aradan çıxarılır və araşdırmağa başlayır ki, "yaxşı" nəzəriyyə nə edir, məsələn İsaak Nyuton nəzəriyyəsini istifadə etməklə nəyə nail olur. Elmə "gerçək"lik haqda deyil, insan psixologiyası və interpretasiyası haqqında dünya modeli kimi baxmağa cəhd edir ki, bu da gözlənilməz dərəcədə müasirdir.

## Naməlum şəxsin dərdi

Smit göstərir ki, biz düşünməyərəkdən adi şeyləri yardım etmək üçün götürürük. Ancaq nə zaman ki, yeni şeylər üzə çıxır, bu *sürprizdir*. Bizi *heyrət* götürür ki, onlar bizim adi dünyamıza necə uyğunlaşır. Bir şeyin uyğun gəlməməsi hissi narahatlıq gətirir. Amma bizim ağıl və təxəyyülümüz, mücərrədlik və təsnifat bacarıqlarımız bizə kontekstə yeni məna verməyə kömək edir.

Məsələn, biz bir dəmir parçasının maqnit tərəfindən cəzb olunduğunu görəndə heyrətlənirik; amma bizim fantaziyamız işarə verir ki, orada daşın ətrafında fırlanan müəyyən qüvvə var və o, bu hərəkəti aydınlaşdırmaqda bizə kömək edir. Bu işlənməmiş nəzəriyyədir, amma Smit göstərmək istəyir ki, belə nəzəriyyələr irəli sürülür, sınaqdan keçirilir və təkmilləşdirilir.

## Fərziyyələr və təkziblər

O, bunu astronomiya tarixini illüstrasiya kimi istifadə etməklə həyata keçirir. Qədim astronomlara görə "sürpriz" günəşin, ayın, ulduzların hərəkətinin izahını tələb edir. Bir təklif odur ki, səma bu cisimlərin asıldığı günbəzə bənzər damdır və onlar gündəlik olaraq şərqdən qərbə hərəkət edirlər. Təəssüf ki, bu, planetlərin davamsız hərəkətini izah etmirdi. Beləliklə, çox məharətli nəzəriyyə meydana çıxdı. Orada həqiqətən bir neçə cisim var, biri davamlı olaraq şərqdən qərbə hərəkət edir və başqaları çox davamsız (planetlərlə münasibətdə) hərəkət edir. Amma bu davamsız hərəkət özü müəyyən aydınlaşdırma tələb edir. Çox-çox cisimlər postulatlaşdırıldı, müxtəlif istiqamətlərdə çək-çevir edildi - o vaxta qədər ki, onlardan 72-nin təsəvvürü yaradıldı. Yeganə narahatlıq bu idi: "Bu sistem indi forma və bağlılıq vermək üçün kəşf olunmuş o göy cisimlərinin öz görünüşləri kimi dolaşıq və mürəkkəb olmuşdu."

Sonrakı astronomlar planetlərin hərəkətinə dair daha sadə izah yolları axtarırdılar. Kopernikin sistemi ortaya çıxdı ki, cisimlərin mərkəzində yer kürəsi deyil, günəş dayanır. Bu planetlərin davamsız hərəkətini izah etməyi asanlaşdırdı-bu izaha görə yer də hərəkətdə idi. Baxmayaraq ki, çox adam yerin kainatın mərkəzi olmaması ideyasından silkələndi, astronomlar bunu faydalı hesab etdilər-ən azı onun nəticələrindən daha dəqiq mülahizələr alınana qədər.

Amma İssak Nyuton da öz növbəsində sadə, ümumi izahat ilə ortaya çıxa bilər ki, planetlər yalnız necə deyil, həm də nə səbəbə görə dəqiq onların müşahidə etdikləri yolla hərəkət edir. Bu ağırlıq qüvvəsinin təsiridir. Bir neçə sadə fiziki qanun planetlərin elliptik orbitlərini və başqa hadisələrin görünüşünü, kometlər kimi izah edə bilərdi, hansı ki, bu, Kopernik sisteminə uyğunlaşdırıla bilmədi. Bu sadə, hardasa çəkici görünürdü və müşahidə olunan faktlara uyğun idi.

## Elm və insan qavrayışı

Smitə görə, onda elmi metod insan ağlına asanca əsaslanmaqla kainatın izah olunması prosesidir. Biz həqiqətən onun mürəkkəbliklərini azaldaraq sadə prinsiplərə çevirməklə anlaya bilərik. Kainatın modeli irəli sürülür, sınaqdan keçirilir, istənilən tapılır, formaya salınır və nə zaman onlar çox qarmaqarışıq və ya müşahidələrlə çox fikir ayrılıqları olur, o daha cəlbedici şərhlər üçün kənara atılır. Bu, nəzərəçarpan müasir baxışdır.

Biz nəzəriyyələrdə müəyyən uyğunluq görürük ki, bu, müxtəlif şərhlərin qarmaqarışıqlığını "bir neçə ümumi prinsiplər"ədək azaldır. Bu ona görədir ki, elm bizim öz əqli orqanizmimizdir. Smitə görə, bütün elmi modellər - "bütün fəlsəfi sistemlər", onun sözlərinə görə - "təxəyyülün açıq ixtiralarıdır."

## Ünsiyyət psixologiyası

“Ritorika haqqında və Bellesin məktubları” mühazirələrində Smitin mövzusunun əsasında o dayanır ki, həqiqi insan psixologiyası və inkişafı ondan-əsas ictimai institutdan-ünsiyyətdən gəlir. Nümunə üçün, Smit təklif verir ki, əgər sənin rəğbətə layiq auditoriyan varsa, onlara bütün mesajlarını ver, sonra onu hissə-hissə izah et. Əgər aqressiv dinləyici ilə rastlaşsan, onların hamısını dərhal öz ziddiyyətli qənaətlərinlə hücuma məruz qoyma, onları mərhələlərlə buna aparıb çıxar.

Yalnız tələbə qeydləri formasında olan mühazirələrdə və öz “Dilin ilkin formalaşması haqqında təsəvvürlər” məqaləsində Smit dili anlamaq yolunu onun necə meydana çıxdığını tədqiq etməkdə görür. Yazılı qeydlər olmasına baxmayaraq, Smitin tarixi labüd dərəcədə təxminidir və onun nümunələri bir neçə qədim və müasir Avropa dilləri ilə məhdudlaşır. Amma onun izahı təkamülə əsaslanır: o inanır ki, insan cəmiyyəti inkişaf etdikcə, dil bir inkişaf vasitəsi olaraq təkmilləşir.

## Ünsiyyət və insan təbiəti

Dil insan düşüncəsinin məhsulu olduğuna görə, o təsdiq edir, o bizə öz təbiətimiz haqda nəsə deyir. Misal üçün, bizim bacarıqlarımızın kateqoriyalaşdırılması artıq “Astronomiya tarixi”ndə əks olunub. Smit bildirir ki, ibtidai insanlar hər şeyə fərqli adlar verə bilərdilər. O, çox ağır olardı, amma xoşbəxtlikdən insan ağlının mücərrədlik gücü köməyə gəlir. Biz müxtəlif şeylərdə ümumi cəhətlər görə bilir və onların bütövlükdə siniflərinə ümumi söz işlədirik-məsələn, ağac. Biz həmçinin keyfiyyətləri rənglər kimi müəyyən edirik-yaşıl ağac-və ya münasibətlər-mağaranın üstündəki ağac. Bu elmi metod üçün mühüm olan bu texnikalar bizim gündəlik həyatımızı anlamaqda az dəyərli deyil.

Smitin hüquqi qaydaları mövzulara tətbiq etmək qətiyyəti onun “Xalqların sərvəti”ndən “Ritorika və Bellesin məktubları”nadək bütün sorğularını birləşdirir. Keçmişdə istehsal və mübadiləni idarə edən insan hərəkətverici qüvvələrini eyniləşdirmək və onları tərkib hissələrinə bölmək tələbatı vardı. Sonralar, bu axtarış münasibətdən irəli gedən psixologiyanın aşkar olunması və onun struktur və tərzinin analizi üçün aparılır.

## Ünsiyyət elmi

Üslub, tərz, həqiqətən, Smitin diqqətini çox məşğul edir. “Yaxşı tərz, üslub” - o, qətiyyətlə deyir, “yığcam, ədəbi və dəqiq olandır”. O, yazıçı və ya natiqin çılğınlığından xəbər verir və qısa, aydın, səlis olmalıdır. Qısa cümlələr anlaşmaya kömək edir. Və (“Əxlaqi duyğular nəzəriyyəsi”nin əsas anlayışı) dil hissiyyat doğurmalı və dinləyici onu qəbul etməlidir.

Ünsiyyət psixologiyanın predmetidir, Smit iddia edir ki, müxtəlif arqumentlər müxtəlif texnikalar tələb edir. O, məqsədin təqdimatı üçün tələb olunan danışıq nitqindən tutmüş, ibrətamiz arqumentlərlə səbəb və nəticələrin izah olunması üçün tələb olunması, emosiyalara təsir etməli olan müxtəlif növ natiqlik təqdimatlarına qədər müxtəlif məsələləri əhatə edir. Onun təsvirləri klassik yazıçı və tarixçilərə qeyri-adi dərəcədə bələd olduğunu göstərir.

Bununla belə, əsası adamlarla ünsiyyət yaratmaqdır ki, ilk andan onları anlaya biləsən. İnsanlar təbii olaraq bu cür hissləri ilə yaxşıdırlar, belə ki, ünsiyyət dilin inkişafına imkan verir. Ən ilkin və ən kobud cəhdlərdən - ünsiyyətə, mürəkkəb və yüksək dərəcədə faydalı ictimai institutlara qədər yüksələrək.

## Smit hökumət və dövlət siyasəti haqqında

Smitin "Hüquq sistemi haqqında mühazirələri" yenə də yalnız tələbələrinin qeydlərində qalıb. O bildirir ki, hüquq sistemi, "hökumət və qanunun ümumi prinsiplər nəzəriyyəsi" və ya "mülki hökumətlərin istiqamətləndirməli olduğu qaydalar"dır. Bir daha, mühazirələr sosial psixologiyada məşğələ, insanın qarşılıqlı təsir əsasında hüquq və hökumət institutlarının əsasının qurulmasına necə səbəb olmasının izlənməsi cəhdi kimi görünə bilər.

Başlanğıc bölmə "Ədalət" adlandırılıb, ancaq müxtəlif səpkili geniş məsələləri əhatə edir. Hökumətin mənşəyi və inkişafı, konstitusiyalar, yerli hüquq, köləlik, mülkiyyət hüququ, məhkəmələr və cinayət məhkəməsi məsələləri daxil olmaqla. Başqa bir əsas bölmə, siyasət haqqında daha çox Smitin qiymətlər, pul, ticarət və əmək bölgüsü ilə bağlı fikirlərini əhatə edir ki, bu, on il keçməmiş onun "Xalqların sərvəti" əsərində əksini tapacaqdı.

## Ədalət, dövlət və hüquq

Bir daha, Smit təkamül baxışını götürür. Ovçuluq sistemi köçəri çobanlar dövrünə, sonra sabit kənd təsərrüfatı və biznes dövrünə yol verdikcə, bu iqtisadi quruluşları möhkəmləndirmək üçün müxtəlif dövlət və hüquqi sistemlər tələb olunurdu. (Bir əsr sonra Karl Marks razılaşacaq: istehsal münasibətləri ictimai münasibətləri formalaşdırır.)

Dövlət, Smit "Xalqların sərvəti"ndə dəqiq şərh etdiyi kimi, mülkiyyətin qorunması məqsədi əsasında yaranmışdır, hansı ki, çoban və fermerlər dövründə çox mühüm əhəmiyyətə malik oldu. Bu quruluşun açıq üstünlüyü bizim təbii insan meylinin hakimiyyətə hörməti əsasında möhkəmləndirildi, o deyir. Amma bu, bazar iqtisadiyyatı idi ki, demokratiyanın meydana gəlməsinə səbəb oldu. İlkin vaxtlar, bütün hakimiyyət yerli rəhbərdə idi. İqtisadi mübadilədə, istehsalçılar əvəzində diqqəti daha çox öz müştəriləri olan saysız-hesabsız sadə insanlara yönəltdilər. Beləliklə, tipik dövlətin toxumları səpildi.

## Əmək və mübadilə

Başqa bölmələr göstərir ki, Smit "Xalqların sərvəti"ni hətta 1760-cı illərin ortalarında davam etdirirdi. "Bu, əmək bölgüsüdür ki, ölkənin sərvətini artırır", o deyir. Burada da sancaq fabrikinin və yun paltonun istehsalı misalı var ki, münlərlə fərdin əməkdaşlığını əhatə edir və cəmiyyət vasitəsilə əmək fəaliyyətini genişləndirir. Və biz belə deyirik: "Sən qəhvəçiyə və ya qəssaba pivə və mal əti üçün müraciət edərkən, bunlara özlüyündə nə qədər ehtiyac duyduğunu izah etmirsən, müəyyən qiymət müqabilində sənə o məhsuldan nə qədər düşdüyünü soruşursan". "Sən qəti olaraq onun insanpərvərliyinin deyil, özünəvurğunluğunun obyektisən. (Bəlkə də bunu qeyd edən tələbə Smitin əsl sözlərinin şeiriyyətini sadəcə tuta bilməyib.)

Uyğun olaraq, biz görürük ki, Smit o merkantilist baxışlarına hücum edir ki, o baxışa görə sərvət puldur və onun qorunması üçün ixrac məhdudlaşdırılmalıdır. "Bu haylı-küylü yaşayışla," – o qeyd edir, "bir zəngin bədxərc kapitalı israf edə bilər-hansı ki, bu istehsalı və inkişafı sarsıdır, hətta baxmayaraq ki, dövriyyədən pul itmir". Sərvət və pul, həqiqətən də, eyni şey deyil.

"Xalqların sərvəti"ndə başlanğıc götürən mühazirələr iqtisadi ideyaları "Əxlaqi düşüncələr nəzəriyyəsi"ndə inkişaf etdirir. O təkid edir ki, bizim maddi inkişafımızın hərəkətverici qüvvəsi bizim ehtiyaclarımız deyil, bizim istəklərimizdir və belə deyir: "İnsanın tələbatı elədir ki, heç nə onu qane etmir. Biz yedizdirildikdən, qeyindirildikdən və evlə təmin olunduqdan sonra da iqtisadi inkişaf dayanmaz." Bizim təkmilləşmə axtarışımız heç vaxt bitmir və nə istehsalda, nə sənayedə, nə də elmdə və sənətlərdə inkişaf ondan ayrılmır.

## Bacarıqsız hökumət

Əgər istehsal, mübadilə və kapital yığımı maddi tərəqqiyə gedən yoldursa, bunu əngəlləyən nədir? Smit deyir ki, tez-tez təsadüf olunan fakta görə, bu, bacarıqsız hökumətdir. Kapital yığımı vaxt aparır. Əgər insanlar düşünürsə ki, hökumət onları oğurluqdan qoruya bilməz və azad ticarət etməyə buraxmaz, onların çalışqan və qənaətcil olmağa meyli az olacaq.

"Hüquq sistemi haqqında mühazirələr" heç zaman nəşr üçün nəzərdə tutulmamışdı və Smitin hökumətin bacarıqsızlığı və müdaxiləsinə hücumu "Xalqların sərvətinə" nisbətən burada bir az yumşaqdır. Ancaq onun çox yaxın məqsədləri var: insanları iş dəyişikliklərindən qoruyan müqavilə qanununda qüsurlar, torpağa sahiblik və onun ilk statusu haqqında köhnə qanun, hökumət subsidiyaları, istehsalçılara verilən monopoliyalar, imtiyazlar və uzun təlimlər, kölələlik və başqa qaydalar və s.

Ağır vergilər başqa bir yolkəsicilikdir. Mühazirələrdə o artıq vergilərin səmərəliliyi haqqında düşünməyə başlayıb: torpaq vergilərini əmtəə vergilərinə qədər artırmaq olar, çünki onları toplamaq asandır. Və burada, o düşünür ki, dövlət və səlahiyyətli torpaq sahiblərindən daha çox mərkəzi planlaşdırma var. Adamlar yuxarıdan yönəldilməyən bazarlara və ticarət azadlığına ehtiyac duyurlar.

Belə müdaxilələr labüd olaraq ictimai rifahı aşağı salır. Adamlar könüllü mübadilələrə gedirlər, çünki hər iki tərəf bundan faydalanacağına inanır. Bu insan sərvətinin mənbəyidir. "Nə zaman iki nəfər öz arasında ticarət edir" o düşünür ki, "bu, şübhəsiz olaraq hər ikisinin qazancıdır. " Və o, merkantilistlərə deyir: "Vəziyyət iki xalq arasında da tam eynidir."

## Azadlıq və inkişaf

Onun siyasət "reseptlər"i eyni dərəcədə sağlamdır:

"Yuxarıdakı fikirlərdən görünür ki, Britaniya bütün mənalarda azad liman olmalıydı ki, orada xarici ticarət üçün hər hansı maneə olmasın. Əgər hökumətin xərclərini başqa üsulla ödəmək mümkün olsaydı, bütün borclar, gömrük rüsumları və aksizlər ləğv edilməliydi ki, belə sərbəst ticarət və azad mübadilə bütün xalqlara və hər şeyə şamil edilməliydi."

Və eyni düşüncəylə, "mübadilə azadlığı" bütün millətlərin daxilində də hər şeyə şamil edilməliydi.

Smit kimi dövrünün bəzi alimləri də güman edirdilər ki, inkişaf qarşısıalınmazdır. Hər halda, onların dünyası həqiqətən inkişaf etməkdəydi. Smit çox da nikbin deyildi. İnkişaf qayda və təhlükəsizlik, azadlıq və ədalət çərçivəsi tələb edir. Əks təqdirdə, adamlar əməksevər olmaq səbəblərini itirirlər. Bütün bunların qorunub saxlanmasında dövlətin şəksiz rolu var. Amma bu da sərvət yaranması prosesinin yolunu kəsməməlidir, çünki o mənafelər hakimiyyətə onu təhrif etmək üçün verilməyib. Bu yolu sərbəst buraxmaqla, insanların daha yaxşı şəraitə olan təbii arzusu inkişafın ən güclü hərəkətverici qüvvəsidir.

**Nəticə**

Smitin geniş yayılmamış yazıları sadəcə, onların əhatə etdiyi dərin elmilik dərəcəsinə görə müasir oxucuya çətinlik yarada bilər. Həm də, Smit müxtəlif tarixi kosmologiya modelləri haqqında idrak dilində və dərin elmi biliklə danışır. Bundan başqa, o, müxtəlif klassik alimlərin dildən necə istifadə etdiyini göstərmək üçün onlardan sitatlar gətirir və çoxsaylı yaxın və uzaq ölkələrin qanuni istitutlarının müqayisəsini aparır.

Ancaq Smitin çoxlu akademik sahələrdə nümayiş etdirdiyi ustalıq, həm də onu təbiətcə bir tələbə kimi göstərir. O, bu qanunları, hökumətləri, dili və hətta elmi "müəyyən olduğu" kimi verməyib. Bütün bunlar həqiqətən insan düşüncəsinin məhsuludur. Hələ onlar mürəkkəb sistemlərdir və elə gərəkli deyil ki, biz onu şüurlu olaraq layihələşdirək. Bu görünməz əl ilə fərziyyə irəli sürən alimi o, heyran qoyur ki, bizim fərdi hərəkətlərimiz onların ictimai institutlarının fəaliyyətini qurmağa necə təhrik edir.

## "GÖRÜNMƏZ ƏL" RİCƏTİ

Adam Smit öz "görünməz əl" ideyasına görə məşhurdur. Bir çox insanlar bunu o mənada götürür ki, bizim şəxsi maraqlarımıza xidmət edən əməllərimiz, necə olsa da, ümumilikdə ictimai fayda gətirir. Bizim çətin sövdələşməmiz, məsələn, bazar sistemini yaradır ki, resursları böyük səmərəliliklə bölüşdürə bilsin.

Həqiqətən, "Yupiterin görünməz əli" xatırlatmasını "Astronomiya tarixi"ndən başqa, Smit yalnız iki dəfə ümumi düşünülmüş mənada deyil, "ümumi məhsul" bölməsində işlədir.

**Zəngin yoxsul üçün iş yaradır**

"Əxlaqi düşüncələr nəzəriyyəsi"ndə, Smit bildirir ki, "İlahi qüvvə"nin əli iqtisadi qazancları bərabərləşdirir. Zəngin kasıbdan çox yeyə bilməz. Yalnız onların torpağında başqaları ilə mübadilə etmək üçün istehsal olunmuş daha çox ərzaqları var ki, onu zənginlərin tələbatı olan cah-cəlal, oyun-oyuncaq və bəzək-düzək üçün təchiz edirlər. Yalnız özlərini düşünərək, zənginlər minlərlə insanı işlə təmin edirlər:

"Zəngin bu məhsul yığını içindən yalnız daha çox qiymətli və gərəkli olanını seçir. Onlar yoxsuldan az istehlak edir və onların təbiətən xudpəsənd və tamahkar olmasının əksinə, onlar öz sahib olduqlarının məhsullarını yoxsulla bölürlər – hətta baxmayaraq ki, onlar yalnız öz mənfəətlərini düşünürlər, onlar üçün işləyən minlərlə əməkçinin zəhmətindən əldə etdikləri məhsulu mənasız və acgöz arzularının hədiyyəsi olaraq yeganə məqsəd kimi görürlər. Onlar "görünməz əl" tərəfindən həyati ehtiyacların paylanmasına yaxın olanı edirlər, hansı ki, onu etməklə, yer üzü onun sakinləri arasında bərabər hissələrə bölünmüş olardı və beləliklə, onlar bunu düşünməyərəkdən, bilməyərəkdən, cəmiyyətin marağının xeyrinə və rəngarəngliyinin artmasına gətirirlər ".

**Yerli və xarici sənaye**

"Görünməz əl" ifadəsi "Xalqların sərvəti"ndə yalnız xarici ticarət üzərində yerli sənaye sahələrinin üstünlüyünə yardım edən rəsmi monopoliyalar haqqında bölmədə xatırladılır. Smit qeyd edir ki, bu, insanları yerli sənaye sahələrinə daha çox kapital yatırmağa vadar edir və arxasınca bu nöqtəyə gəlir:

"Hər bir fərd imkan olduğu qədər öz kapitalını daha çox yerli sənayenin dəstəklənməsi üçün sərf etməyə can atır. Beləliklə, o sənayeni istiqamətləndirmək üçün, ola bilsin ki, daha çox dəyər istehsal edəcəklər. Hər bir fərd cəmiyyətin illik gəlirini vermək üçün bacardığı qədər əhəmiyyətli dərəcədə daha çox işləyir. Həqiqətən də, o ümumi olaraq, nə ictimai marağı təşviq etməyi düşünür, nə də ona nə dərəcədə yardım etdiyini bilir. O, xarici sənayeyə yerli dəstək verməyi üstün tutmaqla, yalnız öz təhlükəsizliyini düşünür. O, istehsalı bu yolla istiqamətləndirməklə, ola bilsin, daha çox qazanc istehsal edəcək, amma təkcə öz qazancını düşünür; bu halda, başqa bir çox hallarda olduğu kimi, proses "görünməz əl" tərəfindən onun məqsədinin bir hissəsi olmadan sona çatdırılır."

Bu iki bölmə tənqidlərə yol açır ki, Adam Smitin "görünməz əl" konsepsiyası onun məhşur məramından uzaqdır. Birində, şəxsi marağın müsbət xoşbəxt sonluğu "İlahi qüvvə"yə şamil olunur. Digərində, bu ixrac ticarətinin müzakirəsində köməkçi bir rol oynayır.

**İnsan fəaliyyətinin düşünülməmiş nəticələri**

Həqiqətən, tənqidçilər çox məhdud şəkildə oxuyurlar. "Görünməz əl" ideyası, ümumi anlaşıldığı kimi, Smitin əsərinin nüfuz dairəsini genişləndirir və əgər o iki spesifik istinad heç

zaman mövcud olmasa belə, bu baş verəcəkdi. Bu ifadə Smitin o ideyasının çox uyğun stenoqrafiyasıdır ki, insan fəaliyyətlərinin düşünülməmiş nəticələri var. O, ədalət prinsiplərindən bir neçə əsaslı qayda yaratmışdır ki, fərdlərin düşünülməmiş özünəxidmət fəaliyyətləri yaxşı fəaliyyət göstərən və faydalı ictimai qayda-qanun yarada bilər.

Mən yun palto alan zaman (Smitin çəkdiyi misal), bunu öz mənafeyim üçün edirəm. Mağaza sahibinin və hətta bəlkə mənim heç zaman görüşməyəcəyim toxucular, çobanlar, dərzilər, birka vuranlar, boyaqçılar, tikişçilər, dəzgahqayıranlar, daşıyanlar və yerdə qalan hamısının mənafeyi məni az düşündürür. Nə də palto hazırlayanlardan hər hansı biri məni məmnun etmək üçün bunu düşünür. Onların fikirləri güman ki, daha çox ailələrini yedirtmək üçün pul qazanmaq haqqındadır.

Hər halda, mənim bazarlığım onlara mənfəət gətirir, çünki mənim xərclədiyimin müəyyən kiçik bir hissəsi avtomatik olaraq onların hər birinə çatır. Bənzər olaraq, onların hər birinin paltonun istehsalına qoyulan əməyi, mənə özüm tikə biləcəyimdən daha yaxşı, daha ucuz geyim təmin edir.

Qəribə görünə bilər ki, müxtəlif ölkələrdə minlərlə insanın əməyi avtomatik olaraq koordinasiya olunur və bu, ixtiyari rəhbərliyə ehtiyac duyulmadan, hər kəsin şəxsi maraq əsasında cəlb olunması ilə baş verir.

Amma Smit bunu tamamilə sadə şəkildə izah edir. Könüllü mübadilə yalnız hər iki tərəfin sövdələşmədən mənfəət gözlədiyi halda baş verir. Onlar hər biri qazancda istədiyi bir şeyi, normasından artıq istəmədiyi bir şeyi əldə edir – əmək müqabilində pul və ya pul müqabilində əmtəə. Milyonlarla insan bu yolla bir-biri ilə ticarət edən zaman, belə mənfəət geniş və sürətli şəkildə bütün cəmiyyətin arasında yayılır.

Eyni zamanda, qiymətlər göstərir ki, nə qədər insan mübadilədə xüsusi əmtəə və xidmətlər əldə etmək üçün könüllü olaraq nə qədər ziyana düşürlər. Onlar bizə siqnal verir ki, yüksək gəlir gətirmək üçün əmək və kapital harada qoyulmalıdır. Və beləliklə, avtomatik amma tamamilə düşünülməyərəkdən biz cəmiyyətin daha vacib istəklərini və ehtiyaclarını yerinə yetirməyə nail oluruq.

## Davamlı sistem

Smit bu ictimai sistemin təkamül təbiətinə müəyyən ehkam kimi baxır. "O yaşayır, çünki işləyir"- deyir. "Əxlaqi duyğular nəzəriyyəsi"ndə tam düzgün olaraq, o bunu "ilahi" və "yarımilahi" qüvvə kimi qeyd edir. Akademik həyat o zaman ruhanilər tərəfindən idarə olunduğuna görə, bəlkə də onların seçimi yox idi. Və ya, bəlkə də, Darvindən bir əsr əvvəl bu, yeganə izah kimi görünürdü. O hələ sistemin təbiətə, yoxsa ilahi qüvvəyə aid olunması arasında tərəddüd edirdi və sonra ruhanilər azad və müstəqil maaşla işləyəndə, bu ideyaya əsasən təbii, davamlı sistem onun fikirlərinə görə daha güclü inkişaf edir. Bu o demək deyil ki, biz həqiqətən istədiyimizi edə bilərik və "görünməz əl" bizə qayğı göstərəcək. Smitə yaxşı məlumdur ki, insanlar olduqca eqoist, paxıl, mənasız və kinlidirlər. İfrat olaraq, bu təbii insan meylləri təhlükəlidir, buna baxmayaraq , onlar mülayim səviyyədə əsaslı şəkildə vacibdirlər. Bizim şəxsi maraqlarımız bizi sövdələşmələr aparmaqla, düşünülməyərəkdən başqalarına mənfəət vermək üçün hərəkətə gətirir. Bizim zənginlərə olan həsədimiz bizi daha böyük səylərə ruhlandırır ki, qabaqcıl istehsal sahələri, elm, hətta sənətlər yaranır. Çünki biz başqalarının hörmətini sevirik, bizim şöhrətpərəstliyimiz bizi xeyirxah hərəkətlər etməyə təhrik edir. Başqalarının hiddəti bizi incitsə də, biz onlara zərər vurmaqdan çəkinirik.

Bu qeyri-adi yolla, Adam Smitin əxlaqi sistemi onun iqtisadi sistemi kimi "ifrat eqoist"dir. Biz məhsul alıcısı kimi, öz ambisiyalarımıza görə başqalarına xeyir veririk və onların nifrətindən zərər çəkməmək üçün, onlara ziyan vurmaqdan da çəkinirik.

## Fərdi fəaliyyət və ictimai nəticələr

Amma bu ictimai sistemin rahat və avtomatik fəaliyyəti üçün, biz bəzi qaydalara əməl etməliyik. Bizi başqalarına zərər vurmaqdan qoruyan ədalət qaydaları, bizi arzulanmaz istəklərdən çəkinməyə məcbur edən əxlaq qaydaları və iqtisadi sahədə mülkiyyət və müqavilə qaydaları. Bu fərdi davranış qaydaları faydalı ictimai qaydaların yaranmasına ruhlandırır. Biz bunun necə olduğunu başa düşməyə bilərik, amma təbii instinktimiz istənilən halda, məhdud düşüncə və qavrayışımızdan daha etibarlı bələdçidir.

Bu yaxınlarda, Nobel mükafatlı iqtisadçı F.A.Hayek Smitə və ondan sonrakılara əsaslanaraq, "ictimai qaydaların həmahəngliyi mərkəzi idarəçiliyə ehtiyac olmadan yarana bilər" ideyasını davam etdirdi. Özünün təkamül  və psixologiya haqqında müasir düşüncəsi ilə ictimai qrupların necə inkişaf etdiyini və onların düşünməyərəkdən, sadəcə fərdi davranış qanunauyğunluğuna əməl edərək rahat fəaliyyət qaydalarını yaratmasını işləyib hazlırladı. Dildə, məsələn, biz sadəcə qrammatikanın bir neçə qaydasına əməl etməklə düşünməyərəkdən səmərəli ünsiyyət sistemi yaradırıq – o qaydalar ki, biz tamamilə təbii olaraq əməl edirik, amma izah etməyə çətinlik çəkirik. Smit, əlbəttə, dil ilə bağlı öz qeydlərində ona yaxınlaşır.

Bu faydalı ictimai qaydaların əsası bizim birlikdə yaşamağı öyrənməyimizdədir. Biz hamımız öz arzularımızı təmin etmək istəyirik, amma bu çox zaman başqalarının istəkləri ilə toqquşur. Tədricən öyrənirik ki, başqaları tərəfindən heç bir halda zorakılıq təhlükəsinə aparmayacaq dözülən hərəkətlər hansılardır. Beləliklə, təbii insan hissiyyatının köməyi ilə biz öz maraqlarımızı başqalarına ziyan vurmamaq şərti ilə güdərək, ədalət qaydalarını işləyib hazırlayırıq. Yalnız iqtisadi sahədə deyil, başqa ictimai qarşılıqlı əlaqələrdə də biz, hətta məqsədimizin bir hissəsi olmasa belə, hamımıza mənfəət gətirmək yolu ilə əməkdaşlıq etməyi öyrənirik.

# ADAM SMİTİN BƏZİ DEYİMLƏRİ

*Əmək bölgüsü haqqında...*

Əmək bölgüsü nəticəsində, bütün fərqli sənət sahələrində böyük məhsul artımı, yaxşı idarə olunan cəmiyyətlərdə ona səbəb olur ki, ümumi sərvət öz-özünə əhalinin ən aşağı təbəqələrinə çatır.

*"Xalqların sərvəti",*
*I Kitab, c.1.səh.22. par.10*

*....və müqayisəli üstünlük*

Şüşələrin, istixanaların və istilik sisteminin köməyi ilə Şotlandiyada çox yaxşı üzüm yetişdirilə və onlardan çox yaxşı şərab hazırlana bilər. Bu ən azı xarici ölkələrdən gətirilənlər qədər yaxşı ola bilər, amma 30 dəfə baha qiymətə. Bütün xarici şərabların idxalına qadağa qoymaqla, yalnız Şotlandiyada "Claret" və "Burqundu"nun hazırlanmasını müdafiə etmək ağıllı qərar olardımı?"

*"Xalqların sərvəti",*
*IV Kitab, c.II.səh.458. par.15*

Hər bir ağıllı ailə sahibinin prinsipi odur ki, heç vaxt o şeyi evdə hazırlamağa can atmasın ki, onu düzəltmək almaqdan baha başa gəlir. Hər bir ayrıca ailənin davranışında rast gəlinən bu düşünülmüş hərəkət, çətin ki, böyük bir krallıq üçün səfehlik hesab olunsun.

*"Xalqların sərvəti",*
*IV Kitab, c.II.səh.456-7. par.11-12*

*rəqabət haqqında...*

Ümumilikdə, əgər hər hansı ticarət sahəsi və ya hansısa əmək bölgüsü ictimaiyyət üçün əlverişlidirsə, azad və daha ümumi rəqabət hər zaman daha artıq dərəcədə sərfəli olacaq.

*"Xalqların sərvəti",*
*II Kitab, c.II. səh.329. par.106*

İstehlak bütün istehsal prosesinin yeganə nəticəsi və məqsədidir və istehsalçının marağı ona yönəlməlidir ki, istehlakçının ona zəruri ehtiyacı nə dərəcədədir."

*"Xalqların sərvəti",*
*IV Kitab, c.VIII. səh.660. par.49*

*...və ticarətin deformasiyası*

Eyni ticarət sahəsində çalışan adamlar, hətta əyləncə və şənliklərdə belə, nadir hallarda bir araya gəlirlər, ancaq bu görüşlərdə də danışıqlar millətin əleyhinə olan və ya bəzi nəticələrə görə qiymətlərin qaldırılması haqda sövdələşmə ilə başa çatır... Amma baxmayaraq ki, qanun eyni ticarət sahəsində çalışan adamların hərdən bir yerə toplaşmasına mane ola bilmir, o, zəruri olanı təmin etməkdən başqa, belə toplantıların keçirilməsi üçün heç nə etməməlidir.

*"Xalqların sərvəti",*
*IV Kitab, c.VIII.səh.145. par.c27*

Xüsusi bir şəhərdə eyni ticarət sahəsindən olanların hamısının adlarını və ünvanlarını yaşayış yerlərində dövlət qeydiyyatına salmağa məcbur edən qaydalar belə toplantıları asanlaşdırır.

Eyni ticarət sahəsindən olanlara, öz yoxsullarını, xəstələrini, dul qadınlarını və yetimlərini təmin etmək üçün özlərinə vergi tətbiq etməyə imkan verən qaydalar bu toplantıları zəruri edir.

Korporasiya təkcə onları zəruri etmir, həm də böyük çoxluğun aksiyasını hamı üçün vacib edir. Azad ticarətdə məqsədyönlü əlaqələndirmə hər bir ayrı ticarət sahəsinin yekdil razılaşması ilə yaradılmamalıdır və bu hər bir ayrı ticarət sahəsinin eyni yolla davam etdiyindən uzun sürə

bilməz. Birliyin əksəriyyət çoxluğu məcburi qərarları xüsusi cərimələrlə qanuniləşdirə bilər ki, bu da, rəqabətin səmərəliliyini və hər hansı könüllü ittifaqa nisbətən dayanıqlığını məhdudlaşdırar.

*"Xalqların sərvəti",*
*IV Kitab, c.VIII.səh.145. par.29-30*

Bazarın genişlənməsi və rəqabətin məhdudlaşdırılması hər zaman ticarətçilərin marağındadır. Bu qaydadan irəli gələn hər hansı yeni qanun və ya kommersiya qanun layihəsi, gərək hər zaman yüksək prinsipiallıq, hətta şübhəli yanaşma yolu ilə böyük ehtiyatla dinlənilə, uzun sürən və diqqətli yoxlamadan keçmədən qətiyyən qəbul olunmaya. Bu insanların qoyduğu qaydalardan irəli gəlir. O insanların ki, onların maraqları ictimaiyyətlə üst-üstə düşmür, onların ictimaiyyəti aldatmaq və hətta əzmək üçün ümumi maraqları və çoxlu imkanları var.

*"Xalqların sərvəti",*
*I Kitab, c.XI. səh.267. par.10*

*dövlət*

...Kralların və nazirlərin şəxsi adamlarının iqtisadiyyatın keşikçiləri olmasını iddia etməsi, işə heç bir dəxli olmayan məsələ və fərziyyədir. Onlar özləri cəmiyyətdə hər zaman və hər hansı istisnasız ən böyük israfçılardır. Əgər onların öz ağılsız israfçılığı dövləti dağıtmırsa, onlar heç zaman məqsədlərinə yetməyəcəklər.

*"Xalqların sərvəti",*
*II Kitab, c.III. səh.346. par.36*

Müstəqil adamları öz kapitalını hansı yolla istifadə etməyə istiqamətləndirməyə cəhd göstərən bir dövlət adamı, özünü daha çox lazımsız məsələlərlə yükləməməli, üzərinə yalnız ayrıca bir şəxslə, hər hansı şura və ya senatla bağlı olmayan əminliklə etibarlı bir səlahiyyət götürməlidir. Hansı ki, o səlahiyyət heç yerdə özünü onu yerinə yetirməyə qadir hesab edən lovğa və səfeh adamın əlində olduğu qədər təhlükəli olmazdı.

*"Xalqların sərvəti" ,*
*IV Kitab, c.II.səh.456. par.10*

*...vergi tətbiq etmə*

Başqa belə bir sənət yoxdur ki, hökumət onu adamların ciblərinin pulunu boşaltmaq qədər tez öyrənsin.

*"Xalqların sərvəti",*
*V Kitab, c.II. II hissə, səh.458. par.15*

Hər bir dövlətin vətəndaşları, imkan daxilində öz bacarıqlarına uyğun olaraq hökumətin dəstək verdiyi işlərə yardım etməlidirlər.

*"Xalqların sərvəti",*
*V Kitab, c.II. II hissə, səh.825, par.3*

Hər bir fərdin ödəməli olduğu vergi qeyri-müəyyən deyil, dəqiq olmalıdır. Ödəmənin vaxtı, ödəmə üsulu, ödənilməli məbləğ ianəçi və hər bir başqa şəxs üçün aydın və sadə olmalıdır.

*"Xalqların sərvəti",*
*V Kitab, c.II. II hissə, səh.825, par.4*

Hər vergi vaxtında və ya qaydasında, ödəyici üçün çox rahat şəkildə toplanmalıdır.

*"Xalqların sərvəti",*
*V Kitab, c.II. II hissə, səh.826, par.5*

Hər vergi mexanizmi elə düşünülmüşdür ki, dövlətin ictimai xəzinəsinə gətirdiyi gəlirdən də artıq, mümkün qədər həm insanların cibini çox soysun, həm də onların cibini yığcam saxlasın.

*"Xalqların sərvəti",*
*V Kitab, c.II. II hissə, səh.826, par.6*

Kapital sahibi əslində dünyanın vətəndaşıdır və önəmli deyil ki, o, ayrıca bir ölkəyə bağlı olsun. Onun müəyyən olunmuş ağır vergi cərimənin məşəqqətli sıxıntısına məruz qaldığı halda, ölkəni tərk etməsi uyğun olardı. O, kapitalını hansısa başqa bir ölkəyə aparardı ki, orada ya öz biznesiylə məşğul olar, ya da öz azad həyatını yaşayardı.

*"Xalqların sərvəti",*
*V Kitab, c.II. II bənd, səh.848-49, par.f8*

*və subsidiyalar...*

Ağ siyənək balıqçılarına həvəsləndirici yardım tonnaj ilə bağlıdır və o, balıqçının zəhmətinə və ya uğuruna görə deyil, gəminin yükünə uyğunlaşdırılıb və mən qorxuram ki, bu yalnız balıq ovu üçün təchiz olunmuş gəmilərin, balıq üçün deyil, həvəsləndirici yardım üçün istifadə olunmasını adi hala çevirsin.

*"Xalqların sərvəti",*
*IV Kitab, c.V, səh.520, par.32*

*ixrac üzərində nəzarət...*

Əməksevər insanlar üçün qonşuluqdakı zəngin biri kasıba nisbətən daha yaxşı alıcı ola biləcəyi kimi, zəngin xalq da belədir. Bizim bütün qonşularımızın yoxsullaşmasını nəzərdə tutan ticarət məhdudiyyətləri, bunun müqabilində çox əhəmiyyətsiz ticarət və nifrət gətirir.

*"Xalqların sərvəti",*
*IV Kitab, c.III, hissə II, səh.495, par.c11*

Belə ödəmələr haqqında mühakimə yürütmək (başqa yüksək tarifli ölkələrə tariflər tətbiq olunur) ona bənzəyir ki, elə istehsal edirsən, bir nəticəsi yoxdur. Bəlkə də, müzakirələri dəyişməz ümumi prinsiplərlə tənzimlənən qanunvericinin məharətinə, o cümlədən, vəhşicəsinə dövlət adamı və ya siyasətçi adlandırılan o məkrli və hiyləgər heyvanın bacarığına məxsusdur ki, müşavirələri məsələlərin ötəri tərəddüdlərinə əsaslanır.

*"Xalqların sərvəti",*
*IV Kitab, c.II, səh.468, par.39*

*stimullar...*

Kommunal xidmətlər, onun icra olunmasına görə haqq ödənilməyincə və bu, onların icra olunmasına göstərilən zəhmətə uyğunlaşdırılmayınca, heç zaman yüksək səviyyədə yerinə yetirilmir.

*...və saxta stimullar*

Hər insanın marağındadır ki, bacardığı qədər asan yaşasın. Əgər onun gəlirləri müəyyən çox gərgin vəzifələri icra edib-etməməsindən asılı olmayaraq eynidirsə, bu, şübhəsiz onun marağını ora yönəldir ki, ya işdən tamamilə imtina etsin, ya da onu diqqətsiz və səliqəsiz şəkildə yerinə yetirsin.

*"Xalqların sərvəti",*

*V Kitab, c.I,  III hissə, II bənd, səh.760, par.f7*

*ədalət haqqında...*

Əgər ədalət aradan götürülsəydi, insan cəmiyyətinin böyük, nəhəng fabriki anında atomlara parçalanardı.

*"Əxlaqi duyğular fəlsəfəsi",*
*II hissə,  II bölmə, səh.86, par.4*

Dövləti ən aşağı barbarlıqdan sərvətin ən yüksək dərəcəsinə aparmaq üçün artıq heç nə tələb olunmur, çünki asayiş, sadə vergilər və ədalətin yol verilən idarəçiliyi və bütün yerdə qalanlar hadisələrin təbii gedişi nəticəsində yaranır.

*Mühazirə-1775, Duqald Stüart sitat gətirib,*
*Adam Smitin həyatı və yaradıcılığı*
*haqqında mühazirə, bölmə IV, 25.*

*...və insan şəfqəti*

Bir şəxsin nə dərəcədə xudbin olduğu fərz olunsa belə, onun təbiətində, şübhəsiz bəzi prinsiplər var ki, onu başqalarının taleyi ilə maraqlandırır və onların xoşbəxtliyini onun üçün önəmli edir, baxmayaraq ki, o, özünə məmnunluq verən şeydən başqa heç nə düşünmür."

*inkişafın hərəkətverici qüvvəsi...*

Hər bir fərdin qanunauyğun olaraq öz vəziyyətini daha da yaxşılaşdırmaq cəhdi çox güclüdür ki, bu təkcə və hər hansı yardım olmadan, yalnız cəmiyyətdə zənginlik və inkişafa aparmaq qabiliyyəti deyil, həm də insanların yaratdığı səfeh qanunlarla fəaliyyətini çətinləşdirən yüzlərlə yersiz maneələrin öhdəsindən gəlməkdir.

*"Xalqların sərvəti", IV Kitab, c.V, Taxil ticarətində tənəzzül, səh.540, par.b43*

*..."görünməz əl"*

Zəngin yoxsuldan yoxsuldan az istehlak edir və onların təbiətən xudpəsənd və tamahkar olmasının əksinə, onlar öz sahib olduqlarının məhsullarını yoxsulla bölürlər-hətta baxmayaraq ki, onlar yalnız öz mənfəətlərini düşünürlər, onlar üçün işləyən minlərlə əməkçinin zəhmətindən əldə etdikləri məhsulu mənasız və acgöz arzularının hədiyyəsi olaraq yeganə məqsəd kimi görürlər. Onlar "görünməz əl" tərəfindən həyati ehtiyacların paylanmasına yaxın olanı edirlər, hansı ki, onu etməklə, yer üzü onun sakinləri arasında bərabər hissələrə bölünmüş olardı və beləliklə, onlar bunu düşünməyərəkdən, bilməyərəkdən, cəmiyyətin marağının xeyrinə və rəngarəngliyinin artmasına gətirirlər .

*"Əxlaqi duyğular nəzəriyyəsi",*
*IV hissə,c.1, səh.184-5, par.10*

Hər bir fərd nə ictimai marağı təşviq etməyi düşünür, nə də ona nə dərəcədə yardım etdiyini bilir. O, yalnız öz təhlükəsizliyini düşünür və o, istehsalı o yolla istiqamətləndirməklə, ola bilsin, daha çox qazanc istehsal edəcək, amma təkcə öz qazancını düşünür; bu halda, başqa bir çox hallarda olduğu kimi, proses "görünməz əl" tərəfindən onun məqsədinin bir hissəsi olmadan sona çatdırılır.

*"Xalqların sərvəti",*
*IV Kitab, c.II səh.456, par.9*

Bu bizim nahar gözlədiyimiz qəssabın, şərabçının və ya çörəkçinin  iltifatından deyil, onların öz maraqlarına qayğısı ilə bağlıdır. Biz özümüzü onların humanistliyinə deyil,

özünəvurğunluğuna yönəldirik və heç zaman onlara öz ehtiyaclarımız barədə deyil, onların qazancları haqda danışırıq.

*"Millətlərin sərvəti",*
*I Kitab, c.II səh.26-7, par.12*

*...planlaşma*

İnsan sistemi onun öz təkəbbürü ilə çox uyğundur və çox zaman öz ideal hakimiyyət planının fərz edilən mükəmməlliyinə aşiqdir ki, o özü bunun hər hansı hissəsinin kiçicik bir təzahüründən belə əziyyət çəkmir. O, elə görünməyə çalışır ki, böyük bir cəmiyyətin üzvlərini, elə asanlıqla təşkil edə bilər ki, sanki bir əl fiqurun müxtəlif hissələrini şahmat taxtası üzərində yerləşdirir. O, nəzərə almır ki, insan cəmiyyətinin nəhəng şahmat taxtasında, hər ayrı hissənin, bütünlüklə o müxtəlf hissələrin öz hərəkət prinsipi var ki, onun üzərində təsir vasitəsini yalnız qanunverici seçə bilərdi.

*"Xalqların sərvəti",*
*I Kitab, c.II səh.26-7, par.12*

*... universitetlər*

Oksford universitetində olan professor ictimaiyyətinin böyük bir hissəsi, bu uzun illərdə dərs demək vərdişlərini belə tamamilə tərgitdi.

*"Xalqların sərvəti",*
*V Kitab, c.II., III hissə, bənd 2,*
*səh.761, par.8*

Kollec və universitetlərin nizam-intizamı əsasən tələbələrin xeyrinə deyil, rəhbərlərin mənafeyi və ya daha dəqiq deyilsə, onların işini yüngülləşdirmək üçün düşünülmüşdür.

*sərvətin yayılması...*

Böyük bir hissənin vəziyyətinin yaxşılaşması qətiyyən hamı üçün narahatlıq hesab olunmamalıdır. Çox böyük bir hissəsi yoxsul və zavallı olan hər hansı bir cəmiyyət mütləq mənada sağlam və xoşbəxt ola bilməz.

*"Xalqların sərvəti",*
*I Kitab, c.VIII., III hissə, səh.96, par.36*

Heç bir narazılıq pul ehtiyacından olan şikayət qədər geniş yayılmayıb.

*"Xalqların sərvəti",*
*VI Kitab, c.I., , səh.437, par.16*

*...və azadlığın faydası*

Ticarət məhdudiyyətləri olmadan əsl azadlığın açıq və sadə sistemi özü öz ahəngini yaradır. Hər kəs öz maraqlarının arxasınca getmək üçün sərbəst buraxılır...

Soveren (İngiltərədə monarxiya və cinayət hüququnun xərcləri (qızıl pul) tamamilə rüsumdan azad olunub; amma bu hansısa dəyərli insan zəkası və ya bilgisi hesabına deyil, şəxsi adamlara məxsus sənaye sahəsinin idarə olunmasından gələn rüsum və onu cəmiyyətin maraqlarına uyğun ən sərfəli işlər istiqamətinə yönəltməklə baş verib.

*"Xalqların sərvəti",*
*VI Kitab, c.IX səh., III hissə, səh.687, par.51*

Kompyuter tərtibçisi:
Aliyə Qabilqızı

Yığılmağa verilmiş: 25.09.2008
Çapa imzalanmış: 18.12.2008
Formatı: 70x100 1/32
Tirajı: 300